GÜNÜN XƏBƏRİ

Azərbaycan Fövqəladə Hallar Nazirliyi heyətinin Kahramanmaraşda iştirak etdiyi birgə mürəkkəb əməliyyat nəticəsində dağıntılar altında 198 saat qalmış 2 qardaş – 17 yaşlı Muhammed Enes və 21 yaşlı Abdulbaki xilas ediliblər.

Səhifə ⇨ 9

“Xalq qəzeti”ni Təbrizdə də oxuyurmuşlar

Cənubi Qafqaz uğrunda “daha yaxşı vasitəçilik” savaşı

Səhifə ⇨ 4

Səhifə ⇨ 6

Dərd ortaqlığı, qardaşlıq borcu

“Xalq qəzeti” – Xalqın qəzeti!

Xalq qəzeti

№ 34 (30150) 15 fevral 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

Əlaqələrin genişləndirilməsi istiqamətində təmaslar fəallaşıb

Prezident İlham Əliyev San-Marinonun Azərbaycanda yeni təyin olunan səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də San-Marino Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Con Matsanın etimadnaməsini qəbul edib.

Səfir Con Matsa etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı bildirdi ki, ölkələrimiz arasında siyasi, iqtisadi, turizm sahələrində əlaqələrin genişləndirilməsi üçün imkanlar mövcuddur və bu xüsusda təmaslar daha da fəallaşdırılıb.

Prezident İlham Əliyev San-Marino rəhbərlərinin 2015-ci ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafına müsbət təsir göstərəcəyinə ümidvarlığını ifadə etdi.

Səfir Con Matsa ölkələrimiz arasında əlaqələrin inkişafı üçün böyük imkanların olduğunu vurğuladı, San-Marinonun Azərbaycanla münasibətləri dərinləşdirməkdə, siyasi, həmçinin mədəniyyət və turizm sahələrində əməkdaşlığın genişləndirilməsində maraqlı olduğunu dedi. Səfir bundan sonra mütəmadi əsasda Azərbaycana səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə görüşlər keçirəcəyini və əlaqələrimizin inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirdi.

San-Marinonun İtaliya ilə də çox sıx əlaqəsinin olduğunu vurğulayan diplomat bu çərçivədə də ölkələrimiz arasında xüsusilə təhsil və turizm sahələrində əməkdaşlıq üçün imkanların mövcudluğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı öz növbəsində bildirdi ki, ölkəmizin həm İtaliya, həm də Vatikan ilə çox yaxşı münasibətləri var. İtaliya–Azərbaycan əlaqələri strateji tərəfdaşlıq müstəvisində inkişaf edir. Prezident İlham Əliyev, həmçinin özünün Vatikana və Roma papalarının Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Bu əsnada ölkələrimiz arasında yaxşı əməkdaşlıq imkanlarının olduğunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycan ilə San-Marinonun işgüzar dairələri arasında birbaşa əlaqələrin yaradılması, San-Marinonun turizm imkanlarının ölkəmizdə təqdim olunması, habelə təhsil sahəsində əməkdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyini diqqətə çatdırdı.

AZƏRTAC

Prezidentin Mətbuat Xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə telefonla zəng edib.

Telefon söhbəti zamanı iqtisadi-ticari əməkdaşlığın, o cümlədən energetika və nəqliyyat sahələrində birgə layihələrin həyata keçirilməsi perspektivləri geniş müzakirə olunub.

Cənubi Qafqaz regionunda cari vəziyyət barədə də ətraflı fikir mübadiləsi aparılıb. Azərbaycan-Ermənistan sərhədində sabitliyin və təhlükəsizliyin təmin olunması məqsədilə ardıcıl tədbirlərin görülməsinin əhəmiyyəti qeyd edilib. Bu kontekstdə Rusiya, Azərbaycan və Ermənistan arasında yüksək səviyyədə əldə olunmuş müvafiq razılaşmaların qeyd-şərtsiz yerinə yetirilməsinin vacibliyi vurğulanıb.

Təmasların müxtəlif formatlarda davam etdiriləcəyi qeyd olunub.

Ş.S.Bağırovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri təyin edilsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 fevral 2023-cü il

Ş.S.Bağırovun Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilməsi haqqında

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Şahin Soltan oğlu Bağırov Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini vəzifəsindən azad edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 14 fevral 2023-cü il

Paşinyana qınaq – “seysmik diplomatiya” və xəstə erməni cəmiyyəti

İrəvandan Ankaraya yardımın doğurduğu mənzərəyə ötəri baxış

Son günlər Ermənistanın ictimai informasiya mühitində Türkiyədə baş vermiş fəlakətli zəlzələ ilə bağlı məsələ geniş müzakirə edilməkdədir. Bu xüsusda ölkə hökumətinin verdiyi başsağlığı və göstərdiyi humanitar yardım önə çəkilməkdədir. Bəri başdan deyək ki, erməni cəmiyyəti adına kifayət qədər miskin və zavallı mənzərə görünməkdədir. Bu mənzərəni şərtləndirən isə həmin cəmiyyətin düçar olduğu ağır xəstəlikdir. Elə bir xəstəlik ki, ondan qurtulması son dərəcə müşkküldür. Hər halda, görünən mənzərə xəstəliyə və onun doğurduğu kütləvi psixoza müqavimətin olmadığından xəbər verməkdədir.

Bəli, Türkiyədəki dəhşətli zəlzələ də haylara insanlıq dərsi vermək iqtidarında deyil. Belə görünür, Ermənistanda bir nəfər azacıq ağlı başında olan adam varsa, o da baş nazir Nikol Paşinyandır. Hərçənd, o da məlum xəstəlikdən əziyyət çəkməmiş durumda deyil. Paşinyanın məqsədindən yazının sonunda söz açacağıq.

Hələlik bildirək ki, Ermənistanda zəlzələyə münasibət baxımından bir neçə yönümlü müzakirələr aparılmaqdadır. Şərti olaraq müəyyənləşdirdiyimiz həmin müzakirə istiqamətlərini diqqətə çatdıraq:

1. Türkiyə–Ermənistan quru sərhədinin Türkiyəyə humanitar yardım üçün açılması;
2. Türk düşmənçiliyi – nifrət ritorikası;
3. Türkiyəyə yardım müstəvisində ölkə iqtidarının qınanması.

(ardı 8-ci səhifədə)

Əsrin fəlakəti və ölməyən ümidlər...

Səhifə ⇨ 7

Texnoloji sənayenin ÜDM-də payı artacaq


Səhifə ⇨ 5

Ermənistan regiona hansı təhlükə törədir?

Səhifə ⇨ 8

“İrəvan Moskvaya xəyanət yolu tutur”

Səhifə ⇨ 10

Prezident İlham Əliyev Qana səfirinin etimadnaməsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Qana Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Oheneba Lesli Akua Akyaa Opoku-Varenin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev 2019-cu ildə Qoşulmama Hərəkatının Bakıda keçirilən 18-ci Zirvə Görüşündə iştirak etmək üçün Qana Prezidenti Nana Akufo-Addonun Azərbaycana səfərini məmnunluqla xatırladı. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə Qananın verdiyi dəstəyin və göstərdiyi etimadın ölkəmiz tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırdı, Azərbaycanın təşkilatın sədri kimi peyvənd millətçiliyinə qarşı apardığı fəaliyyəti vurğuladı və bu sahədə yaxşı nailiyyətlərin əldə olunduğunu dedi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatı çərçivəsində kontakt qrupu ölkələrinin iştirakı ilə gələn ay COVID-19-dan sonrakı dünyaya həsr olunmuş növbəti Sammitə ev sahibliyi edəcəyini bildirdi. Azərbaycan Prezidenti ölkələrimiz arasında siyasi əlaqələrin, iqtisadi-ticari, investisiya qoyuluşu sahələrində əməkdaşlığın inkişaf etdirilməsi üçün geniş imkanların olduğunu vurğuladı.

Səfir də, öz növbəsində, Qana Prezidentinin 2019-cu ildə Azərbaycana səfərini məmnunluqla xatırladı, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində səmərəli əməkdaşlığını qeyd etdi. Diplomat Azərbaycana Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətində uğurlar arzuladı.

Azərbaycanda yaradılmış infrastrukturdan və əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılması istiqamətində görülən işlərdən məmnunluğunu bildirən səfir ölkəmizin davamlı inkişaf sahəsində təcrübəsinin maraqlı olduğunu qeyd etdi. O, həmçinin ölkələrimiz arasında təhsil, kənd təsərrüfatı, mədən sənayesi kimi sahələrdə əməkdaşlıq üçün imkanların olduğunu vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına üzv ölkələrə ayırdığı təhsil qrantı çərçivəsində Qanadan olan 10-a yaxın tələbənin ölkəmizin müxtəlif təhsil müəssisələrində ali təhsil aldığını bildirdi.

Səfir təhsil sahəsində əməkdaşlığın mühüm əhəmiyyət kəsb etdiyini vurğuladı, Azərbaycanın neft-qaz sahəsində ali təhsil müəssisələrinin rolunu xüsusi qeyd etdi.

Diplomat Azərbaycana mütəmadi səfər edəcəyini, aidiyyəti dövlət orqanları ilə səmərəli əməkdaşlığın qurulacağına və ölkələrimiz arasında yeni əməkdaşlıq sahələrinin müəyyən ediləcəyinə ümidvar olduğunu dedi.

AZƏRTAC

Prezident İlham Əliyev Anqola səfirinin etimadnaməsini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Anqola Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Auqusto da Silva Kunhanın etimadnaməsini qəbul edib.

Səfir Auqusto da Silva Kunha etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı vurğuladı ki, Anqola ilə Azərbaycan arasında siyasi əlaqələr yaxşı səviyyədədir, iqtisadiyyat və ticarət sahələrində əməkdaşlığımızın inkişaf etdirilməsi üçün böyük imkanlar mövcuddur. Energetika sahəsini xüsusi qeyd edən Prezident İlham Əliyev ölkələrimizin bu sahədə də əməkdaşlıq imkanlarının geniş olduğunu diqqətə çatdırdı.

Azərbaycan Prezidenti ölkəmizin Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində Anqolanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini bildirdi. Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında aparılan islahatlar çərçivəsində Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik edən ölkənin rotasiya qaydasında BMT Təhlükəsizlik Şurasının daimi üzvü olması təşəbbüsü ilə çıxış etdiyini vurğuladı, Hərəkata üzv dövlətlər arasında bununla bağlı məsləhətləşmələrin aparılmasının vacibliyini qeyd etdi.

Auqusto da Silva Kunha Azərbaycana qeyri-rezident səfir təyin olunmasından məmnunluğunu bildirdi və Anqola Prezidenti Joao Lorensonun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Anqolanın dövlət başçısına çatdırmağı xahiş etdi.

Səfir bildirdi ki, Anqola müstəqillik əldə etdikdən sonra Azərbaycan bu ölkədə mütəxəssislərin hazırlanmasına böyük töhfələr verib. Diplomat bu xüsusda mütəxəssislərin, mühəndislərin, həkimlərin və hərbçilərin hazırlanmasında Azərbaycanın ali təhsil müəssisələrinin mühüm rol oynadığını diqqətə çatdırdı. Ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunduğunu bildirən Auqusto da Silva Kunha Anqolanın Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinə dəstək verdiyini vurğuladı və ölkəmizin təşkilatda sədrliyinə uğurlar arzuladı.

Dövlətimizin başçısı dedi ki, Azərbaycan Qoşulmama Hərəkatının sədrliyini qəbul edən zaman təşkilata üzv dövlətlərin problemlərinin gündəlikdə saxlanılacağını xüsusi qeyd etmişdi və dövlətimiz bu məsələyə mühüm əhəmiyyət verir.

Görüşdə, həmçinin elm, təhsil, kənd təsərrüfatı, mədən sənayesi, energetika sahələrində və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.

AZƏRTAC

Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi qulluqçusu Türkiyədə kursu birinciliklə bitirib

Azərbaycan Hərbi Hava Qüvvələrinin hərbi qulluqçusu kapitan Yaqubov Tural Ağaəli oğlu Türkiyə Respublikasında təşkil olunan kursu birinciliklə bitirib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Türkiyənin Hava Tədris Komandanlığının məktəblərindən birində keçirilən ingilis dili kursunda Azərbaycan, Türkiyə, Qırğızıstan, Gürcüstan, Ukrayna və Mavritaniyadan olan hərbi qulluqçular iştirak ediblər.

Kursu müvəffəqiyyətlə bitirən hərbi qulluqçulara sertifikatlar təqdim olunub.

Q.QASIMOV, "Xalq qəzeti"

Prezident İlham Əliyev Rusiya XİN-in nümayəndəsini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin (XİN) Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib.

Dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə Azərbaycan arasında ikitərəfli əlaqələrə toxunaraq, əməkdaşlığımızın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini məmnunluqla vurğuladı. Yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd edən Prezident İlham Əliyev, həmçinin iki ölkənin qanunverici orqanları səviyyəsində qarşılıqlı səfərlərin və əməkdaşlığın əhəmiyyətinə toxundu.

Görüşdə Ermənistan ilə Azərbaycan arasında münasibətlərin normallaşdırılması, sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesi barədə fikir mübadiləsi aparıldı.

İqor Xovayev regiona səfəri və Rusiyanın Ermənistan ilə Azərbaycan arasında sülh müqaviləsinin hazırlanması üzrə danışıqlar prosesinə dəstək vermək üçün atdığı addımlar barədə məlumat verdi.

AZƏRTAC

Qanunverici orqanlar arasında əlaqələr yeni mərhələyə qədəm qoyur

Milli Məclisin Sədri Sahibə Qafarova Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində bu ölkənin Federal Məclisi Federasiya Şurasının Sədri Valentina Matviyenko ilə görüşüb. Federasiya Şurasının Sədri ölkələrimiz arasında münasibətlərin bütün sahələr üzrə yüksəlişdə olduğunu vurğulayaraq, deyib ki, əməkdaşlığımız mehriban qonşuluq və qarşılıqlı anlaşma əsasında inkişaf edir.

V.Matviyenko İki ölkə arasında əlaqələrin genişləndirilməsində Birinci vitse-prezident Mehriban xanım Əliyevanın uğurlu fəaliyyətini də vurğulayıb.

Parlamentlərarası əlaqələrdən danışan Federasiya Şurasının Sədri, Milli Məclisin rəhbəri ilə görüşlərin xoş ənənəyə çevrildiyini qeyd edərək, bunun qanunverici orqanlar arasında əlaqələrin müsbət göstəricisi olduğunu ifadə edib. Onun sözlərinə görə, parlamentlərarası əlaqələr səmərəlidir və həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir. V. Matviyenko deyib ki, Azərbaycan Respublikası Milli Məclisi ilə Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması arasında əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanması ilə parlamentlərarası əlaqələrdə yeni mərhələ başlayacaq. Hazırda Rusiya Federasiyasının 70-dən çox subyektinin müəssisələrinin Azərbaycanla xarici ticarət fəaliyyəti ilə məşğul olduğunu bildirən V. Matviyenko, həmçinin Azərbaycan, Rusiya və Ermənistan tərəfindən imzalanmış üçtərəfli razılaşmaların həyata keçirilməsinin vacibliyindən də söz açıb.

Milli Məclisin Sədri Sahibə Qafarova həm bu səfərin, həm də tərəflər arasında imzalanmış Anlaşma Memorandumunun ikitərəfli münasibətlərin parlament ölçüsünün inkişafına təkan verəcəyini bildirib. Ötən il ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümünün qeyd olunduğunu xatırladan Sahibə xanım bu illər ərzində Azərbaycanla Rusiya arasında münasibətlərin dinamik inkişafını önə çəkib. O, Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin fevralında Rusiya Federasiyasına rəsmi səfəri çərçivəsində imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamənin əlaqələrimizdə yeni mərhələnin əsasını qoyduğunu diqqətə çatdırıb, həmçinin ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının mühüm rolunu xüsusi vurğulayıb.

İki ölkə arasında parlamentlərarası münasibətlər üzərində geniş dayanan Sahibə xanım həm Milli Məclisdə, həm də Federal Məclisdə fəaliyyət göstərən dostluq qruplarının, həmçinin daimi fəaliyyət göstərən ikitərəfli parlamentlərarası komissiyanın işinin təqdirəlayiq olduğunu bildirib.

S.Qafarova Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi Qələbədən, işğaldan azad edilmiş ərazilərin "Yaşıl enerji" zonası elan olunmasından, Qarabağ və Şərqi Zəngəzurda yeni qəsəbə və kəndlərin salınmasından, eləcə də, artıq keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına geri qaytarılmasından söhbət açıb. Parlamentin Sədri bununla yanaşı, Ermənistanın danışıqlarda destruktiv mövqe nümayiş etdirməsini və üçtərəfli Bəyanatın tələblərini açıq-aşkar pozduğunu da vurğulayıb. O, Laçın yolunun, guya, Azərbaycan tərəfindən bağlanması, həmin ərazidə yaşayan ermənilərin blokadaya məruz qalmaları, humanitar böhran yaranması ilə bağlı Ermənistan tərəfinin bəyanatlarının tamamilə əsassız olduğu, həmçinin İran İslam Respublikasında Azərbaycan səfirliyinə qarşı törədilən terror aktı barədə də məlumat verib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

Əliqismət BƏDƏLOV,
"Xalq qəzeti"

FHN: Xilasedicilər dağıntılar altında 198 saat qalmış 2 qardaşı sağ xilas ediblər

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən Türkiyədə olan Fövqəladə Hallar Nazirliyinin (FHN) çevik xilasetmə qüvvələri qardaş ölkədə baş vermiş güclü zəlzələnin fəsadlarının aradan qaldırılması və axtarış-xilasetmə əməliyyatlarını fasiləsiz davam etdirirlər.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Azərbaycan FHN-in xilasedicilərinin Türkiyə və Belarusdan olan həmkarları ilə birgə həyata keçirdikləri xüsusilə mürəkkəb xilasetmə əməliyyatı nəticəsində Kahramanmaraşda dağıntılar altında 198 saat qalmış 2 qardaş – 17 yaşlı Muhammed Enes və 21 yaşlı Abdulbaki sağ xilas olunublar.

Əməliyyatların gedişi barədə əlavə məlumat veriləcək.

"Xalq qəzeti"

Azərbaycan Respublikası Ali Məhkəməsi – 100

Məhkəmə-hüquq islahatlarında ulu öndər Heydər Əliyev dühası

Ümummilli lider Heydər Əliyevin əziz xatirəsinə dərin ehtiram əlaməti olaraq ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən ulu öndərin anadan olmasının 100 illiyi münasibətilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı çoxşaxəli tədbirlər müəyyən edilərək həyata keçirilir.

Müasir müstəqil dövlətimizin banisi ulu öndər Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısında xidmətləri misilsizdir. Ölkəmizin məhkəmə-hüquq sisteminin demokratik prinsiplər əsasında bərqərar edilməsi məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Əlamətdar haldır ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyi "Heydər Əliyev İli"ndə qeyd olunur. Bu münasibətlə ümummilli liderin adını daşıyan Heydər Əliyev Mərkəzində çoxsaylı xarici dövlətlərdən olan mötəbər qonaqların iştirakı ilə beynəlxalq konfrans keçirilmiş, Ali Məhkəmənin tarixi inkişaf yoluna, ulu öndərin bu sahədə müstəsna xidmətlərinə nəzər salınmışdır.

Ümummilli liderin "tariximizin hər səhifəsi bizim üçün əzizdir" fikrinə sadiq qalaraq məhkəmə sistemimizin inkişafı yolunda bəzi mühüm məsələlərə diqqət yetirmək istərdik.

Hələ qədim dövrlərdə Azərbaycanda yaranmış dövlətlərdə məhkəmələrin fəaliyyətində müstəqillik, tərəflərin bərabərliyi və çəkişmə kimi mühüm prinsiplərin elementləri, xüsusilə də çoxpilləlilik institutu mövcud olmuşdur.

Eyni zamanda hakimlər üçün tələblərə, onların təminatına xüsusi əhəmiyyət verilmişdir.

Orta əsrlərdə "Qazan xan islahatları" kimi məşhurlaşan hüquq islahatı Azərbaycanda məhkəmələrin müstəqilliyinin təmin olunmasına, onların kənar müdaxilədən qorunmasına, işlərə baxılarkən ədalətin gözlənilməsinə yönəlmişdi.

1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətində demokratik hüquq sisteminin formalaşması, mütərəqqi məhkəmə islahatının aparılması üçün önəmli addımlar atılmış, lakin təəssüf ki, ölkənin işğalı bu taleyüklü işlərin başa çatdırılmasına, ali məhkəmə orqanının yaradılmasına imkan verməmişdi.

Və düz 100 il əvvəl məhz 13 fevral tarixində Azərbaycanda ali məhkəmə orqanı yaradılmışdır.

Sovet hakimiyyəti illərində keşməkeşli yollar qət edən məhkəmə-hüquq sistemimizin dayanıqlı fəaliyyəti ümummilli lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişi dövrünə təsadüf edir.

Ədalət, qanunçuluq və hüquq qaydalarının təminatını hər zaman üstün tutan Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" – deyərək qanunun aliliyini əsas meyar saydı.

Cinayətkarlığa, korrupsiyaya qarşı SSRİ məkanında ilk dəfə aşkar və cəsarətli çıxış edərək barışmaz münasibət göstərdi, vətəndaş məmnunluğunu təmin etdi.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra xalqın tələbi ilə hakimiyyətə qayıdan dahi öndər Heydər Əliyev demokratik, hüquqi dövlətin təməlini qoydu. Ümummilli lider hüquqi islahatlara müstəsna əhəmiyyət verərək, bu məqsədlə yaradılan Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü və qısa müddətdə yeni müasir qanunlar və məcəllələr qəbul olundu. Ulu öndərin dühası ilə yeni üçpilləli müstəqil məhkəmə sistemi və bu hakimiyyətdə mühüm rol oynayan Ali Məhkəmə bərqərar olunaraq fəaliyyətə başladı.

Məhkəmələrə insan haqlarının qorunması ilə bağlı müstəsna səlahiyyətlər verildi, Azərbaycan postsovet məkanında qətiməkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu. Humanizm prinsiplərinə sadiqlik göstərilərək şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv olundu.

Həmçinin Ali Məhkəmə demokratik cəmiyyətə xas olmayan nəzarət funksiyalarından azad edildi və onun sırf kassasiya instansiyası kimi yalnız hüquqi məsələləri araşdırması və prosesdə vəkilin mütləq iştirakı təsbit olundu.

Dövlətçilik tariximizdə ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə hakim seçimi keçirilərək təyinatlar aparıldı. Əvvəlki hakim korpusu 60% təzələndi. Bundan dərhal sonra ABŞ-da olarkən ümummilli lider "Azərbaycan Avrasiyanın qapısı, strateji və iqtisadi alyanslar ölkəsidir" mövzusunda keçirilmiş beynəlxalq konfransda demişdir: "Biz Azərbaycanın məhkəmə sistemini tamamilə yeni səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq. Bütün hakimlər test üsulu ilə imtahandan, yarışdan keçdilər və kim qalib gəldi, o da hakim təyin olundu".

Ulu öndərin siyasi varisi, ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan rəhbərliyinə gəldiyi ilk günlərdən məhkəmə hakimiyyətinin müasir çağırışlara uyğun inkişafı, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və şəffaflığın artırılması, onun cəmiyyətdə nüfuzunun yüksəldilməsi üzrə tövsiyə və tapşırıqlar vermiş, bu istiqamətdə mütərəqqi islahatlara başlanılmışdır.

Dövlət başçısının Azərbaycan Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına müraciətində qeyd etdiyi kimi, "məhkəmə-hüquq sisteminin davamlı inkişafı daim dövlət siyasətimizin prioritetlərindən biri olmuşdur. Məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun yaradılması, məhkəmə fəaliyyətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə təkmilləşdirilməsi bu inkişaf prosesinin mühüm istiqamətləridir".

Bununla bağlı ötən dövrdə aparılmış islahatlar zamanı Avropa Şurası ilə əməkdaşlıqda məhkəmə fəaliyyətini tənzimləyən mövcud qanunvericilik mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla demək olar ki, hər il təkmilləşdirilmiş, yeni qanunlar qəbul edilmişdir.

Mühüm institusional tədbirlər görülərək məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası və həmçinin Hakimlərin Seçki Komitəsi yaradılmış, hakimliyə namizədlərin beynəlxalq aləmdə təqdir olunan ən mütərəqqi və şəffaf seçimi Qaydası müəyyən olunmuşdur.

Eyni zamanda məhkəmə hakimiyyətinin müstəqilliyinin əlavə təminatları yaradılmış, onun fəaliyyətinə müdaxilələrin Məhkəmə-Hüquq Şurası tərəfindən qarşısının alınması mexanizmləri müəyyən edilmiş, məhkəmə büdcələri təsdiq olunarkən Şura ilə razılaşdırılması, habelə hakimlərin əmək haqqının azaldılmasının qanunla qadağan olunması təsbit edilmiş, digər tədbirlər görülmüşdür.

Həmçinin vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması məqsədilə məhkəmə sistemi təkmilləşdirilmiş və 40-dək yeni məhkəmə, o cümlədən bütün bölgələrdə apellyasiya məhkəmələri, inzibati ədliyyə institutu yaradılmışdır. Mövcud məhkəmə infrastrukturu Dünya Bankının iştirakı ilə müasirləşdirilərək paytaxtda və bölgələrdə 35 məhkəmə üçün yüksək texnoloji - hi-tech bina və komplekslər inşa olunaraq istifadəyə verilmişdir.

Bu məhkəmələrin əksəriyyətinin ölkə Prezidenti tərəfindən açılışının şəxsən həyata keçirməsi məhkəmə hakimiyyətinə dövlətimizin verdiyi müstəsna dəyərin bariz təzahürüdür.

Eyni zamanda məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə məhkəmə fəaliyyəti elektronlaşdırılmış, insanların məhkəməyə müraciət etdiyi andan məhkəmə qərarının icrasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi yaradılmışdır.

Artıq məhkəmələrin 80%-ə qədərində tətbiq edilən bu sistemin yaxın aylarda ölkənin bütün məhkəmələrini əhatə etməsi nəzərdə tutulur.

Qeyd olunmalıdır ki, məhkəmə islahatlarımız beynəlxalq aləmdə də təqdir olunur. Ölkəmiz bu sahədə nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülmüş, Dünya Bankı ilə birgə həyata keçirilən ədliyyə sisteminin müasirləşdirilməsi üzrə layihələrimiz ən uğurlu layihələr kimi müxtəlif nominasiyalarının qalibi olmuşdur. Öz şəffaflığı ilə fərqlənən hakimlərin seçimi prosedurumuz isə Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirərək digər dövlətlərə ondan bəhrələnmək tövsiyə edilmişdir.

Məhkəmə fəaliyyəti ilə bağlı bütün məsələlərin tənzimlənməsində Azərbaycan Ali Məhkəməsi fəal iştirak edir.

Belə ki, Ali Məhkəmənin sədri, habelə məhkəmənin 2 hakimi Məhkəmə-Hüquq Şurasının, daha 2 hakimi isə Hakimlərin Seçki Komitəsinin üzvü olmaqla bu sahədə qərarların qəbulunda birbaşa iştirak edirlər.

Bununla yanaşı, hakimlərin məsuliyyət hissinin artırılmasında Ali Məhkəmə mühüm rola malik olmaqla məhkəmə səhvlərinin profilaktikasında prinsipial və təsirli mövqe göstərir, kobud pozuntulara qarşı intizam icraatını təşviq edir, digər tədbirlər görür.

Məhkəmə islahatları daim davam edən prosesdir. Ali Məhkəmənin binasının təməlinin qoyulması mərasimində möhtərəm cənab Prezident demişdir ki, bu islahatların əvvəli var, amma sonu yoxdur.

Bununla əlaqədar dövlət başçısının 3 aprel 2019-cu il tarixdə imzaladığı fərmanla məhkəmə islahatlarımız müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçmişdir.

Fərmanın icrası üzrə qısa müddətdə bu sahədə nəhəng işlər görülmüş, institusional tədbirlər çərçivəsində 13 regional məhkəmə, o cümlədən bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır.

Məhkəmə icraatı zamanı çevikliyin təmin edilməsi, işlərə daha səmərəli baxılması, bütövlükdə ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi ilə bağlı Mülki-Prosessual Məcəlləyə 350-dək dəyişikliklər edilmişdir. Həmçinin sadələşdirilmiş və yazılı icraat genişləndirilmiş, proseslərdə video-konfrans və elektron icraat, habelə məhkəmə rüsumlarının diferensiasiyası tətbiq olunmuşdur.

Cəza siyasətinin humanistləşdirilməsi üzrə tədbirlər görülmüş, cinayət qanunvericiliyinə edilmiş dəyişikliklər nəticəsində bir çox əməllər dekriminallaşdırılmış, bəzi cəzalar yüngülləşdirilmişdir.

Hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini təmin etmək məqsədilə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üzrə qanunvericiliyə mühüm dəyişikliklər edilmişdir. Bununla əlaqədar yol verilən sistem xarakterli nöqsanların müəyyən edilməsi üçün Ali Məhkəmənin monitorinqlər aparmasına dair ayrıca Qaydalar qəbul olunmuş, digər zəruri tədbirlər görülmüşdür.

Eyni zamanda fərmana uyğun olaraq hakimlərin fəaliyyətinin müasir tələblərə cavab verən yeni, şəffaf qiymətləndirmə Qaydaları müəyyən edilmişdir. Bu prosesdə Ali Məhkəmə əhəmiyyətli rol oynayır, hər bir hakimin fəaliyyətini ətraflı və prinsipial təhlil etməklə rəylər verir. Məhkəmə-Hüquq Şurasının üzvü olan Ali Məhkəmənin hakimləri qiymətləndirmə prosesində bilavasitə və fəal iştirak edirlər.

Fərmanla, həmçinin hakimlərimizin sayı üçdə bir qədər – 200 vahid artırılmış, bu ştatların tezliklə komplektləşdirilməsi məqsədilə hakimlərin seçimi davamlı xarakter almış və artıq 123 nəfər birinci instansiya məhkəmələrinin hakimi təyin edilmişlər. Onların yarıya qədərini qadınların təşkil etməsi xüsusi qeyd olunmalıdır.

Bu isə daha təcrübəli hakimlərin irəli çəkilməsinə imkan yaratmış və nəticədə son dövrlər ərzində Ali Məhkəmənin tərkibi 70% təzələnmişdir.

Bu gün əsas vəzifələrimizdən biri ədalət mühakiməsi sistemini Müzəffər Ali Baş Komandan cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində Böyük Qələbəmizlə azad edilmiş torpaqlarımızda təmin etməkdir.

İşğal dönəmində büsbütün dağıdılaraq minalanmış ərazilərimizdə dövlət başçısının rəhbərliyi ilə infrastruktur təzədən qurulur, o cümlədən qədim abidələrimiz, mədəni irsimiz respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə iştirakı ilə bərpa edilir.

Həmin bölgədə infrastruktur bərpa olunaraq soydaşlarımızın öz torpaqlarına qayıtması ilə yeni yaradılan məhkəmə və ədliyyə qurumlarımızın da fəaliyyəti təmin olunacaqdır.

Fürsətdən istifadə edərək Ali Məhkəmənin kollektivini 100 illik yubiley və yüksək dövlət təltiflərinə layiq görülmələri münasibətilə təbrik edir, fəaliyyətlərində uğurlar arzulayıram.

Fikrət MƏMMƏDOV,
Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri, I dərəcəli dövlət ədliyyə müşaviri

Azərbaycanın Baş naziri Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov fevralın 14-də Dünya Hökumət Sammitində iştirak etmək üçün Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfərə gəlib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Azərbaycanın Baş nazirini Dubay Beynəlxalq Hava Limanında Birləşmiş Ərəb Əmirliklərinin ictimai inkişaf naziri xanım Hessa bint Essa Buhumaid və digər rəsmi şəxslər qarşılayıblar.

"Xalq qəzeti"

Özbəkistan nəqliyyat nazirinin müavini "Azərbaycan Dəmir Yolları" QSC-də olub

Özbəkistan nəqliyyat nazirinin müavini Abdulsamat Muminovun rəhbərlik etdiyi nümayəndə heyəti "Azərbaycan Dəmir Yolları" QSC-də olub.

Görüşdə iki ölkənin dəmir yolları sahəsində əməkdaşlıq imkanları, Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi, o cümlədən CASCA + multimodal nəqliyyat marşrutu çərçivəsində yeni əməkdaşlıq təklifləri nəzərdən keçirilib.

"Xalq qəzeti"

İtaliya – dost ölkə, strateji tərəfdaş

İtaliya Azərbaycanın mühüm tərəfdaşlarından biridir. Münasibətlərimiz strateji xarakter daşıyır. Hər iki ölkə bir çox sahələrdə sıx əməkdaşlıq edir. Dövlət başçılarının qarşılıqlı səfərləri və görüşləri zamanı aparılan danışıqlar əlaqələrimizin daha da möhkəmlənməsinə öz töhfəsini verir. İndiyədək Azərbaycanla İtaliya arasında 60 sənədin imzalanması da əməkdaşlığın geniş miqyasını göstərir.

İtaliya Azərbaycanın, Azərbaycan isə İtaliyanın Cənubi Qafqazda ən əsas ticarət tərəfdaşıdır. İtaliya şirkətləri uzun müddətdir ki, ölkəmizdə geniş fəaliyyət göstərir və münasibətlərimizin inkişafında vacib rol oynayır. Bu əməkdaşlıq işğaldan azad olunmuş ərazilərimizdə də uğurla həyata keçirilir.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti



İtaliya Respublikası iqtisadi inkişaf baxımından dünyanın qabaqcıl sənaye ölkələrindən biridir. Avropada üçüncü, dünyada isə yeddinci ən böyük iqtisadiyyata malik ölkədir. İtaliya, həmçinin dünyanın ilk 10 məhsul ixracatçısından biri kimi də tanınır. Ən böyük turizm bölgələrindən biri olan İtaliya, eyni zamanda, Avropanın beşinci ən böyük avtomobil istehsalçısıdır. Bununla yanaşı, rəsmi Roma Avropada cərəyan edən geosiyasi və geoiqtisadi proseslərin fəal iştirakçısıdır. 1949-cu ilin aprelindən NATO-nun üzvü olan İtaliya Avropa Birliyinin aparıcı ölkəsi kimi xarici siyasətin formalaşdırılmasında yaxından iştirak edir. Təsadüfi deyil ki, Şimali Atlantika Alyansının ən nüfuzlu üzvlərindən biri olan İtaliyanın hərbi qulluqçuları NATO-nun müxtəlif təlim və əməliyyatlarında fəal iştirak edirlər. Belə bir nüfuzlu və güclü ölkə ilə əməkdaşlığın inkişafı Azərbaycanın milli maraqlarına cavab verir.

Ümumiyyətlə, Azərbaycanla İtaliya arasında münasibətlərin tarixi çox qədimdir. İtaliya Azərbaycanın Avropada ən qədim dövrlərdən diplomatik əlaqələr saxladığı ölkələrdən biridir. Hələ orta əsrlərdə Səfəvilər sarayında Venesiya və Genuya respublikalarının daimi elçilərinin fəaliyyət göstərmələri barədə tarixi faktlar məlumdur. Ancaq 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında münasibətlərdə yeni səhifə ümummilli lider Heydər Əliyevin İtaliyaya gerçəkləşdirdiyi səfərdən sonra açılmışdı. Məhz həmin səfərdən sonra Azərbaycan – İtaliya münasibətlərinin hüquqi müqavilə bazası genişlənmiş və müxtəlif sahələrdə əməkdaşlıq inkişaf etməyə başlamışdı.

Sonrakı dövrlərdə Prezident İlham Əliyevin siyasəti nəticəsində Azərbaycan – İtaliya münasibətləri tamamilə yeni səviyyəyə yüksəldi. Bunun nəticəsidir ki, bu gün Azərbaycan və İtaliya arasında münasibətlər yüksək səviyyədədir və strateji tərəfdaşlıq xarakteri daşıyır. Fevralın 13-də Bakıda "Gülüstan" sarayında müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində Prezident İlham Əliyev bir daha diqqətə çatdırdı ki, İtaliya Azərbaycanın strateji tərəfdaşıdır: "İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır, yüksək səviyyəli qarşılıqlı səfərlər təşkil edilmişdir. Bu ilin yanvar ayından bəri İtaliyanın yeni hökumətinin üç naziri artıq Azərbaycana səfərlər etmişlər – müdafiə naziri, energetika naziri və bu gün şirkətlər və "Made in Italy" naziri. Cəmi bir ay ərzində, – yəni, birinci səfər yanvarın 11-də olmuşdur. Yeni hökumətin 3 naziri Azərbaycana gəlmişdir. Bu, əlaqələrimizin, doğrudan da, yüksək səviyyədə olmasından xəbər verir".

Avropa Birliyinin təsisçi üzvlərindən biri kimi, İtaliya da Azərbaycanla münasibətlərin hərtərəfli inkişafında maraqlıdır. Rəsmi Roma ölkəmizlə yalnız enerji sahəsində deyil, həmçinin digər sahələrdə, həm siyasi, həm mədəni sahələrdə olan əlaqələri inkişaf etdirmək istəyir. İtaliya Azərbaycanla müxtəlif sahələrdə, xüsusilə də enerji sahəsində fəal əməkdaşlıq edir. Azərbaycan da öz növbəsində italyan mallarına və texnologiyasına yüksək dəyər verir, neft-kimya, infrastruktur, tikinti, moda kimi digər sektorlar üzrə əməkdaşlıqda da geniş imkanlar mövcuddur və tərəflər bütün bu imkanlardan yararlanırlar. Hazırda Azərbaycan neftinin böyük hissəsi İtaliya bazarına çıxarılır və iki ildən çoxdur ki, Azərbaycan qazı İtaliyaya çatdırılır. Prezident İlham Əliyevin dediyi kimi, Cənub Qaz Dəhlizinin başlanğıcı Azərbaycanın Xəzər dənizindəki sektorudursa, bunun son məntəqəsi İtaliyadır.

Qeyd olunduğu kimi, 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının tikintisində İtaliyanın "Made in Italy" şirkəti iştirak edəcək. İtaliya şirkətinin Azərbaycanın enerji infrastrukturunun inkişafına yönəlmiş bu böyük layihədə iştirakı təsadüfi deyil. Mütəxəssislərin sözlərinə görə, bu layihə Avropaya elektrik enerjisi ixracının artırılmasına kömək edəcək və İtaliya Azərbaycanın Aİ-də əsas strateji tərəfdaş kimi mövqelərini daha da gücləndirəcək. İki ölkə arasında, xüsusilə də enerji sahəsində əməkdaşlığın Avropanın enerji xəritəsində dəyişikliyə səbəb olması artıq heç kəsə sirr deyil. İki ölkə arasında həm siyasi, həm də ticari-iqtisadi əlaqələr yüksək səviyyədədir və Azərbaycan öz ərazilərini işğaldan azad etdikdən sonra bu əlaqələr daha da dərinləşir. İtaliya şirkətlərinin Azərbaycana marağının artması da faktdır: bir çox italyan şirkətləri işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işlərində iştirak edirlər.

Bir sözlə, Azərbaycanın bu böyük layihədə İtaliya ilə tərəfdaşlığı iki ölkə arasında enerji sahəsində əməkdaşlığın strateji xarakterini bir daha nümayiş etdirir. Bu tərəfdaşlıq artıq Azərbaycan qazının Avropa bazarlarına çıxarılmasını təmin etmişdir. Ciddi maneələrə, xarici təzyiqlərə və təhdidlərə baxmayaraq, İtaliyada Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TAP qaz kəməri layihəsi uğurla həyata keçirilmişdir. İndi İtaliya şirkətləri Azərbaycandan Avropaya elektrik enerjisinin ixracının əsasını qoyurlar. Təcrübə göstərir ki, ölkələr arasında ideal siyasi əlaqələr iqtisadi, ticarət, mədəni və digər sahələrdə əməkdaşlığın inkişafı üçün hərtərəfli zəmin yaradır. Bu mənada Azərbaycan ilə İtaliya arasında siyasi əlaqələrin yaxşılaşdırılması hərtərəfli əməkdaşlığın inkişafına təkan verir.

Səbuhi MƏMMƏDOV,
"Xalq qəzeti"

Cənubi Qafqaz uğrunda “daha yaxşı vasitəçilik” savaşı

ABŞ və Fransa Rusiyanı regiondan çıxarmağa çalışır

Azərbaycan vaxtilə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi kimi tarixə düşmüş konfliktin nizamlanması üçün dünyanın, demək olar ki, büyün aparıcı ölkələri və təşkilatları ilə əməkdaşlıq etdi. Bu sırada ABŞ, Rusiya, Fransa da vardı, ATƏT də, AŞPA da, Aİ də... Amma, təxminən, 30 il ərzində münaqişə nəinki həll olunmadı, hətta daha da dərinləşdi. Üstəlik, Azərbaycan Prezidenti İlham Əliyevin dediyi kimi, ölkəmizə açıq şəkildə təzyiq göstərilirdi ki, Ermənistan həyata keçirdiyi işğal ilə regionda yeni reallıq formalaşdırıb və Bakı bununla hesablaşmalıdır.

Azərbaycan Prezidenti hələ 2020-ci il dekabrın 12-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini və ABŞ-dan olan həmsədri Endrü Şoferi qəbul edərkən, qurumun fəaliyyətini ciddi tənqid etmiş, onun münaqişənin həllində heç bir rol oynamadığını bildirmişdi. Dövlət başçısı qeyd etmişdi ki, münaqişəni həll etmək üçün Minsk qrupu 28 il ərzində müvafiq mandata sahib idi. Ancaq onun fəaliyyəti heç bir nəticə vermədi.

Bu gün münaqişənin həllindən iki il yarıma qədər vaxt keçməsinə baxmayaraq, ABŞ yenə Minsk qrupunundan yapışıb. Birləşmiş Ştatların Dövlət Departamenti mətbuat xidməti rəhbərinin birinci müavini Vedant Patel son bəyanatlarında “bəlkə də qaytardılar” məntiqi ilə artıq ölü olan qurumu dönə-dönə gündəliyə gətirir. Bu barədə danışacağıq.

Bir qədər də Fransadan, ATƏT-in Minsk qrupunun daha bir həmsədrindən söz açaq. Rəsmi Paris, Prezident Emmanuel Makron da Azərbaycan tərəfindən dəfn edilmiş Minsk qrupunun sevdası ilə yaşayır. Bu ölkə müharibə dövründə bizi açıq-

aşkar ittiham edir, şər-böhtan atırdı. Ötən il isə BMT-də ölkəmizə qarşı sərt qətnamə qəbul etdirməyə çalışırdı. Bunun qarşısını Qoşulmama Hərəkatına üzv olan dost ölkələr aldılar. Sonra Paris Frankofoniya təşkilatı müstəvisində məkrli mövqeyini davam etdirməyə çalışdı, əsassız tələblər irəli sürmək istədi. Fransa Praqada Aİ Şurasının sədri Şarl Mişelin təşəbbüsü olan Brüssel formatında danışıqlara qoşuldu. Bir həftə keçməmiş Makron müsahibəsində ölkəmiz əleyhinə hədyanlar səsləndirdi. Təəssüflər olsun ki, bütün bunlardan sonra Fransa da Minsk qrupunu diriltməyə və vasitəçilik etməyə iddialıdır. Görəsən hansı üzlə?!

İndi qayıdaq ABŞ Dövlət Departamenti sözçüsünün dediklərinə. Vedant Patel Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın ABŞ-ın “üçtərəfli razılaşmanın reallaşmasına mane olması” ilə bağlı fikirlərinə cavab olaraq bildirib ki, ölkəsi üçün Cənubi Qafqazda sülh yaradılması prioritetdir, dövlət katibi Entoni Blinken isə mütəmadi olaraq Azərbaycan və Ermənistan liderləri ilə birbaşa təmasdadır. Amma o, bununla yanaşı, Rusiyanı birtərəfli yanaşmada və “ATƏT-in Minsk qrupu formatında məhsuldar sülh prosesini pozmaqda” ittiham edib. Patel deyib: “ABŞ əvvəlki kimi sülh prosesinin irəliləməsinə bütün istiqamətlərdə – istər ikitərəfli əsasda, Avropa İttifaqı mexanizmləri vasitəsilə, istərsə də ATƏT vasitəsilə kömək etməyə sadiqdir”.

ABŞ-ın yenidən və dönə-dönə təklif etdiyi ATƏT-in Minsk qrupu məsələsi Azərbaycan üçün qapanıb. Bakı onun münaqişənin həllinə 30 ilə yaxın müddətdə yalnız ziyan vurduğu qənaətindədir. Hesab edirik ki, mövcud istiqamətdəki səylər ABŞ-ın, eləcə də Fransanın regionda möhkəmlənməsinə, Rusiyanın buradan sıxışdırılıb çıxarılmasına xidmət edir. Dəfələrlə qeyd etdiyimiz kimi, “Dağlıq Qarabağ münaqişəsi” deyə münaqişə artıq Azərbaycan üçün mövcud deyil. Bu məsələni erməni lobbisinin, eləcə də Ermənistan hakimiyyətinin tələbi ilə səsləndirmək nəticəsiz cəhddir. Münaqişəni 2020-ci ilin payızında Azərbaycan öz gücü ilə həll edib və ərazi bütövlüyünü bərpa edib. Ermənilərin 120 min qədər təqdim etdikləri, əslində isə 20-30 min həddində olan hay əhali isə Azərbaycan vətəndaşlarıdır və onların bütün problemlərini ölkəmiz özü həll etməyə qadirdir.

O ki, qaldı məsələyə Avropa İttifaqı mexanizmlərinin cəlbinə, bu mövzuda məşhur rusiyalı hərbi ekspert, “Milli müdafiə” jurnalının baş redaktoru İqor Korotçenko olduqca maraqlı məktub paylaşıb və qeyd edib ki, məktub oxucu tərəfindən ona göndərilib, iki dəfə paylaşılsa da, bir qadın tərəfindən pozulub.

Bəs kimdir bu qadın? Korotçenko onun kimliyi və ümumiyyətlə, bəzi avropalı siyasilərin ermənilər niyə bu qədər “ürəkdən” müdafiə etməsinin səbəblərini açan məktubu təqdim edir: “Uzun müddətdir ki, Qarabağ azərbaycanlılarının öz doğma yurdlarına qayıtması yolunda korrupsiya qatarı ilə möhtəşəm, təmtəraqlı eston qadın dayanıb. Marina Kalyurand İrəvanda və Bakıda tanış adamdır, Estoniya Xarici İşlər Nazirliyinin keçmiş rəhbəri, hazırda Avropa Parlamentində Cənubi Qafqazla əlaqələr üzrə nümayəndə heyətinin rəhbəri postunu tutur. Amma Marina hər şeydən əlavə, Qarabağ məsələsini diqqətdən yayındırmadan “Ermənistanla dostluq qrupuna” daxil edilib. Azərbaycan və dünya mediasındakı çoxsaylı çıxışlara və nəşrlərə əsasən, Kalyurand mənəvi və əxlaqi motivlərlə deyil, birmənalı reputasiyaya malik insanların – “Ermənistanın avropalı dostları”ndan Vardan Sirmakes və "Ümumerməni xeyriyyə təşkilatı”ndan Belçika almaz kralı Kaspar Karapetyanın ona müntəzəm olaraq ödədiyi yüksək qonorarla hərəkət edir. Araşdırmaçı jurnalistlər estoniyalının çıxışları ilə onun debet kartı və Avropa banklarındakı hesablarında olan maliyyə qəbzləri arasında qəribə əlaqə aşkar ediblər. Elə bu günlərdə Kalyurand yenə işarə verdi...”

Bu məktubla tanış olduqdan sonra Avropa Parlamentinin sədr müavini xanım Keylinin və bir neçə digər deputatın korrupsiya qalmaqalında iştirakı və həbsi yada düşür. Doğrudan da, parlamenti dünya ermənilyinin məkrli siyasəti və maliyyə fırıldaqlarına aldanmış bir qurum bundan sonra regionda sülh prosesinə nə kimi töhfə verə bilər?! Elə RF XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarova da bu barədə danışıb: “Rusiya Yerevan və Bakı ilə birlikdə üçtərəfli razılaşmaların bütün müddəalarının ən yüksək səviyyədə həyata keçirilməsinə diqqət yetirir... Aİ-nin Cənubi Qafqazdakı fəaliyyəti isə geosiyasi ambisiyalarla şərtlənir. Fikrimizcə, bunun Ermənistan-Azərbaycan münasibətlərinin nizamlanmasına töhfə vermək real istəyi ilə heç bir əlaqəsi yoxdur. Mən deyərdim ki, bunlar avropalıların saxta təşəbbüsləridir, daha çox vasitəçilik uğurlarını qəsb etmək cəhdidir... Biz vasitəçi kimi işləyirik və bu iş müəyyən nəticələr verir və özünü vasitəçi kimi qələmə verənlərin vasitəçi olmadıqları halda, görünür, təklif edəcəkləri bir şey yoxdur, ancaq iştirakını göstərmək istəyirlər”.

Paşa ƏMİRCANOV,
“Xalq qəzeti”

Ekspert rəyi

Yeganə HACIYEVA,
politoloq

Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında tək legitim beynəlxalq vasitəçi ATƏT-in Minsk qrupu idi. Qrupun vasitəçilik missiyası münaqişənin beynəlxalq hüquq çərçivəsində, ATƏT-in prinsipləri əsasında danışıqlar vasitəsilə, sülh yolu ilə həll edilməli olduğunu bəyan etsə də, əsas məqsəd status-kvonu uzatmaq idi.

Minsk qrupunun fəaliyyəti haqqında danışan ABŞ-ın keçmiş həmsədri Hoqland da məhşur müsahibəsində ATƏT-in Minsk Qrupunun faktiki turistik diplomatiya olduğunu etiraf edib. Onun səsləndirdiyi fikirlər – “yeyib-içib kef çəkirdik”, “həmsədr postuna karyera yüksəlişi kimi baxırdıq”, “danışıqların heç bir nəticəsi olmadı”, hətta rusiyalı həmsədrin “Lavrov planı” boş şeydir” kimi açıqlamalar Minsk qrupunun fəaliyyətini tam ifadə edir.

Həm ABŞ, həm də Rusiya Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasının ATƏT-in Minsk qrupu çərçivəsində davam etməsində maraqlı idi. Çünki qrup çərçivəsində istər xüsusi nümayəndələrlə, istərsə də digər rəsmilərlə əlaqələr qurmaq, danışıqları uzatmaq, total nəzarət, danışıqlarda kənar oyunçuların iştirakını əngəlləmək üçün yaxşı imkan vardı.

ATƏT-in Minsk Qrupu son illərdə prosesə həm də “tərəflərin kompromisi vasitəsilə nizamlama” kimi fikirlər də əlavə etmişdi ki, bu da əslində Azərbaycanı kompromis əsaslarda sülhə məcbur etmək məqsədi daşıyırdı. ATƏT format olaraq ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, üzv ölkələr arasında siyasi və iqtisadi həyatın sivil birgə yaşayış qaydalarını, dövlətlərarası münasibətləri əməkdaşlıq və qarşılıqlı faydalılıq istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını daşısa da, onun bu missiyanı ATƏT coğrafiyasında uğurla yerinə yetirdiyi iddia edilə bilməz.

Minsk Qrupunun həmsədr ölkələri problemin beynəlxalq hüquq çərçivəsində nizamlanması üzrə əldə olunmuş razılaşmalara əməl etməmək bir yana, hətta işğalçı tərəfə siyasi, hərbi və mənəvi dəstək verirdi. Əslində həmsədr ölkələr bitərəfliyi pozmamalı və neytral qalmalı olduğu halda, 44 günlük müharibədə Minsk qrupunun üzvü olan Fransanın davranışları onların “xidmət və faydaları”nın nədən ibarət olduğunu nümyiş etdirdi. 27 il münaqişənin uzadılması ilə məşğul olmuş qrup obyektiv olmadı, birtərəfli, ermənipərəst mövqe tutdu, bəzən hətta təcavüzkarın vəkili kimi çıxış etdi.

Minsk formatı ATƏT coğrafiyasındakı regional münaqişələrin həllində özünü doğrultmur və məhz 27 ildən sonra Azərbaycanın özünün bu münaqişəni həll etməsi ATƏT-in nüfuzunu zədələdi. Günün günorta vaxtı ATƏT-ə üzv olan bir ölkə (Ermənistan) bu qurumun digər üzvünün (Azərbaycan) mülki əhalisinə ballistik raketlərlə hücum etdi. Amma beynəlxalq insan haqları təşkilatları buna irad bildirmədi, etiraz etmədi.

İndi münaqişə Azərbaycan Ordusunun gücü və qanı hesabına həll ediləndən sonra ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin formatı yenidən dirçəltmək cəhdləri 44 günlük müharibənin regionda dəyişdiyi reallıqları görməzlikdən gəlmək və ən əsası, təcavüzkar tərəfi ruhlandıracaq mesajlar vermək anlamına gəlir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 43 **Bakı şəhəri, 11 fevral 2023-cü il**

“İnklüziv təhsilin təşkili Qaydası”nın təsdiq edilməsi haqqında

“Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” və “Təhsil haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 13 may tarixli 536-VIQD nömrəli Qanununun tətbiqi və “Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 8 iyun tarixli 1711 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “İnklüziv təhsilin təşkili Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 44 **Bakı şəhəri, 11 fevral 2023-cü il**

“Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

“Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2022-ci il 26 aprel tarixli 518-VIQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 18 may tarixli 1684 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Cinayət təqibi üzrə məhkəməyədək icraat zamanı qanunsuz dövriyyədən çıxarılmaqla maddi sübut kimi götürülmüş narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin cinayət təqibi üzrə icraat başa çatanadək məhv edilməsi və ya tibbi məqsədlərlə istifadə üçün təhvil verilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

3. Bu Qərar narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının və güclü təsir edən maddələrin xüsusilə külli miqdarını müəyyən edən müvafiq qanunla eyni gündə qüvvəyə minir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Qeyd: Qərarlara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.com saytlarında tanış ola bilərsiniz.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 45 **Bakı şəhəri, 11 fevral 2023-cü il**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 353 nömrəli Qərarı ilə təsdiq edilmiş “Turizm sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası”nda dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 15 sentyabr tarixli 353 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1087) ilə təsdiq edilmiş “Turizm sahəsində layihələrin qrant maliyyələşdirilməsi üzrə müsabiqələrin keçirilməsi Qaydası”nda aşağıdakı dəyişikliklər edilsin:

1. 1-ci hissə üzrə:

1.1. 1.4-cü bəndə “mövzular” sözündən sonra “(qeyri-hökumət təşkilatlarına münasibətdə Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası”na uyğun olaraq Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə razılaşdırılmaqla)” sözləri əlavə edilsin;

1.2. 1.5-ci bənddə “kütləvi informasiya vasitələri ilə” sözləri “media vasitəsilə” sözləri ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 1.6-cı bənd əlavə edilsin:

“1.6. Bu Qaydada istifadə olunan anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.”.

2. 2.1-ci bənddə “Bələdiyyələr, təhsil müəssisələri, qeyri-hökumət təşkilatları, təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş digər hüquqi şəxslər və Azərbaycan Respublikasının vətəndaşı olan fiziki şəxslər” sözləri “Turizm haqqında” Azərbaycan Respublikası Qanununun 20.2-ci maddəsi nəzərə alınmaqla “Qrant haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinə əsasən resipiyent ola bilən şəxslər” sözləri ilə əvəz edilsin.

3. 3-cü hissə üzrə:

3.1. 3.1-ci bənddə “etibarnamə ilə etibar etdikləri şəxs” sözləri “notariat qaydasında təsdiq edilmiş etibarnamə üzrə nümayəndələri” sözləri ilə əvəz edilsin;

3.2. aşağıdakı məzmunda 3.2-1-ci bənd əlavə edilsin:

“3.2-1. Donor bu Qaydanın 3.1.3-cü və 3.1.4-cü yarımbənd-lərində qeyd olunan sənədlər barədə məlumat əldə etmək üçün dövlət orqanlarının və digər qurumların elektron informasiya ehtiyatlarından (məlumat bazaları, məlumat-axtarış sistemləri, reyestrlər və digər informasiya resursları) istifadə edir. Bu mümkün olmadığı halda, həmin sənədlərin təqdim edilməsi müsabiqə iştirakçılarından tələb olunur.”;

3.3. 3.3.3-cü yarımbənd və 3.5-ci bənd ləğv edilsin;

3.4. 3.6-cı bənddə “müraciət edənlərin” sözləri “müsabiqə iştirakçılarının (yaxud onların notariat qaydasında təsdiq edilmiş etibarnamə üzrə nümayəndələrinin)” sözləri ilə əvəz edilsin.

4. 4-cü hissə üzrə:

4.1. 4.2-ci bəndin ikinci cümləsində “təsadüfi seçilmiş 3 (üç) üzvü (ən azı biri müstəqil ekspert olmaqla)” sözləri “3 (üç) üzvü (biri müstəqil ekspert, digərləri isə layihənin qiymətləndirilməsi sahəsində bilik və bacarıqlara malik Donorun əməkdaşları olmaqla)” sözləri ilə əvəz edilsin;

4.2. 4.6-cı bəndin ikinci cümləsində “layihə müəllifinin” sözləri “müsabiqə iştirakçısının” sözləri ilə əvəz edilsin;

4.3. 4.9-cu və 4.11-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

“4.9. Ekspertizanın nəticələrinə dair arayış, Qiymətləndirmə Komissiyasının rəyi və qeyri-hökumət təşkilatlarına münasibətdə həmçinin Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət orqanları tərəfindən qeyri-hökumət təşkilatlarına qrant verilməsinin Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası ilə, gənclər siyasəti sahəsində qrantlara münasibətdə isə həmçinin Azərbaycan Respublikasının Gənclər Fondu ilə razılaşdırılması Qaydası”nın 4-cü hissəsinə uyğun olaraq Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin rəyi əsasında Donor layihələrin maliyyələş-dirilməsi barədə 15 (on beş) iş günü müddətində qərar qəbul edir və nəticələri rəsmi internet səhifəsində dərc etdirir.

4.11. Müsabiqənin keçirilməsi və nəticələri ilə bağlı yaranan mübahisəli məsələlərə baxılması üçün Donor tərəfindən biri müstəqil ekspert, digərləri Donorun əməkdaşları olmaqla, 3 (üç) nəfər üzvdən ibarət tərkibdə Apellyasiya Komissiyası yaradılır. Apellyasiya Komissiyasının iclasları üzvləri tam tərkibdə iştirak etdikdə baş tutmuş hesab olunur. Apellyasiya Komissiyasının iclaslarında qərarlar açıq səsvermə yolu və üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Səsvermə zamanı Apellyasiya Komissiyası üzvlərinin bitərəf qalmasına icazə verilmir. Qiymətləndirmə Komissiyasının üzvləri və ya əvvəllər üzvü olmuş şəxslər Apellyasiya Komissiyasının üzvü ola bilməzlər.”;

4.4. 4.12-ci bəndin birinci cümləsində “gün” sözü “iş günü” sözləri ilə əvəz edilsin;

4.5. 4.13-cü bəndə “qərardan” sözündən sonra “inzibati qaydada və” sözləri əlavə edilsin.

5. 5.2-ci bəndə “qaydası,” sözündən sonra “layihə üzrə ayrılan qrant vəsaitindən sub-qrantların ayrılıb-ayrılmayacağı barədə qeyd, habelə layihə üzrə ayrılan qrant vəsaiti tam xərclənmədikdə, qalıq məbləğdən istifadə qaydası,” sözləri əlavə edilsin.

6. 5.6-cı və 6.7-ci bəndlər ləğv edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

№ 46 **Bakı şəhəri, 11 fevral 2023-cü il**

“Ədliyyə orqanları işçilərinin, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Penitensiar Xidmətinin və Tibb Baş İdarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin, Penitensiar Xidmətinin müddətli həqiqi hərbi xidmət keçən hərbi qulluqçularının vəzifə maaşlarının məbləğlərinin müəyyən edilməsi və Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarının və onların struktur elementlərinin ləğv edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 143-8 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

“Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli Sərəncamının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 143-8 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1163, № 9, maddələr 1562, 1576; 2022, № 8, maddə 1002; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 19 mart tarixli 109 nömrəli Qərarı) ilə təsdiq edilmiş 4 nömrəli əlavə - “Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının, Penitensiar xidmətinin və Tibb Baş İdarəsinin dövlət qulluqçusu olmayan mülki işçilərinin Vahid Tarif Cədvəli üzrə aylıq vəzifə (tarif) maaşlarının məbləğləri” yeni redaksiyada təsdiq edilsin (əlavə olunur, məxfi).

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tövsiyə olunsun ki, Naxçıvan Muxtar Respublikası Penitensiar xidmətinin dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq vəzifə (tarif) maaşlarının məbləğləri barədə müvafiq qərar qəbul etsin.

3. Bu Qərar 2023-cü il yanvarın 1-dən tətbiq edilir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının
Baş naziri

Texnoloji sənayenin ÜDM-də payı artacaq

İqtisadiyyat Nazirliyi yanında Kiçik və Orta Biznesin (KOB) İnkişafı Agentliyinin sədri Orxan Məmmədov "Kənd təsərrüfatı və təhsil" mövzusunda keçirilən Azərbaycan–İsrail İnnovasiya Forumunda respublikamızda 2026-cı ilə qədər yüksək və orta-yüksək texnoloji sənayenin ümumi əlavə dəyərdə xüsusi çəkisinin 15 faizə qədər artırılmasının nəzərdə tutulduğunu deyib.

O.Məmmədovun sözlərinə görə, innovativ sahibkarlığın inkişafı Azərbaycan hökumətinin strateji fəaliyyət gündəliyində də əks olunub. Bu, ötən il təsdiqlənən "2022–2026-cı illər üzrə sosial-iqtisadi inkişaf strategiyası"nda da ortamüddətli dövr üçün keyfiyyətcə yeni inkişaf modelləri əsasında müəyyənləşdirilib. Strategiyada rəqabətli iqtisadiyyatın təməli olan məhsuldarlığın innovasiya və müasir texnologiyalar hesabına yüksəldilməsi təsbit edilib. Sənəddə, göstəricinin artıq həm dövlət, həm də özəl sektor vasitəsilə yüksəldilməsinə hazırda ciddi ehtiyac duyulub.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi bu gün KOB-ların innovativ fəaliyyətinin stimullaşdırılması məqsədilə bir neçə istiqamətdə fəaliyyət göstərir. Bunlar təşviq, məlumatlandırma və biliklərin artırılması, eləcə də resursların təmin edilməsi işləridir. Bizneslərin fəaliyyətinin müasir tələblərə uyğun təşkili və rəqabət qabiliyyətinin artırılması baxımından

həmçinin innovasiyaların özəl və dövlət sektorunda tətbiqinin stimullaşdırılması, startaplar və investorlar üçün məqsədli fiskal imtiyazlar sisteminin hazırlanması, innovasiya klasterinin yaradılması və digər tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektləri fəaliyyət göstərən bizneslərin mütləq əksəriyyəti KOB-ların inkişaf səviyyəsi ilə sıx bağlıdır. Buna görə də biznes proseslərinin müasir texnologiyalar əsasında qurulması biliklərin artırılmasını, potensialın gücləndirilməsini, qabaqcıl təcrübələrin mənimsənilməsini və müvafiq sahəyə investisiyaların yatırılmasını tələb edir.

Forumda, həmçinin xatırladıb ki, 2021-ci ildə KOB subyektləri tərəfindən elmi-tədqiqat xərcləri 21,4 milyon manat və ya təqribən 13 milyon ABŞ dolları təşkil edib. Əvvəlki dövr ilə müqayisədə təqribən 36 faiz artım olsa da, qarşıya qoyulmuş məqsədlərin əldə edilməsində bu elmi yeniliklərin biznesə inteqrasiyası vacibdir. Bu məqsədlə 2021-ci ildən etibarən KOB subyektlərinin təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsi diqqət mərkəzində saxlanılır.

O.Məmmədovun fikrincə innovativ biznes və startap ekosisteminin təkmilləşdirilməsi və inkişaf etdirilməsi istiqamətində atılan addımların davamı olaraq, adıçəkilən agentlik tərəfindən Startap şəhadətnaməsi təqdim edilir. Bu şəhadətnamə ilə sahibkar 3 il müddətinə innovasiya fəaliyyətindən qazandığı gəlirlər üzrə mənfəət və gəlir vergisindən azad olunur. Startap şəhadətnaməsi, eyni zamanda, startapa yerli və xarici investorların marağını artırır, xarici bazarlara çıxışı asanlaşdırır. İndiyədək 90-a yaxın startap şəhadətnaməsinin sertifikat təqdim edilib.

V.BAYRAMOV,
"Xalq qəzeti"

Ekspert rəyi

Mirağa ƏHMƏDOV,
iqtisadçı-ekspert

Azərbaycanda mikro, kiçik və orta sahibkarlıq subyektlərinə belə həssas yanaşma təsadüfi deyil. Çünki ölkədə inkişafın əsas qüvvəsi sahibkar olduğundan, dövlət bütün qüvvəsini və resurslarını rəqabətli və dayanıqlı iqtisadi fəaliyyət mühitinin dəstəklənməsinə, eyni zamanda, biznes şəraitinin daha da yaxşılaşmasına yönəldir. Bu model biznesin inkişafını, bu sahədə yalnız bacarıqların bütün sahələrdə uğurun fundamental şərti olacağını diktə edir.

Biznesin bütün bazarlarda səmərəli fəaliyyəti üçün zəruri şərtlərin təmin olunması, iqtisadiyyata cəlb edilən investisiyaların, mülkiyyətçilərin mülkiyyət toxunulmazlığının, onların iqtisadi maraqlarının qorunması məqsədilə müəyyən layihələr gerçəkləşdirilir.

Şübhəsiz ki, sağlam və rəqabətli biznes mühiti üçün qanunun aliliyi önəmli amildir. Son illərdə səmərəli məhkəmə islahatlarının həyata keçirilməsi də məhz bu şərtin gerçəkləşməsini şərtləndirir. Başqa sözlə, belə bir tədbir sahibkarlıq fəaliyyəti ilə məşğul olanların mülkiyyətinin və maraqlarının səmərəli müdafiəsinə imkan yaradır, biznes mühitində izafi tənzimləməni optimallaşdırır. Eyni, zamanda, islahatlar təbii inhisar subyektlərinin rəqabətə mənfi təsirlərinin qarşısını alır və bütün bazarlarda rəqabəti gücləndirir. Nəhayət, dövlət satınalmalarında şəffaflığı və səmərəliliyi artırır.

Hazırda iş adamlarına əlverişli vergi şərtlərinin tətbiq ediləcəyi və digər fiskal stimulların veriləcəyi nəzərdə tutulur ki, bütün bunların nəticəsində biznes mühitinin daha da sağlamlaşdırılacağı, milli iqtisadiyyata etimadın artacağı və nəticədə böyük həcmdə daxili və xarici investisiyaların reallaşacağı gözlənilir.

Burada onu da qeyd edək ki, ölkədə biznesin inkişafını dəstəkləyən infrastrukturun yaradılması, kiçik və orta biznesin müxtəlif sənaye parkları və məhəllələrinin, turizm və rekreasiya zonalarının fəaliyyətinə cəlbinin sürətləndirilməsi, eyni zamanda, istehsal olunan məhsul və xidmətlərin xarici bazarlara ixracının stimullaşdırılacağı istiqamətlərində layihələrin gerçəkləşdirilməsi də planlaşdırılır.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin ötən il üzrə fəaliyyətinin yekunlarına dair keçirilən mətbuat konfransında bu qurumun hesabat dövründə biznes mühitinin yaxşılaşdırılması, sektorda qanunvericiliyin və biznesə dövlət xidmətlərinin təkmilləşdirilməsi prosesində fəal iştirak etdiyi, sahibkarların qanuni maraqlarının qorunmasına, bazarlara, bilik və innovasiyalara, maliyyə resurslarına çıxışına dəstək göstərdiyi bildirilib.

Agentlik tərəfindən hesabat dövründə sahibkarlıq sahəsində dövlət siyasətinin formalaşdırılmasını və tənzimlənməsini şərtləndirən 2 normativ hüquqi akt hazırlanaraq təsdiqlənib, 3 layihə razılaşdırılıb, müxtəlif istiqamətlər üzrə isə 122 normativ sənəd layihəsinə rəy və təkliflər bildirilib. Eyni zamanda, Nazirlər Kabinetinin müvafiq qərarına uyğun olaraq, kiçik və orta biznes subyektlərinin təhsil, elm, tədqiqat və dəstək sahələri üzrə layihələrinin maliyyələşdirilməsi davam etdirilib. Bu məqsədlə keçirilən 2-ci qrant müsabiqəsinə təqdim olunan layihələrdən 12-si maliyyələşdirilib.

Prezident İlham Əliyev Vətən müharibəsi dövründə Azərbaycana dəstək verən dost ölkələr sırasında Türkiyə və İtaliya şirkətlərinin ilk yerlərdə qərarlaşdığını bildirib və ərazilərimiz erməni faşizmi tərəfindən azad edildikdən sonra onların həmin torpaqlarda bərpa və yenidənqurma işlərinə cəlb olunacaqlarını dəfələrlə vurğulayıb. Elə buna görə də ilk müqavilələr Türkiyə və İtaliya şirkətləri ilə imzalanıb. Artıq bu ölkə şirkətləri tərəfindən işğaldan azad olunan ərazilərdə bərpa və quruculuq işləri səmərəliliyi və keyfiyyətinə görə diqqət çəkir. Hazırda respublikamızın üç şəhərində İşğal və Zəfər muzeyləri İtaliya şirkətləri tərəfindən inşa olunur. Şuşada qədim məscidin bərpası və yeni məscidin inşası da dost ölkə şirkəti tərəfindən həyata keçirilir. Elektrik enerjisi sektorunda da işlər uğurla aparılır.

Səmərəli əməkdaşlıqda daha bir addım

Bu məsələdə İtaliya ilə bağlı bir mühüm məqamı da xatırlatmaq istərdim. Vətən savaşından az bir müddət keçdikdən sonra dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə "Azərenerji" ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın "Ansaldo Energia" şirkətinin rəhbəri Marino Giuseppenin, həmçinin İtaliyanın ölkəmizdəki səfirinin iştirakı ilə qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsi imzalanıb. Bununla da Qarabağda həyata keçiriləcək layihələrə Türkiyədən sonra başqa bir nüfuzlu dövlət – İtaliya şirkətləri də qoşulub.

"Azərenerji" ilə "Ansaldo Energia" rəhbərləri tərəfindən imzalanan müqaviləyə görə, Ağdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunan dörd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını, məhz "Ansaldo Energia" şirkəti həyata keçirib.

Zəngin bərpaolunan enerji ehtiyatlarına malik ölkəmizin "yaşıl artım" və davamlı inkişaf məkanına çevrilməsi məqsədilə İtaliya şirkətləri tərəfindən də mühüm layihələr reallaşdırılır. "Azərbaycan İnvestisiya Şirkəti" ASC və dost ölkənin "Technip Energies Italy S.p.A" şirkəti arasında əməkdaşlıq haqqında saziş imzalanması da bunun bariz ifadəsidir. Əməkdaşlıq çərçivəsində "Tullantıların monetizasiyası" layihəsinin həyata keçirilməsi planlaşdırılır. Layihə termokimyəvi təkrar emal texnologiyası əsasında plastiklə zəngin olan məişət tullantılarından "yaşıl" qazın alınmasını nəzərdə tutur.

İki ölkənin neft-qaz sahəsində əməkdaşlığında da ötən illər ərzində mühüm uğurlar əldə edilib. Ayrı-ayrı vaxtlarda İtaliyanın ENİ/Agip şirkəti ARDNŞ-lə birgə "Qarabağ" və "Şah Dəniz" perspektiv strukturlarında, habelə "Kürdaşı" dəniz blokunda layihələr reallaşdırıb. Bundan başqa, dost ölkənin adıçəkilən şirkəti Bakı–Tbilisi–Ceyhan Əsas İxrac Boru Kəməri layihəsinə dair sazişin icrasına da öz töhfəsini verib.

Prezident İlham Əliyevin iştirakı ilə fevralın 13-də Mingəçevir Elektrik Stansiyasının təməlqoyma mərasiminin keçirilməsi isə İtaliyanın Azərbaycan üçün dost və tərəfdaş dövlət olmasını bir daha təsdiqlədi.

Qeyd edək ki, İtaliya şirkətinin adıçəkilən stansiyanın inşasında iştirakı təsadüfi deyil. Yuxarıda vurğulandığı kimi, bu ölkə Azərbaycanın strateji tərəfdaşıdır. Bu, eyni zamanda, ikitərəfli əlaqələrin sürətlə inkişafını, yüksək səviyyədə olmasını şərtləndirir. Bununla bağlı dövlətimizin başçısı Mingəçevir Elektrik Stansiyasının təməlqoyma mərasimindəki nitqində deyib: "Əlbəttə, bütövlükdə, energetika sahəsində əməkdaşlıq ənənəvidir. Azərbaycan neftinin böyük hissəsi İtaliya bazarına çatdırılır və iki ildən artıqdır ki, Azərbaycan qazı İtaliya bazarına çatdırılır. TAP layihəsi bizim birgə uğurumuzdur. Cənub Qaz Dəhlizinin başlanğıcı Azərbaycanın Xəzər dənizindəki sektorudursa, bunun son məntəqəsi İtaliyadır və yol boyunca bir neçə ölkə Azərbaycan qazından faydalanır. O cümlədən, Avropanın yeni ehtiyaclarını nəzərə alaraq və keçən il Avropa Komissiyası ilə Azərbaycan arasında imzalanmış sənədə əsasən, biz Avropa məkanına təbii qazın həcminin artırılmasını təmin edəcəyik. Əlbəttə ki, burada TAP layihəsinin iki dəfəyədək genişləndirilməsi məsələsi gündəlikdədir. Bu məsələ artıq bir müddətdir ki, müzakirə edilir, o cümlədən, bu ayın əvvəlində Bakıda keçirilmiş Cənub Qaz Dəhlizinin Məşvərət Şurasında geniş müzakirə edilmişdir".

Sadalanan istiqamətlər üzrə qarşıya qoyulan məqsədlər uğurla reallaşdığı, neft-qaz layihələrində müsbət nəticələr gerçəkləşdiyi kimi, Azərbaycanın elektrik enerjisi də Avropa məkanına yüksək səviyyədə çatdırılacaq.

Bu məqsədlə hələ keçən ilin dekabr ayında müvafiq anlaşma imzalanıb və Azərbaycanın "yaşıl enerji" potensialı Avropa üçün yeni imkanlar açıb.

Ümumiyyətlə, Azərbaycanda elektroenergetika sahəsi son illər ərzində çox sürətli və uğurlu inkişaf yolu keçib. Təkcə son 20 il ərzində respublikamızda 34 elektrik stansiyası inşa edilib və həmin stansiyaların generasiya gücü, təqribən, 3400 meqavata çatıb. Hazırda isə ölkəmizin ümumi generasiya gücü 7200 meqavat səviyyəsinə yüksəlib.

Azərbaycan düşməndən təmizlənən ərazilərimizdə elektroenergetika sahəsində qısa müddətdə mühüm layihələr reallaşdırıb. Artıq 10-dan çox yarımstansiya inşa edilib, 10-dan çox su elektrik stansiyası qurulub. Beləliklə, iki il ərzində Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaradılıb və bu rəqəmin cari ilin sonuna qədər 200 meqavata çatdırılacağı nəzərdə tutulub. "Yəni, biz ancaq azad edilmiş torpaqlarda cəmi 3 il ərzində 200 meqavatlıq enerji gücü yaratmış olacağıq. Bütün stansiyalar ümumi şəbəkəyə qoşulmuşdur. Şərqi Zəngəzurun və Qarabağın böyük hidroenergetika potensialı imkan verəcək ki, biz o bölgələrdə 500 meqavata qədər generasiya gücləri yaradaq. Yəni, bu sahə prioritet olaraq qalır", – deyə dövlətimizin başçısı bildirib.

M.YAQUBZADƏ,
"Xalq qəzeti"

390 milyard kubmetr qaz hasil olunub

Bu ilin yanvar ayında Azərbaycanda 4,2 milyard kubmetr təbii qaz hasil edilib. Ölkə üzrə istehsal edilən ümumi qazın 1,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun (AÇG), 2,3 milyard kubmetri isə "Şahdəniz" yatağının payına düşüb.

Hesabat dövründə SOCAR-ın neft və qazçıxarma idarələri, eləcə də birgə müəssisələr tərəfindən 0,8 milyard kubmetr qaz hasil olunub. Ölkə üzrə qaz hasilatı ötən ilin müvafiq dövrünə nisbətən 162 milyon kubmetr və ya 4 faiz çox olub.

Ümumilikdə isə, Xəzərin Azərbaycan sektorunda yerləşən "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz" yataqları istismara verilməndən 01 fevral 2023-cü il tarixinədək konsorsium iştirakçıları tərəfindən 389,6 milyard kubmetr qaz hasil olunub. Ümumi hasilatın 204,6 milyard kubmetrini AÇG-dən çıxarılan səmt qazı təşkil edib.

Son 16 ildən bir qədər artıq müddətdə "Şahdəniz" yatağından 185 milyard kubmetrə yaxın qaz hasil edilib. Həmin qazın 130 milyard kubmetrə yaxın həcmi ixraca nəql edilib.

"Xalq qəzeti"

Hacıqabul sənayesi – 44 milyon manatlıq məhsul

İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Hacıqabul Sənaye Məhəlləsində indiyədək dəyəri 44 milyon manatlıq məhsul istehsal edilib.

İZİA-nın məlumatına görə, sənaye məhəlləsində məhsul istehsalında müsbət dinamika müşahidə olunur. Belə ki, 2021-ci ildə burada 4,77 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2022-ci ildə 8 dəfədən çox (dəyəri 38 milyon manatdan artıq) məhsul istehsal olunub. İstehsal edilən məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldilib.

Yüz nəfərdən çox insanın daimi işlə təmin edildiyi Hacıqabul Sənaye Məhəlləsində ümumi investisiya həcmi 51 milyon manatdan çox olan 13 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və bunlardan 7-si artıq fəaliyyətə başlayıb. Sənaye məhəlləsinin rezidentləri minik avtomobillərinin, taxta məhsulların, plastik qabların, tikinti materiallarının, plastik taraların istehsalı və s. sahələr üzrə ixtisaslaşıb.

Hacıqabul Sənaye Məhəlləsi mikro, kiçik və orta sahibkarların fəaliyyətinin dəstəklənməsi, qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə dövlət başçısının müvafiq sərəncamı ilə yaradılıb.

"Xalq qəzeti"

Qeyri-neft-qaz iqtisadiyyatı 1,7 faiz artıb

Dövlət Statistika Komitəsinin məlumatına görə, cari ilin yanvar ayında ölkədə 9 milyard 690,2 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz az ümumi daxili məhsul (ÜDM) istehsal olunub.

İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 4,6 faiz azalıb, qeyri neft-qaz sektorunda isə 1,7 faiz artıb.

ÜDM istehsalının 52,8 faizi sənaye, 9,5 faizi ticarət, nəqliyyat vasitələrinin təmiri, 5,3 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,2 faizi tikinti, 2,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 1,6 faizi informasiya və rabitə, 1,4 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrinin, 15,5 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər ÜDM-in 8,1 faizini təşkil edib.

Əhalinin hər nəfərinə düşən ÜDM 956,6 manata bərabər olub.

AÇG-dən 568 milyon tondan çox neft çıxarılıb

Cari ilin yanvar ayında Azərbaycanda 2,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Ölkə üzrə neft hasilatının 1,6 milyon tonu "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokunun, 0,4 milyon tonu (kondensat) "Şahdəniz" yatağının payına düşüb. Hesabat dövründə SOCAR üzrə neft (kondensatla birlikdə) hasilatı isə 0,7 milyon ton təşkil edib.

Bütövlükdə isə, "Əsrin müqaviləsi" çərçivəsində ilkin neftin hasılatına başlanıldığı 1997-ci ilin noyabrından 01 fevral 2023-cü il tarixinədək AÇG-dən 568,5 milyon ton neft çıxarılıb. 2006-cı ilin sonlarından indiyədək "Şahdəniz" yatağından 40,6 milyon ton kondensat hasil edilib.

Enegetika Nazirliyinin məlumatına görə ötən ay ölkədən 2,1 milyon ton neft (kondensatla birlikdə) ixrac olunub. Bunun 2 milyon tonu konsorsiumun, 134 min tonu isə SOCAR-ın payına düşüb. Azərbaycanın xam neft ixracına başladığı 1998-ci ilin oktyabr ayından indiyədək ölkədən 607 milyon tondan artıq neft və kondensat ixrac olunub.

"Xalq qəzeti"

İtaliya qaz habına çevrilə bilər

Müstəqillik dövrünün 1280 MVt gücündə ən böyük İstilik Elektrik Stansiyasının təməlqoyma mərasimində iştirak edən İtaliyanın şirkətlər və "Made in Italy" naziri Adolfo Urso Bakıya səfəri öncəsi "il Messaggero" qəzetinə müsahibəsində deyib: "TAP vasitəsilə tədarük həcmini iki dəfə artırmaqla İtaliya qaz habına çevrilə bilər".

Adolfo Urso daha sonra ölkəsinin bu il ərzində Rusiya qazını almaqdan imtina edə və yeni kanallar, o cümlədən, Azərbaycandan tədarükləri ikiqat artırmaqla təbii yanacaq təchizatçısına çevrilə biləcəyi əminliyini də vurğulayıb.

Onun sözlərinə görə, cari ildə İtaliya Rusiyadan qaz nəqlini dayandıracaq: "Gələn ildən isə Trans-Adriatik qaz kəməri vasitəsilə Azərbaycandan tədarük həcmini iki dəfə artırmaqla başqa ölkələrin təbii qaz ilə təminatını reallaşdıra biləcək və tezliklə Avropada qaz habına çevriləcək".

Qeyd edək ki, TAP istismara verilməndən indiyədək Azərbaycan üç Avropa ölkəsinə 20 milyard kubmetrdən çox qaz nəql edib.

"Xalq qəzeti"

Azərbaycan qardaş ağrısı ilə yaşayır

Dərd ortaqlığı, dostluq borcu

Türkiyədə baş verən dəhşətli fəlakətin ağrı-acısı bitib-tükənmək bilmir. Hər səhər yeni insan itkilərinin artması ilə bağlı yeni faciəli xəbərlər eşidirik. İnsanlar Türkiyənin ölkəmizdəki səfirliyinin qarşısına gələrək dərin kədərlə zəlzələ qurbanlarının xatirəsini yad edirlər.

Zəlzələdə həyatını itirənlərin xatirəsini anmaq məqsədilə səfirliyinin qarşısında yaradılan xatirə guşəsinin önünə gül dəstələri düzən Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbəsi Cəmilə Mirzəyeva qardaş ölkədə baş verən bu böyük faciədə günahsız insanların həlak olmasının gənclərimizi sarsıtdığını deyir: "Türkiyədən hər gün gələn ağır xəbərlər bizi sarsıdır. Qardaş ölkədə dinc insanların həlak olması çox böyük faciədir. Zəlzələ qurbanlarının xatirəsini yad etməyi özümüzə borc bilirik. İnsanlar soyuqda evsiz-eşiksiz qalıblar.

Türk bacı-qardaşlarımıza dəstək olmaq üçün əlimizdən gələni edirik. Bu gün böyük müsibətlə üz-üzə qalan Türkiyənin vəziyyəti bizə mənəvi əzab verir. Bütün Azərbaycan xalqı bu günlər olmazın çətinliklər yaşayan qardaş türk xalqının yanındadır. Hər birimiz deyirik: "Kədərin kədərimizdir, dualarımız səninlədir əziz, Türkiyə, başın sağ olsun! ".

Yaşlı bir xanım üç balaca uşaqla xatirə guşəsinə yaxınlaşır, ziyarət edir. Səbinə xanımın yaşı yetmişi haqlayıb. Deyir ki, indiyə qədər bu cür böyük müsibətin şahidi olmayıb: "Nəvələrimdir. Sevdikləri oyuncaqları alıblar ki, xatirə guşəsinə qoysunlar. İnanın, xəbərlərə qulaq asa bilmirəm. İndi xəbərlər çox əlçatan olub, onları hər yerdə izləmək mümkündür. Uşaqlar da eşidib pis olurlar. Özümüz də baş verənlərin təfərrüatına vara bilmirik. Çox kədərlidir. Hər bir ölüm xəbəri qəddimizi əyir. Allah türk xalqına səbir versin. Biz onların bu böyük dərdinə şərikik".

Heydər Əliyev adına İdman Konsert Kompleksində təşkil edilmiş Türkiyəyə yardım aksiyasında yenə də əsl izdiham yaşanır. Könüllülər səhərdən işləmələrinə baxmayaraq yorulmaq bilmədən çalışırlar.

Könüllü gənc Əhməd Cavadov yorulsalar da sona qədər işlədiklərini bildirir: "Bilirik ki, türk bacı-qardaşlarımız çətinlik qarşısındadırlar. Gətirilən yardımlara ehtiyacları var. Necə istirahət edə bilərik. İşimizin öhdəsindən gəlməyə çalışırıq".

Heydər Əliyev adına İdman Konsert Kompleksinin qabağında yardım gətirənlər arasında gənclər daha çox gözə dəyir.

Tələbə Samir Məmmədov yardım aksiyasına ilk günlərdən qoşulduğunu bildirir: "Tələbə gənclər yardım aksiyasında fəal iştirak edirlər. Zəlzələdə baş verən dağıntılar çoxlu insanın soyuqda evsiz-eşiksiz qalmasına səbəb olub. Onlara yardım etmək üçün bütün vasitələrdən istifadə edirik. Azərbaycanın çətin günlərində türk qardaşlarımız həmişə yanımızda olublar. Biz Vətən müharibəsində Türkiyənin xalqımıza göstərdiyi dəstəyi həmişə xatırlayırıq. Bu çətin günlərdə Türkiyənin yanında olmaq biz gənclər üçün böyük şərəfdir".

Samir Məmmədovun sonda dilə gətirdiyi "Əminik ki, türk xalqı bu böyük imtahandan üzüağ çıxacaq", – fikirləri bizim də ürəyimizdən keçən arzudur.

Sonacan yanındayıq, qardaş Türkiyə!

L.QURBANOVA

"Azərbaycanda dağıdıcı zəlzələ ehtimalı yoxdur"

Son günlər qardaş Türkiyədə və Suriyada baş verən və böyük insan itkisi, genişmiqyaslı dağıntılara səbəb olan dəhşətli zəlzələ xəbərləri bütün dünyanı sarsıdıb. Təbii fəlakətdən heç kimin sığortalanmadığını hamı yaxşı başa düşür. Azərbaycan tarixinə nəzər salsaq, zaman-zaman dağıdıcı zəlzələlərin baş verdiyinin şahidi olarıq. Onu da qeyd edək ki, ölkəmiz də seysmik zonada yerləşir və bu hadisələrdən sonra ən xırda təkan belə insanları daha çox narahat etməyə başlayıb.

Müsahibimiz Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin (RSXM) baş direktoru Qurban Yetirmişlidir.

–Qurban müəllim, hazırda ölkəmizdə seysmoloji vəziyyəti necə qiymətləndirirsiniz?

–Yer daxilində gedən proseslərin nəticəsində hər gün təkanlar var və bu, normaldır. Gün ərzində 40-50, bəzən az, bəzən də çox təkan baş verə bilər. Maqnitudası 0,3-dən 3-ə qədər olanları hiss olunmur. Yer səthinə, o cümlədən, yaşayış məntəqələrinə yaxın olduqda isə 3 maqnitudada təkanı hiss etmək olur, amma qorxulu deyil.

–Ölkəmizdə ən aktiv seysmik zonalarda güclü zəlzələ ehtimalı varmı?

–Azərbaycanda seysmik cəhətdən aktivliyi ilə seçilən zonalar çoxdur. Onlardan Quba-Xaçmaz, Şamaxı-İsmayıllı zonaları, Şəki-Zaqatala, Balakən zonası, Gəncə, Naxçıvan, Talış zonaları yüksək – 8 ballıq zonalardır.

Son illərdə Zaqatala - Balakəndə 2012-ci ildə, Şamaxı-İsmayıllı bölgəsində isə 2019-cu ildə baş verən zəlzələlər nəticəsində evlərin çatlaması, zədələnməsi və dağılması hallarına rast gəldik. Seysmoloji tədqiqatların aparılması və əldə edilən nəticələrin tikintilərin inşasında nəzərə alınması vacibdir.

Respublikada elə bir seysmogen ərazi yoxdur ki, orada həmin proseslərə hazırlıq getsin, yaxud aktivlik olsun ki, həyəcan təbili çalaq. Yəni yaxın zamanlarda dağıdıcı, zəlzələ ehtimalı yoxdur.

–Zəlzələni qabaqcadan müəyyən edilməsi və qoruyucu tədbirlərin görülməsi mümkündürmü?

–Azərbaycanda 2000-ci ildə baş verən zəlzələdən sonra 14 komplekt ən müasir avadanlıqlar alındı. İndi onların sayı 35-dir. Hazırda təkcə seysmik stansiyaların sayı 84-dür. Bundan başqa GPS–lərimiz var. Yer elmləri sahəsində bütün tədqiqatların aparılması üçün hər bir avadanlığımız var ki, bunlar da yer daxilində gedən bütün prosesləri izləməyə, onların dərinliyini araşdırmağa imkan verir. Aktivliyin getdiyi xəritələri qururuq. Yerin daxilində olan blokların hərəkətləri, istiqaməti, sürətini öyrənmək üçün bütün imkanlar mövcuddur. Eyni zamanda, xarici ölkələrin seysmoloji mərkəzləri, dünyanın ən qabaqcıl universitetləri ilə əməkdaşlıq edir, bu sahədə təcrübələrimizi zənginləşdiririk.

–Beynəlxalq təcrübə mübadiləsi ölkəmiz hansı perspektivlər vəd edir?

–Hazırda 30-dan çox ölkənin seysmoloji mərkəzləri ilə əməkdaşlıq edirik və əldə olunan razılaşmalar birgə tədqiqatların aparılması üçün geniş imkanlar yaradır. Dünyanın ən qabaqcıl universitetləri ilə – ABŞ-ın Kolumbiya, Miçiqan, Missuri universitetləri, o cümlədən, bu ölkənin Livermor beynəlxalq laboratoriyası, Böyük Britaniya və Birləşmiş Krallığın Kembric və Oksford universitetləri, Türkiyənin əksər universitetləri, eləcə də Təbii Fəlakət və Fövqəladə Hallar Departamenti (AFAD) ilə əməkdaşlıq edirik. Amerikanın "Kinemetriks" şirkəti ilə geniş əlaqələr var. Bizdə seysmik stansiyalar "Kinemetriks"in stansiyalarıdır. Hətta bu şirkətin cihazları bəzi ölkələrdə Azərbaycan mütəxəssisləri tərəfindən quraşdırılır. Belə ki, Dubay, BƏƏ və Özbəkistanda "Kinemetriks"in cihazlarını azərbaycanlı mütəxəssislər quraşdırıblar. Beynəlxalq əməkdaşlıq daim genişlənir. Gələcəkdə digər layihələr də nəzərdə tutulub.

–Seysmik rayonlaşdırma xəritəsi ilə bağlı nə deyə bilərsiniz?

1978-ci ildə ümumi seysmik rayonlaşdırma xəritəsi olub. 1988-ci ildə Spitakda baş verən güclü zəlzələdən sonra avtomatik olaraq seysmik balları qaldırıldı. Məsələn, Bakıda əvvəllər bu seysmik bal 7 idisə, ondan sonra 8 bal hesabladılar. Buna səbəb Spitakda zəlzələ baş verəndə onun seysmik xəritəsində 7 balın göstərilməsi idi. Zəlzələnin gücü isə 9 baldan da artıq idi.

2013-cü ildə Azərbaycanın seysmik rayonlaşdırma xəritəsinin tərtib edilməsi ilə bağlı Nazirlər Kabinetinə müraciət olundu. Əlbəttə, bu proses uzun çəkdiyindən başa çatmayıb. Ayrı-ayrı bölgələrdə, rayonlarda stansiyalar quraşdırmaq, onların yazılarını götürmək, onları emal etmək lazımdır. Bir sözlə, dəqiqliklə seysmik rayonlaşdırma xəritəsini yeniləmək lazımdır.

Respublikanın ayrı-ayrı bölgələrinin hansı seysmik ballıq olduğunu müəyyən etmək üçün belə bir xəritəyə ehtiyac var. Təbii ki, yenilənmiş formada. Çünki hər hansı tikinti aparılarkən bu baza məlumatlar vacibdir. Şübhəsiz, tikinti işlərinin aparılması üçün tədqiqat işlərinin aparılması mütləq gərəkdir.

–Yeni seysmik stansiyaların quraşdırılması ilə bağlı hansı işlər görülür?

–Keçən il dünyada ilk dəfə olaraq palçıq vulkanlar ətrafında 12 ədəd yeni stansiyalar quraşdırdıq. "Qafqazda seysmik şəbəkənin genişləndirilməsi" qrant layihəsi hesabına 22 stansiya aldıq. On ikisini Abşeronda vulkanlar ətrafında, digərlərini isə stansiyalarımızın seyrək olduğu xəzəryanı ərazilərdə quraşdırdıq.

Məqsəd burada gedən geodinamik prosesləri elmi araşdırmalarla öyrənmək idi. Məsələn, bilmək istəyirdik ki, vulkan püskürməzdən əvvəl hansı proseslər gedir. Tam mexanizmini – fazaları, partlayışların hansı dərinlikdə olduğunu, davamlılığını, ayrılan enerji gücünü öyrənirik. Keçən ilin dekabrında Lökbatan palçıq vulkanında püskürmə baş verdi. Axşamdan stansiyalar onun aktivliyini qeyd etməyə başladılar.

Ümumilikdə, Azərbaycanda 84 seysmik stansiya fəaliyyət göstərir.

–Hazırda hansı seysmik tədqiqatlar aparılır?

–Qarabağda seysmik tədqiqatlar aparmaq məqsədilə Şuşa ətrafında bir stansiyanın qurulmasını nəzərdə tutmuşuq. Ümumilikdə isə bütün rayonlarda 10 stansiya quraşdırılacaq. Fəaliyyət kompleks şəkildə aparılır. Tək seysmoloji yox, geofizika, geodinamika, geokimya öyrənilir. Gələcəkdə bu işləri davam etdirəcəyik. Şuşa ətrafında, Daşaltıda yer seçmişik, türklər bizə hədiyyə olaraq quyudibi stansiya verib, qazılmasını da öz üzərlərinə götürüblər. Qeyd edim ki, Qarabağ 9 ballıq zonada yerləşir.

Bu il "Heydər Əliyev İli" elan olunub. Ulu öndərin 100 illik yubileyi münasibətilə Qarabağda bu stansiyanın qurulması, iyunda isə beynəlxalq konfransın keçiriləcəyi planlaşdırılır. Konfransın bir gününü Qarabağa həsr edəcəyik ki, iştirakçılar erməni vəhşiliyini görsünlər.

Eyni zamanda, seysmik təhlükələr zamanı hər il olduğu kimi, bu il də qabaqlayıcı tədbirlərin görülməsi üçün müəyyən işlər görürük.

Müsahibəni apardı:
L.SABİRQIZI

Zəlzələ bölgəsində

FHN-in xilaskarlıq missiyası davam edir

Fövqəladə Hallar Nazirliyinin mətbuat xidmətindən qəzetimizə bildirilib ki, Kahramanmaraş ərazisində təşkil edilmiş ölkəmizin xilasetmə qüvvələrinin qərargahında fövqəladə hallar nazirinin müavini general-leytenant Etibar Mirzəyevin iştirakı ilə növbəti toplantı keçirilib.

Müzakirələrdə hazırkı əməliyyat şəraiti, əldə edilmiş nəticələr müzakirə edilib. Həmçinin atılacaq növbəti addımlar, o cümlədən, göndərilən humanitar yardımların məntəqələrə çatdırılması və təhvil verilməsi məsələləri nəzərdən keçirilib, müvafiq tapşırıqlar verilib.

Məlumatda daha sonra qeyd edilir ki, FHN-in xilasediciləri zəlzələdən ciddi zərər görmüş Kahramanmaraş rayonu ərazisində həyata keçirdikləri axtarış-xilasetmə əməliyyatları nəticəsində dağıntılar altından 51 nəfəri sağ, 655 nəfərin isə cəsədini çıxararaq aidiyyəti üzrə təhvil veriblər.

Axtarış-xilasetmə əməliyyatları xüsusi texniki vasitələr, habelə xilasetmə itlərinin tətbiq edilməsi ilə davam etdirilir.

***

Fövqəladə Hallar Nazirliyinin (FHN) növbəti humanitar yardımını aparan 9 yük avtomobilindən ibarət üçüncü karvan bu gün qardaş ölkəyə çatıb.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, Kahramanmaraşa gələn çadır və qızdırıcılardan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.

***

Dünən Türkiyə səhiyyə nazirinin müavini Tolqa Tolunay və Müdafiə Nazirliyi Tibb xidməti rəisinin müavini general-mayor Durmuş Aydemir FHN-in mobil səhra hospitalında olub, burada yaradılmış şəraitlə, həmçinin hospitalda müalicə olunan yaralı və xəstələrin vəziyyətləri ilə maraqlanıblar.

T.Tolunay və D.Aydemir hospitallarda yaradılmış şəraiti yüksək qiymətləndirib, göstərilən dəstəyə görə Azərbaycan dövlətinə təşəkkür ediblər.

XİN: 513 nəfər Azərbaycan vətəndaşı təxliyyə edilib

Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsindən qəzetimizə bildirilib ki, zəlzələdən sonrakı günlərdə 513 nəfər Azərbaycan vətəndaşı və onların yaxın ailə üzvləri Azərbaycana təxliyə olunub. Kahramanmaraş, Hatay, Adana, Malatya, Adıyaman, Qaziantep, Şanlıurfa, Osmaniyə, Kilis və Diyarbakırda təxliyə prosesi davam etməkdədir.

Zərər görmüş əraziləri tərk etmək istəyənlər üçün müvafiq vilayətlərdə jandarm bölmələri tərəfindən təxliyə məntəqələri yaradılıb. Bu məntəqələrə müraciət edənlərin Türkiyənin təhlükəsiz bölgələrinə təxliyəsi Türkiyənin aidiyyəti qurumları tərəfindən ən uyğun hesab edilən vasitələrlə təmin edilir.

Malatya şəhərində aparılan axtarış tədbirləri nəticəsində 2001-ci il təvəllüdlü Azərbaycan Respublikasının vətəndaşı Vəliyev Şahin Nail oğlunun vəfat etdiyi məlum olub. Bununla zəlzələ nəticəsində həlak olan Azərbaycan Respublikasının vətəndaşlarının sayı 6-ya çatıb.

***

Malatya şəhərində aparılan axtarış tədbirləri nəticəsində İnönü Universitetinin azərbaycanlı tələbələri Samir Quliyev, Şahin Verdiyev, Hümam İsmayıllı və Gündüz Nəzərzadənin meyitləri, nəhayət, dağıntılar altından aşkar edilərək çıxarılıb.

Könüllülərimizin fəallığı

Baş vermiş dəhşətli təbii fəlakətdən zərər çəkən qardaş türk xalqına kömək məqsədilə Kahramanmaraşa yollanan Azərbaycan könüllüləri də ötən günlərdə fəal çalışıblar.

Gənclər Fondunun mətbuat xidmətindən qəzetimizə verilən məlumatda bildirilir ki, Kahramanmaraş şəhərinin mərkəzində Azərbaycan könüllüləri çadır qərargah məntəqəsi salınmasını başa çatdırıb və paylama (təminat) mərkəzi qurublar. Bundan əlavə, Azərbaycan könüllü gəncləri şəhərin müxtəlif ərazilərində yerləşən yeməkpaylama mərkəzlərində yeməklərin çeşidləmə, paketləmə və paylama prosesində yaxından iştirak edirlər.

Könüllülərimizin bir qrupu isə yerli əhalinin mobil telefonları üçün enerji yükləmə mərkəzində xidmət edir. Tibb təhsilli könüllülərimiz Türkiyə Gənclər Fondunun səyyar aptekində xidmət göstərir, zərərçəkmiş kəndlərə göndərilən səyyar qruplarının tərkibində yardımların paylanmasında iştirak edirlər. Onlar 10 min nəfər zərərçəkmiş şəxsin yerləşdirildiyi çadır düşərgəsində də olublar. Növbəti günlərdə gigiyenik malların paylanılması və uşaqların əylənməsi və psixoloji yardım almaları üçün 2 ədəd iri çadırımızın həmin düşərgədə quraşdırılması razılaşdırılıb.

Soydaşlarımızın xaricdən yardımları

Gürcüstanın Marneuli rayonunda fəaliyyət göstərən Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) icraçı direktoru Orxan Pirverdiyev qardaş Türkiyənin Tbilisidəki səfirliyini ziyarət edib.

Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbaya başsağlığı verən icraçı direktor Gürcüstan azərbaycanlılarının türk xalqının kədərinə şərik olduqlarını bildirib, səfirlikdə açılmış başsağlığı kitabına ürək sözlərini yazıb.

"Gürcüstan azərbaycanlıları sizinlədir!" və "Sənin ayağına dəyən daş bizim ürəyimizi ağrıdır, Türkiyə!" kampaniyası çərçivəsində toplanan humanitar yardım Türkiyə səfirliyinə təhvil verilib. GAİM rəhbərliyi yardım kampanıyasına dəstək verən Gürcüstan azərbaycanlılarına minnətdarlığını bildirib.

Öz növbəsində, "Alyans" Gənclər Mərkəzi də zəlzələ bölgəsinə humanitar yardım yola salıb.

Gürcüstanda fəaliyyət göstərən "24News.ge" xəbər portalı da Türkiyədə baş vermiş təbii fəlakətlə bağlı humanitar yardım kampaniyasına qoşulub. Portalın təşkilatçılığı ilə zəlzələnin baş verdiyi ilk saatlardan etibarən elan edilmiş yardım kampaniyasında fəal iştirak edən Gürcüstandakı azərbaycanlıların köməyi ilə 5078 lari dəyərində uzun müddət saxlanılması mümkün olan qida məhsulları, 3255 lari dəyərində 3 generator, 550 lari dəyərində 25 elektrik qızdırıcısı və 900 lari dəyərində 10 çadır alınaraq Türkiyənin Gürcüstandakı səfirliyinə təhvil verilib.

Qeyd edək ki, vətəndaşların çoxsaylı müraciətləri əsasında portal yardım kampaniyasını davam etdirir.

***

Rusiyanın Stavropol vilayətinin Pyatiqorsk şəhərində fəaliyyət göstərən "Araz" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin rəhbərliyi Türkiyənin Novorossiysk şəhərindəki Baş konsulluğunu ziyarət edib.

Ziyarət zamanı "Araz" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Təhmasib Zeynalov qardaş ölkədə baş vermiş dağıdıcı təbii fəlakətlə əlaqədar Türkiyənin Novorossiyk şəhərindəki Baş konsulu Fırat Bayara başsağlığı verib. "Araz"ın Pyatiqorsk, Kislovodsk, Mineralnıye Vodı, Yessentuki, Georgevsk, Budenovsk, Nevinamınsk, Stavropol şəhərlərindəki təşkilatları, Qaraçay-Çərkəz, Kabardin-Balkar Respublikalarındakı Azərbaycan diaspor təşkilatları üzvlərinin və Şimali Qafqazda yaşayan müxtəlif icmaların zəlzələ nəticəsində həlak olanların doğmalarının və yaxınlarının kədərinə şərik olduğunu, yaralıların tezliklə sağalmasını dilədiklərini bildirib. Nəzərə çatdırıb ki, Stavropol diyarındakı və Şimali Qafqazdakı Azərbaycan diaspor təşkilatları Türkiyənin acısını öz acıları kimi qəbul edərək, qardaş ölkəyə humanitar yardımın toplanmasında fəal iştirak ediblər.

Sonra "Araz" Azərbaycan Milli-Mədəni Muxtariyyətinin operativ qərargahında 3,5 milyon rubl dəyərində toplanan humanitar yardım Baş konsulluğa təhvil verilib.

Baş konsul Fırat Bayar çətin günlərdə Türkiyənin yanında olan Azərbaycan diaspor təşkilatlarına minnətdarlığını bildirib.

("Xalq qəzeti", AZƏRTAC)

Dar günün sarsılmaz qardaşlığı

Yardımların arası kəsilmir

Yasamal

Humanitar yardım kampaniyası çərçivəsində paytaxtın Yasamal bələdiyyəsinə aid yük avtomobili Türkiyəyə yola salınıb.

Yardıma isti paltarlar, istilik vasitələri, uzun müddət saxlanılması mümkün olan qidalar, uşaq yeməkləri, qablaşdırılmış qidalar, tibbi və gigiyenik ləvazimatlar və digər zəruri əşyalar daxil edilib.

Qəbələ

Rayon icra hakimiyyəti tərəfindən 4 TIR humanitar yardım Türkiyəyə yola salınıb. Qardaş yardımına zəlzələ bölgəsində daha çox ehtiyac duyulan elektrik generatorları və içməli su daxildir.

Ağcabədi

Qardaş Türkiyədə baş vermiş güclü zəlzələdən zərərçəkənlərə humanitar yardım kampaniyasına Ağcabədi rayonu da qoşulub.

Zəlzələ bölgəsinə enerji təminatı məqsədilə 7 ədəd generator, uşaqlar üçün 100 ədəd isti geyim, 250 ədəd açılıb-yığılan çarpayı, 100 ədəd qızdırıcı cihaz göndərilib.

Quba

Rayondakı Azərbaycan–Türkiyə Qardaşlıq parkından yardımla dolu iki yük avtomobili qardaş ölkəyə yola salınıb.

Quba Rayon İcra Hakimiyyəti tərəfindən Türkiyədə dağıdıcı zəlzələdən zərərçəkmiş şəxslərin ehtiyaclarının qarşılanması məqsədilə generatorlar, çadır, yataq ləvazimatları, zəruri gigiyenik vasitələr, elektrik qızdırıcıları və başqa avadanlıqlar göndərilib.

* * *

Hacıqabul, Neftçala, Saatlı və Salyan rayonlarından da Türkiyədə zəlzələdən zərərçəkənlərə isti geyimlər, dərman preparatları, yorğan-döşək, ərzaq və digər məhsullardan ibarət humanitar yardım göndərilib.

Müdafiə Nazirliyi

Müdafiə Nazirliyinin Maddi-Texniki Təminat Baş İdarəsinin təminat bazasından qardaş ölkəyə qış səhra çadırları, adyallar, çarpayılar, yataq kisələri, qızdırıcılar, elektrik generatorları və digər zəruri əşyalardan ibarət növbəti yardım yük avtomobili vasitəsilə qardaş ölkəyə göndərilib.

Ədliyyə Nazirliyi

Qardaşlıq və dostluğumuzun, sarsılmaz və əbədi həmrəyliyimizin təcəssümü olaraq zəlzələ qurbanlarına dəstək göstərməyi özlərinə mənəvi borc hesab edən ədliyyə işçiləri, həmçinin apellyasiya və birinci instansiya məhkəmələrinin hakimləri könüllü olaraq əmək haqlarından 505 min manat vəsaiti Türkiyənin Fövqəladə Halların İdarə Olunması Agentliyinin hesabına köçürüblər.

Fövqəladə Hallar Nazirliyi

Fövqəladə Hallar Nazirliyinin növbəti humanitar yardımını aparan 9 yük avtomobilindən ibarət üçüncü karvan bu gün qardaş ölkəyə çatıb. Kahramanmaraşa gələn çadır və qızdırıcılardan ibarət humanitar yardım aidiyyəti üzrə təhvil verilib.

(“Xalq qəzeti”, AZƏRTAC)

“Can Türkiyəm”

Azərbaycan Milli Konservatoriyasının rektoru, Xalq artisti, professor Siyavuş Kərimi Türkiyədə baş verən zəlzələyə “Can Türkiyəm” adlı musiqi bəstələyib. Bir neçə gündür sosial şəbəkədə bu əsər böyük marağa səbəb olub. Bəstəkarın bu barədə dedikləri:

– Fevralın 6-sı axşamdan biz Rafael müəllimlə (Rafael Hüseynov – red.) bir yerdə idik. Türkiyədə baş vermiş zəlzələ ilə bağlı ilkin məlumatı elə orada aldıq. Evə gəlib televiziyada, sosial şəbəkələrdə yayılan məlumatları, videoları görəndə bu, mənə çox pis təsir etdi. İçimdə o qədər dərin kədər vardı ki, gecəylə Rafaelə zəng etdim, dedim, mənə bir şeir, mətn göndər. Məndə çoxdan bir musiqi var idi, bunu Rafaelə yolladım. O da musiqiyə qulaq asıb, şeir yazıb mənə

göndərdi, amma nə qədər çalışdım, musiqi alınmadı. İnanın ki, gecəni səhərə qədər yata bilmədim.

Göndərilmiş mətnə səhər bir də baxdım, 15 dəqiqəyə bir musiqi yazdım. Sonra mahnını da, mətni də müğənni Zabitə Alıyevaya göndərdim. O gəldi, görüşdük və bir video çəkildi. Rafael müəllimin bəzi qeydlərini də nəzərə alıb yenidən məşq etdik. Videonu Facebook və digər sosial şəbəkələrdə yerləşdirdik. O gün hər şey sanki üst-üstə düşdü və bu mahnı yarandı. Bu, hər birimizin içində olan ağrı, sızıltı idi.



Hadisə baş verəndən sonra Azərbaycan və digər ölkələr Türkiyəyə öz köməyini göstərdi. Amma Azərbaycanın dəstəyi o qədər səmimi, o qədər safdır ki... Burada hər kəs o ağrını öz doğmasının, qohumunun, əzizinin faciəsi kimi hiss edir. Bu faciəni biz musiqi dilinə çevirdik. Əksəriyyət “Can Türkiyəm”i dəstəklədi. Hətta xəbərim var ki, Türkiyədə iş adamları, parlament üzvləri də bu musiqi ilə tanışdırlar. Aldığım məlumata görə, baxış sayı xeyli çoxdur.

Bu, mahnı deyil, bir ağıdır.

Allah zəlzələdə həyatını itirənlərə rəhmət eləsin. Ən çox ürəyimi ağrıdan südəmər uşaqlar oldu. Axı niyə onların həyatında belə bir faciə olmalıydı? Söz demək çox çətindir...

Hazırladı: Əli NƏCƏFXANLI,
“Xalq qəzeti”

Əsrin fəlakəti və ölməyən ümidlər...

Dünyanı bürüyən qlobal böhranlar silsiləsi az imiş kimi, tale bizləri də yeni və dəhşətli faciələrlə üzləşdirdi. Böyük Zəfərin sevincini təzə-təzə daddığımız və Zəngəzur dəhlizinin açılacağı günü səbirsizliklə gözlədiyimiz anlarda üzləşdiklərimiz, sanki həyatımızı yenidən yeni sınaqları ilə imtahan etdi. Niyəsini, səbəbini bilməsək də, olub-keçənlərdən amansız və mərhəmətsiz “müəllimlərin” dərslərini oxuyası olduq. Olanların mahiyyət və siqlətinin bəxş etdikləri isə təkcə faciə və ironiya deyildi. Bir gözü ağlayan, bir gözü gülən dünyasa heç nə olmamış kimi Günəşi, küləyi, yağışı ilə insanlığa yeni-yeni möcüzələrini bəxş etməkdədir. Hər gün eşidib gördüklərimizsə böyük möcüzə adlandırdığımız həqiqətlərin təntənəsidir.

Nələr baş verdi? Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ölənlərin xatirəsini anmaq üçün ölkədə 7 günlük matəm elan etdi, ölkənin zəlzələ baş verən 10 şəhərində 3 aylıq fövqəladə vəziyyət elan olundu. Bu hadisə Türkiyədə 1939-cu ildən bəri qeydə alınan ən güclü zəlzələ kimi tarixə düşdü. Təbii fəlakət, həmçinin Suriyada böyük dağıntı və minlərlə itkilərə səbəb oldu, eyni zamanda Livan, Kipr, İraq, İsrail, İordaniya, İran və Misirdə də hiss edildi.

Türkiyədə zəlzələ seysmik xəritədə “qırmızı” kimi qeyd olunan riskli ərazidə baş verib. Burada zəlzələ olacağı məlum idi, amma nə vaxt, növbəti 3-5 gündə və ya 50-100 il sonra baş verəcəyi təbii ki, bilinmirdi. Problem buradadır. Seysmoloqlar deyirlər ki, zəlzələlərdə risk zonasını bilirik, ancaq vaxtı bilmədiyimiz üçün etməli olduğumuz şey ən yaxşı şəkildə hazırlıqlı olmaq və dayanıqlı binalar inşa etməkdir.

İsveçrənin Seysmologiya Xidmətinin direktoru Stefan Vaymer Kahramanmaraş mərkəzli zəlzələlərlə bağlı açıqlamasında uzun illər bu ərazilərdə gərginliyin olduğunu və belə zəlzələlərlə boşaldığını bildirib: "Xüsusilə bu ərazi 7.7 bal gücündəki zəlzələ ilə gərginliyin yığıldığı və boşaldığı Şərqi Anadolu qırılma xəttidir. Belə böyük zəlzələ həqiqətən çox nadirdir. 8 ballıq zəlzələ dünyada bəlkə də ildə bir dəfə olur. Türkiyə ilə Suriya arasındakı bölgədə 100 ildən artıqdır ki, belə böyük zəlzələ olmamışdı. Məsələn, tarixdən Hələbin dəfələrlə güclü zəlzələlərlə silkələndiyini bilirik. Ancaq 7.7 bal gücündə baş verən zəlzələ onsuz da böyük bir zəlzələdir."

Belə böyük zəlzələlərdən sonra günlər, həftələr və hətta aylar boyu zəif təkanların olduğuna diqqət çəkən Vaymer, bunların ümumiyyətlə zaman keçdikcə saylarının və intensivliyinin azaldığını qeyd edib. Kahramanmaraşda baş verən birinci zəlzələ 7,7 bal gücündə olub və 80 saniyə davam edib. Mütəxəssislərə görə, müddət olduqca uzundur. Türkiyədə baş verən zəlzələnin böyük dağıntı və tələfatlarla nəticələnməsinin səbəbləri haqqında danışan Yıldız Texnik Universitetinin Təbiət Elmləri Araşdırma Mərkəzinin sədri, professor Şükrü Ərsoy deyib ki, “Təbii ki, dağıntıların böyüklüyü ancaq zəlzələlərin başvermə müddəti ilə bağlı deyil. Son zəlzələnin ocağı yerin 7 kilometr dərinliyində olub. Bu, yığılan enerjinin Yer səthinə daha yaxın şəkildə yayılmasını təmin edib. Digər tərəfdən relyef faktoru da önəmlidir. Relyefin pis olduğu yerlərdə zəlzələ binalara ciddi təsir göstərib və dağıntılar daha çox baş verib. Burada əsas faktorlar zəlzələnin gücü, başvermə müddəti, relyef, eyni zamanda binaların mövcud qanunların, qaydaların, standartlarının tələblərinə cavab verməməsidir. Dağıntıların çox olduğu bölgələrdə bəzi binaların inşası zamanı mühəndis xətalarının olduğu istisna deyil. Bəzi binalar isə uzun müddət əvvəl və öz dövrünün tələblərinə görə tikilib. Lakin onlar sonradan yeni tikinti qanunvericiliyinə və standartlara uyğun şəkildə möhkəmləndirilməyib. Yəqin ki, zəlzələnin nəticələri aradan qaldırıldıqdan sonra bütün sadaladığımız məsələlər dövlətin aidiyyəti qurumları tərəfindən araşdırılacaq və lazımi hüquqi qiymət veriləcək”.

Yaponiyadakı zəlzələ ocaqlarının Türkiyədəkilərə nisbətən çox dərində olduğunu vurğulayan Ərsoy onu da bildirib ki, “Yaponiyadakı zəlzələlərlə müqayisə məsələsinə gəldikdə deyə bilərəm ki, orada zəlzələlər daha tez-tez və güclü olur. Məsələn, bu ölkədə 9 bal gücündəki zəlzələlərin başvermə riski daha çoxdur, Türkiyədə isə zəlzələnin maksimum gücü 8 baldır. Yaponiyada zəlzələ ocağının dərinliyi 130 kilometrə çatır. Türkiyədə isə bu məsafə maksimum 30 kilometrə qədərdir. Əlbəttə, Yaponiyanın böyük zəlzələ və təbii fəlakətlərə davamlı bina inşası təcrübəsi var. Lakin fikrimcə, bu məsələ ilə bağlı bəhs etdiyimiz amillər də nəzərdən qaçmamalıdır”.

“Kahramanmaraş zəlzələsi Yaponiyadakından 30 dəfə böyükdür” şərhini verən İspaniyanın Elmi Araşdırmalar Yüksək Şurasına bağlı Geociencias Barselona (Geo3Bcn) İnstitutunda çalışan seysmoloq Jordi Diaz Türkiyənin 10 vilayətində baş verən faciəni “əsrin fəlakəti” adlandırır. Statistikaya görə, Türkiyədəki zəlzələnin əsrin ən böyük zəlzələsi olduğunu deyən Diaz bu böyüklükdə zəlzələlərin dünyada da ildə 10-20 dəfə baş verdiyini, lakin Türkiyədəki zəlzələnin dağıdıcılığı baxımından bəzi fərqləri olduğunu da bildirir. Zəlzələnin dərinliyinin yer səthinə çox yaxın olduğunu, mərkəzinin yaşayış məntəqələrində yerləşdiyini və dayanıqlı tikililərin olmamasının itkilərin çox olmasının əsas səbəbləri olduğunu bildirən Diaz “Biz Türkiyədəki kimi zəlzələləri “dayaz zəlzələ” adlandırırıq və zəlzələ nə qədər dayaz olursa, şiddəti bir o qədər böyük olur”, – deyib.

İspaniyalı seysmoloq Yaponiyanın Tohoku bölgəsində 2011-ci ildə “fövqəladə deyilə biləcək” 9,1 bal gücündə Türkiyədəkinə bənzər zəlzələ olduğunu bildirərək “Ancaq Kahramanmaraşda 9 saat fərqlə iki böyük zəlzələ oldu. Bu, nadir hallarda müşahidə etdiyimiz bir vəziyyətdir. Buraxılan enerjinin Yaponiyadakından 30 dəfə çox olduğunu deyə bilərik”, – deyə vurğulayıb.

Türkiyədə baş verən zəlzələ bəzi kəndləri, demək olar ki, tamamilə yerlə-yeksan edib. Təkanların episentri olan Pazarcık rayonunun (Kahramanmaraş) Ördekdede kəndi bunlardan olsa-olsa biridir. Zəlzələdə yaxınlarını itirənlər və dağıntılar altından xilas edilənlər həmin anları göz yaşları içində danışıblar: “Balalarımı itirdim, hamısını itirdim. Çaşqınam, altı övladımı, nəvələrimi, oğlumu itirdim”, – deyə kənd sakinlərindən biri hönkürərək danışıb. “Ölsəm bundan yaxşı idi, ölmədim, nə edim, uşaqlarımın yaşadığı evlərin ikisi də yerlə-yeksan olub”, – deyə ailəsinin 7 üzvünü itirən kişi bildirib.

Bu cür kəndlər isə bir deyil, beş deyil. Hətta Qaziantep vilayətinin valisi zəlzələdən zərər çəkmiş 40 mindən çox əhalisi olan Nurdağı şəhərinin tamamilə sökülərək yenidən tikiləcəyi haqqında qərarını açıqlayıb.

Amma ümidlər kəsilməyib, bəlkə buna görə də minlərlə insanın həyatını itirdiyi zəlzələlərdən sonra axtarış-xilasetmə işləri davam edir. Bölgədən kədərli xəbərlərlə yanaşı, möcüzəvi hekayələr də eşidirik. Bunların da sayı çoxdur, lap çoxdur. Hatayın Samandağ bölgəsində 90 saat sonra 10 günlük körpəsi ilə birlikdə xilas edilən ana möcüzəvi qurtuluşundan danışıb: yanvarın 27-də dünyaya gələn ikinci oğluna Yağız adını verib. Cəmi 10 gün sonra saat 04:17-də Necla Hataydakı evində uşağına süd verərkən dağıntılar altında qalıblar. Samandağda müasir tipli beşmərtəbəli yaşayış binasının ikinci mərtəbəsində yaşadığını deyən gənc ana bildirib ki, orada özünü təhlükəsiz hiss edib. Amma o da hamı kimi bir gün səhəri dağıntılar altında açacağından xəbərsiz olub.

Türkiyənin Hatay vilayətində zəlzələnin 138-ci saatında 51 yaşlı Əminə Doğu və 19 yaşlı oğlu Bəkir Doğu xilas edilib. Dağıntılar altından çıxarılan qadının sözləri hər kəsi duyğulandırıb. Qadın onu tibbi yardıma təhvil verən xilasedicilərə “Nə olar, məni özəl xəstəxanaya aparmayın. Pulum yoxdur” deyib. Doğuya tibbi müdaxilə edən Tekirdağ sağlamlıq qrupunun tibb mütəxəssisi Orhan Eroğlu isə, “Sən cənnətliksən. Məni özəl xəstəxanaya aparma deyir, pulum yoxdur deyir. Sənə qurban olaram. Bütün özəl xəstəxanaları sənə qurban edərəm” deyə cavab verib.

Günlər ötdükcə, insanların ümidləri də azalır. Amma yenə də dağıntılar altından möcüzə gözləyirlər və möcüzələr də baş verir. Hataydakı kimi... 8 mərtəbəli binanın çökməsi nəticəsində oraya qonaq gələn Kaan Kuruoğlu 182 saat uçqun altında ac-susuz qalsa da xilasedicilər tərəfindən tapılıb, sağ-salamat dağıntılar altından çıxarılıb. Sağ qalan 13 yaşlı oğlan ac olduğunu bildirib. O, “ciyər kababı” yemək istədiyini deyib.

Möcüzələrsə hər kəsin qismətinə düşmür. Türkiyədə baş verən zəlzələdən sonra dağıntılar altında qalanlar sırasında "Kuruluş Osman"ın aktyoru Çağdaş Çankaya ilə musiqiçi həyat yoldaşı Zilan Tiqris də yer alıb. Günlərdir davam edən axtarışlardan sonra Diyarbakırın Yenişehir bölgəsində doqquzmərtəbəli bir binanın altında qalan cütlüyün cansız bədəni tapılıb. Bu taleyə tuş olanların sayı isə dünən 35 mini keçmişdi...

Həyatsa davam edir. Türkiyəyə yardıma gələn İsrail və İranın təyyarələri də hava limanında yanaşı dayanıblar. Aylardır Türkiyəyə diş qıcayan Yunanıstan televizyonları səhərlərini türk mahnıları ilə açır, yunan xilasedicilər “düşmən”in xilasına tələsir. Deyirəm, bəlkə fransız dərgisinin ironiyasını da yada salmayaq. Türkiyə rəsmilərinin dediyi kimi, 99 ölkədən və 16 beynəlxalq təşkilatdan yardım təklifi almışıq. Fevralın 13-nə olan məlumata görə, dağıntı zonasında 77 ölkədən 9 401 mütəxəssis işləyir. Daha 747 xilasedici yoldadır...

Azərbaycansa bu dar gündə də hamıdan

əvvəl qardaşının yanındadır.

Dövlətimiz, xalqımız zəlzələdən zərərçəkən türkiyəli bacı-qardaşlarımıza kömək olmaq üçün faciənin baş verdiyi andan etibarən səfərbər olub, ölkəmizin bütün bölgələrində yardım kampaniyalarına başlanılıb. Hər kəs bağrından qopan qardaş payı ilə bu yardım kampaniyalarında cani-dildən iştirak edir, Türkiyəyə kömək üçün könüllü olur...

“Azərbaycan da yas tutur. Kimsənin kefi yoxdur”. Bunu **Türkiyənin Azərbaycandakı səfirliyinin müşaviri Hüseyn Altınalın** “Twitter”də yazıb və davam edib ki, uşaqdan böyüyə hər bir azərbaycanlı zəlzələnin ağrısını ürəyində hiss edir: “Bakıdakı məscidlərdə imamlar dualarının böyük hissəsini ölkəmizdə zəlzələdən zərərçəkənlərə həsr ediblər. O dualara “amin” deyərkən səslərin çox möhkəm çıxması təsiredici idi. Yaşasın qardaşlığımız”.

Bu duyğular Bakıdan çox uzaqlarda, **İzmirdə yaşayan, Ege Universiteti Türk Dünyası Araşdırmaları İnstitutunun qurucusu alim dostumuz Fikrət Türkməndən** də yan keçməyib. O, deyir: cox üzgünük, illərin dərdini yüklədi bu fəlakət bizlərə. Ekranlara baxmaq olmur. Dağıntılar altında qalaraq ölmüş qızının əlini buraxmayan atanın fotosu bu faciənin simvolu oldu. Nə yazıqlar, ağlamaqla boşalmır dərdlərimiz. Azərbaycanlı qardaşlarımızın kömək və səfərbərliyini görmək də ağlatdı bizləri. Bu göz yaşları isə bambaşqa idi.

Azərbaycanın qardaş Türkiyəyə dayaq olmasının tarixisə yeni deyil. Bu, təkcə yaxın tariximizdə olmayıb, yüz il əvvəl də yaşanıb. Uzaq keçmişimizdə yaşananlar heç də təsadüfdən olmayıb. Çanaqqala savaşında azərbaycanlı qardaşlarımız bizimlə çiyin-çiyinə olublar, sonra Türkiyənin ağır günlərində Mustafa Kamal Paşa kömək üçün Azərbaycana əl uzatmışdı, qardaşdan kömək istəmişdi. Nə yaxşı ki, xalqlarımız tarixin ən ağır günlərində bir-birlərinə kömək ola bildilər. İndiki bu ağır günlərdə də bunu görməkdəyik, təmənnasız, çağırışsız. İndi də Azərbaycan hər cür maddi yardımı ilə qardaşının yanındadır, İnsanlar kömək üçün o qədər mütəşəkkil və səfərbərdir ki...Mən bu cür səfərbərliyi ikinci Qarabağ savaşı öncəsi gördüm...

Xatırladaq ki, fevralın 6-da ocağı Türkiyənin Kahramanmaraş şəhərinin Pazarcık rayonu olan 7,7 maqnitudalı və 9 saat sonra episentri eyni şəhərin Elbistan rayonu olan 7,6 maqnitudalı iki zəlzələ olub. Türkiyənin 10 vilayətini əhatə edən zəlzələ nəticəsində ölənlərin sayı 35 mini keçib.

Namiq QƏDİMOĞLU,
“Xalq qəzeti”

Ermənistan regiona hansı təhlükə törədir?

Ermənistanın müstəqillik əldə etdiyi ilk gündən etibarən ağır iqtisadi problemlər məngənəsində sıxıldığı, bu müddət ərzində mövcud problemlərin daha da dərinləşdiyi heç kimə sirr deyil. Bu həqiqət zaman-zaman Ermənistanın nəinki müstəqil iqtisadçıları, müxalifət nümayəndələri, hətta rəsmi şəxsləri tərəfindən də açıq şəkildə etiraf olunub.

İrəvanın Azərbaycana qarşı həyata keçirdiyi 30 illik işğal siyasəti bu ölkənin silahlanmaya böyük vəsaitlər sərf etməsi ilə nəticələndi ki, bu da Ermənistanın onsuz da məhdud mümkün iqtisadi inkişaf imkanlarını ortadan qaldırdı. 44 günlük Vətən müharibəsi isə Ermənistan iqtisadiyyatına vurulan son ölümcül zərbə oldu. Müharibə nəticəsində öz hərbi potensialının 80 faizi ilə yanaşı, həm də iqtisadi inkişaf imkanlarından məhrum olan Ermənistan öz vətəndaşları üçün ağır yükə çevrildi.

Müharibədən sonra Ermənistanın Azərbaycanın sülh səylərini dəstəkləməkdən imtina etməsi onun regional layihələrdən faydalanmaq imkanını ortadan qaldırmaqda, ölkə daxilindəki ağır sosial durumu kəskinləşdirməkdədir. Müstəqillik tarixində onu ayaqda tutacaq iqtisadi güc əldə edə bilməyən Ermənistan, bu gün həmin gücün tamamını – "həyat qaynağını" kənar yardımlar sayəsində təmin etməyə çalışır.

Yanlış siyasət Ermənistanı iqtisadi müstəqillikdən, eyni zamanda, iqtisadi dayanıqlılıqdan tamamilə məhrum edib. Hansı ki, Ermənistanın iqtisadi müstəqillikdən məhrum olması onu sadəcə öz vətəndaşları üçün deyil, həm də bütün region üçün ciddi təhlükə mənbəyinə çevirir.

Ermənistanın iqtisadi müstəqillikdən məhrum olmasının acı nəticələri özünü, ilk növbədə, bu ölkənin vətəndaşlarının sosial rifah səviyyəsində əks etdirməkdədir. İqtisadi baxımdan kənar dövlət və maliyyə qaynaqlarından asılı olan Ermənistanda sosial fəlakət sürətlə dərinləşməkdə, insanlar acından ölməmək, öz fiziki mövcudluqlarını qoruyub saxlamaq üçün müxtəlif ölkələrə köç etməkdədir. Post-müharibə dönəmində Ermənistandan

xaricə köçün kəskin şəkildə artması ölkə daxilindəki vəziyyətin nə qədər ümidsiz və acınacaqlı olduğunu göstərir. Zaman-zaman Ermənistan vətəndaşlarının, Azərbaycana, müraciət edərək məşğulluq problemlərinin həllində dövlətimizdən köməklik istəmələri də, İrəvanın yürütdüyü siyasətin ağır nəticələrindən xəbər verir.

Sosial vəziyyətin ölkə iqtisadiyyatına uyğun şəkildə durmadan pisləşməsi, kriminal idarəetmə üsulu, hərtərəfli hüquqsuzluq Ermənistan vətəndaşlarının əksəriyyətini potensial terrorçuya çevirməkdədir. Erməni toplumunun önəmli bir hissəsi müvəqqəti də olsa, öz dolanışığını yaxşılaşdırmaq üçün hər cür qanunsuzluğa hazırdır ki, bu da onları bütün region üçün təhlükəli edir. Təsadüfi deyil ki, bu gün Ermənistan bütün dünyaya ən çox terrorçu "ixrac edən" dövlətdir və bu ixrac sürətlə genişlənməkdədir.

Rəsmi İrəvanın bu gün də militarist və təxribatçı siyasət yürütdüyünü nəzərə alsaq, Ermənistanın hələ uzun illər bundan sonra da iqtisadi güc mərkəzinə çevrilməyəcəyini əminliklə söyləmək olar. Bu isə o deməkdir ki, Ermənistan bundan sonra terrorçu ixracı sayəsində bütün dünya üçün ciddi təhlükəsizlik problemləri yaratmaqda davam edəcək.

Ermənistanın iqtisadi gücdən məhrumluğu, ölkə iqtsiadiyyatının, demək olar ki, tamamilə əcnəbi dövlətlərdən, xarici şirkətlərdən, ayrı-ayrı qrup və təşkilatlardan asılı hala düşməsi bu ölkəni kənar terror təşkilatları üçün də cəzbedici hala gətirir. İrəvan iqtisadi gücdən məhrum olduğu üçün, hətta ən prinsipial məsələdə belə siyasi iradə sərgiləyə, milli təhlükəsizlik məsələlərində belə qətiyyətli davranış ortaya qoya bilmir. Belə olan halda, İrəvanın siyasi iradəsizliyindən, iqtisadi asılılığından məharətlə istifadə edən terror təşkilatları, Ermənistan ərazisinə axın edərək burada öz təlim düşərgələrini yaradır, yenidən təşkilatlanma və müxtəlif terror aktlarının hazırlanması kimi fəaliyyətlər ortaya qoyurlar. PKK-nın Ermənistandakı mövcudluğu faktı bu ölkənin qlobal terrorizmə açıq olmasının ən böyük göstəricisidir.

Qeyd edək ki, Ermənistanda "ASALA" və "Daşnaksütyun" kimi qlobal terror təşkilatları da fəaliyyət göstərməkdə, bütün dünyada çoxsaylı terror aktları həyata keçirməkdədirlər.

Ermənistanın iqtisadi asılılığı fonunda müşahidə edilən mühüm nüanslardan biri də, bəzi dövlətlərin xüsusi xidmət orqanlarının da məlum reallıqdan gen-bol faydalanmasıdır. Belə ki, uzun illərdir ki, Ermənistana iqtisadi yardımlar göstərən və bu yolla onu özündən asılı hala salan İranın xüsusi xidmət orqanları bu ölkədə əsl söz sahibinə çevriliblər. Ermənistan ərazisində İranın xüsusi xidmət orqanları, ordu kəşfiyyatı, hərbi təlimatçıları və müşahidəçiləri fasiləsiz şəkildə fəaliyyət göstərməkdə, İrəvanın iradəsizliyindən rəsmi Tehranın maraqlarının qanunsuz şəkildə təmin olunmasında faydalanmaqdadır.

Ermənistanın iqtisadi asılılıq və siyasi qətiyyətsizlik səbəbi ilə terror təşkilatları və müxtəlif ölkələrin xüsusi xidmət orqanlarının qanunsuz fəaliyyətinə tam açıq olması, erməni toplumu ilə yanaşı, bütün region, hətta dünya üçün ciddi təhdidlər formalaşdırmaqdadır. Bu isə terror dövləti olan Ermənistan üzərində ciddi beynəlxalq nəzarətin tətbiqini zəruri edir. Yalnız belə bir mexanizm beynəlxalq terror şəbəkəsinin nüvəsini təşkil edən Ermənistan yaratdığı təhdidlərin nəzarətdə saxlanılmasını və önlənməsini təmin edə bilər.

Seymur ƏLİYEV

İrəvanın yapışmağa saman çöpü də qalmayıb

30 ildən sonra işğalçı maskası yırtılan, xisləti üzə çıxan Ermənistanın riyakar və xəyanətkar siyasəti postsovet məkanında ən yaxın tərəfdaşı sayılan Rusiyanı belə təngə gətirib.

Əgər belə olmasaydı, Rusiya Federasiyası Federal Məclisinin – Dövlət Dumasının sədri Vyaçeslav Volodin İrəvana Avropa strukturlarını regiondakı vəziyyətin həllinə cəlb etmək cəhdləri ilə bağlı aşağıdakı xəbərdarlığı etməzdi: "Azərbaycan, Ermənistan və Rusiyanın dövlət başçıları səviyyəsində qəbul edilmiş qərarları var. Biz bunu rəhbər tutacaq və öz tərəfimizdən bu

bəyanatların həyata keçirilməsi üçün hər şey edəcəyik. Avropa institutları istiqamətində bəyanatlar verənlər isə sadəcə olaraq, ölkəni itirə bilərlər".

Rusiyanın ali qanunverici orqanının rəhbərinin dilindən səslənən bu fikirləri tam əminliklə rəsmi İrəvana qulaqburması kimi qəbul etmək olar. V.Volodin bu bəyanatı Moskvada Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarova ilə görüşündə verib. Dumanın sədri açıq-aydın söyləyib ki, Avropa Parlamentini və ATƏT-i bölgəyə cəlb etmək istəyənlər 10 dəfə ölçməli və bunun necə bitəcəyi barədə yaxşı-yaxşı düşünməlidirlər: "Onlar Avropa Parlamentinə müraciətdən və bəzi məsələlərin həllinə AP-ni cəlb etməzdən əvvəl belə bir suala cavab verilməlidir: ümumiyyətlə, Avropa Parlamentinin, ATƏT-nin iştirakı ilə hansısa ciddi məsələ və ya münaqişəli vəziyyət həll olunubmu? Belə bir nümunə yoxdur".

Quyruq qapı arasında qalanda

Hərçənd, Kremlin özünün də planetin qaynar nöqtələrində, elə MDB məkanında baş vermiş hansısa münaqişəni dinc yolla həll etdiyinə dair təcrübəyə rast gəlməmşik. Amma, insaf xatirinə onu deməliyik ki, Zəfərimizlə bitən müharibədən sonra istər siyasi rəhbərlik, istərsə də ayrı-ayrı institutlar səviyyəsində Rusiya Azərbaycanın ədalətli mövqeyini dəstəkləyir, məqamı gələndə isə İrəvana layiq olduğu yerini göstərir. KTMT-dan əli üzülən, yönünü və ümidini Qərbə çevirən İrəvan bu müstəvidə də bir nəticə hasil edə bilmədi. Ötən ilin noyabrında Fransa Senatının "Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi, 9 noyabr 2020-ci il tarixli atəşkəs razılaşmasına riayət etməsi tələbi və iki ölkə arasında dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş bütün təşəbbüslərin təşviq edilməsi" adlı, Fransa Milli Assambleyasının isə "Azərbaycanın Ermənistana təcavüzünün dayandırılması"nı tələb edən qətnamələri siyasi avantüradan savayı heç nə deyildi. Paşinyanın ümidlərinin əksinə olaraq, Fransa parlamentinin o iki kağız parçası elə öz divarları arasında qaldı. Böyük güclərlə başından böyük diplomatik oyunlara baş vuran Ermənistanın baş naziri bir ayın içində Makronun timsalında Qərbin, həm də Moskvanın təklif etdiyi sülh paketini qəbul etdiyini açıqlamışdı. Amma oyunun qaydaları ona başa salınanda hürküyə düşmüş tülkü kimi iki div arasında vurnuxmağa başladı. Bu dəfə rəsmi İrəvanın quyruğu bir deyil, iki qapının arasında qalmış və bu tələdən qurtulmaq üçün hələ də çarpışmaqdadır. Düşmən də olsa, heç qibtə ediləcək durum deyil.

Altıncı bəndi zərrəbinlə oxu, Paşinyan

Torpaqlarımızı otuz ilə yaxın işğalda saxlayan, Qarabağın sərvətini talayan, tarixi, dini, mədəni abidələrimizə divan tutan ermənilər, hətta, biabırcasına məğlub olduqları müharibədən sonra da qızılımızı, misimizi daşıyıb pul qazanmaqdan çəkinmədilər. Laçın yolunda iki aydan çoxdur davam edən ekoaksiya bizim, məhz erməni özbaşınalığına cavab etirazımızdır. Vətənpərvər gənclərimizin dinc aksiyasını beynəlxalq ictimaiyyətə erməni əhalisinin blokadaya alınması kimi sırımağa çalışan İrəvan məqsədinə nail ola bilmədi. Çünki, diplomatiyası həmişə olduğu kimi, bu dəfə də təhrif, yalan və şərböhtan üzərində qurulmuşdu. Həmin Laçın yolu ilə hər gün nəqliyyat vasitələrinin – sülhməramlı kontingentin maşın karvanının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, təcili tibbi yardım avtomobillərinin hərəkət etməsi erməni tərəfinin iddialarının çılpaq yalan olduğunu göstərir. Bu gün Ermənistan yerli və beynəlxalq ictimaiyyəti aldatmaqla, özünü yenə də "əzabkeş qurban" cildinə salıb manipulyasiya etməklə məşğuldur. Amma İrəvan bu cəhdlərin heç bir fayda gətirməyəcəyini, imzasını qoyduğu üçtərəfli Bəyanatla boynuna düşən öhdəlikləri yerinə yetirməyə məhkum olduğunu yaxşı bilir.

Yeri gəlmişkən, baş nazir Paşinyanın bizi günahlandırmaq, özlərinə isə haqq qazandırmaq üçün tez-tez istinad etdiyi 10 noyabr Bəyanatının 6-cı bəndinə nəzər yetirək: "Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edəcək və bununla belə Şuşa şəhərinə toxunmayacaq Laçın yolu Rusiya sülhməramlı kontingentinin nəzarəti altında qalır. Tərəflərin razılığı əsasında, növbəti 3 il ərzində Dağlıq Qarabağla Ermənistan arasında əlaqəni təmin edən Laçın yolu üzrə yeni hərəkət marşrutunun inşası planı müəyyən ediləcək və bununla da həmin marşrutun mühafizəsi üçün Rusiya sülhməramlı kontingentinin gələcək yerdəyişməsi nəzərdə tutulur". Biz öz tərəfimizdən bu bənddə göstərilən "yeni hərəkət marşrutunu" artıq çəkmişik və buna müvafiq olaraq, sülhməramlı kontingentin nəzərdə tutulan yerdəyişməsi baş verməlidir. Fikrimizcə, əlavə şərhə ehtiyac yoxdur. Sadəcə, Paşinyan bu bəndi bir daha, diqqətlə, həm də zərrəbinlə oxumalıdır.

Son xəbərdarlıq

Qardaş Türkiyə Respublikasının Prezidenti Rəcəp Tayyib Ərdoğanın işğaldan azad edilmiş Şuşaya həmin tarixi səfəri zamanı dediyi sözləri yaxşı xatırlayırıq: "Azərbaycan Ermənistana dostluq və barış əlini uzadır və bu əli tutmamaq onlara baha başa gələ bilər". Bu isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sözləridir: "Növbəti müharibə Ermənistan adlı dövlətin sonu olacaq!". Daşı ətəyindən tökmək, haqq yoluna dönmək üçün İrəvana daha hansı səviyyədə və məzmunda xəbərdarlıq edilməlidir? Hələ gec deyil. Bu məqamda, son ümidgahı kimi saman çöpündən yapışmağa doğru gedən İrəvana atalarımızın uzaqdakı qohum, yaxındakı qonşu barədə zərb-məsəlini xatırlatmaq yerinə düşər. İndi yapışmağa saman çöpü belə tapmayan Paşinyan Marseldəki, Kaliforniyadakı, Suriyadakı uzaq qohumlarının boş ətəyindən deyil, qonşunun xoş məramla uzatdığı əlindən nə qədər tez yapışsa, düşdüyü dərin quyudan özü də, xalqı da bir o qədər tez qurtular. Baxmayaraq ki, bu quyunu özləri özlərinə qazıblar...

İmran BƏDİRXANLI,
"Xalq qəzeti"

Paşinyana qınaq – "seysmik diplomatiya" və xəstə erməni cəmiyyəti

(əvvəli 1-ci səhifədə)

Birinci istiqamət üzrə bildirək ki, Türkiyə–Ermənistan quru sərhədi 1993-cü ildən bağlıdır. Səbəb Ermənistanın Azərbaycanın torpaqlarını işğal etməsidir. Ermənistan cəmiyyəti isə bunu blokada kimi qiymətləndirir. Sərhədin Türkiyəyə humanitar yardımın aparılması üçün açılması həmin məntiqi bir qədər də dərinləşdirdi. Əslində isə rasional yanaşma, daha doğrusu, pozitiv təmayüllər üzərində dayanmaq şansı yaranmışdı. Məsələn, bölgədə kommunikasiyaların açıqlığının vacibliyi, xalqların bir-biri ilə əlaqələrinin genişləndirilməsi və s. məqamlara köklənmək mümkün idi. Ancaq, biz tam fərqli ab-hava gördük. Hiss olundu ki, Ermənistan siyasiləri blokada məntiqindən Türkiyəyə qarşı beynəlxalq kampaniyanın aparılması naminə istifadənin tərəfdarıdırlar. Hətta, Ankaraya Avropa Birliyi çərçivəsində təzyiq yolları axtarmaq kimi cəfəng ideya ortaya atanlara rast gəlindi. Yəni, reallıq hissinə yaxın fikir bildirənlər ya heç olmadı, olanda da, əks mövqe tutanların səsləri o qədər möhkəm çıxdı ki, birincilər kölgədə qaldılar.

***

İkinci istiqamət kimi müəyyənləşdirdiyimiz türk düşmənçiliyi xəttidir. Azərbaycan cəmiyyətində tez-tez bildirilir ki, ermənilər beşikdə olan körpələrinin qulaqlarına türklərin düşmən olduqlarını pıçıldayırlar. Biz bu deyimin nə qədər doğru olduğunu bir daha gördük. Çünki o körpələrin böyüyüb Ermənistan siyasətində ekspertə, politoloqa, deputata, elm xadiminə çevrildiklərinə şahidik. Belə qənaətə gəlirik ki, ermənilər beşikdə daha ağıllı imişlər. Bu yerdə Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyanın müşaviri işləmiş, hazırda ABŞ-da elmi-pedaqoji fəaliyyətlə məşğul olan Jirayr Liparidyanın erməni cəmiyyətinə ünvanlanmış fikrini diqqətə çatdıraq. Liparidyan, təxminən, bunları bildirir: deyirsiniz ki, türklər, azərbaycanlılar güclüdürlər, soyqırımı etmək, bizi əzmək istəyirlər. Güclüdürlərsə, soyqırımı etmək istəyirlərsə, deməli, onlarla heç cür pis danışmaq lazım deyil. Siz amma yenı də pis danışırsınız. Məgər, bilmirsiniz ki, bu, ziyandır?

Bəli, Liparidyan həm bu fikrində haqlıdır, həm də erməni cəmiyyətinin xəstə təfəkküründü vurğulayan digər sözlərində. Türkiyədəki zəlzələ və Paşinyanın ora yardım göndərməsi ilə başlanmış söz-söhbətlər keçmiş müşavirin öz xalqına qınaq dolu düşüncələrində nə qədər məntiqli danışdığını göstərdi. XXI əsrdə yaşayan bir toplumun bədbəxt hadisə zəminində belə düşmənçilik meyilləri axtarmaq əzmi, həqiqətən, dəhşətdir.

***

Üçüncü məqama keçid alaq. Bunun üzərində kifayət qədər geniş dayanmağa ehtiyac duyulur. Baş nazir Nikol Paşinyana qarşı ciddi qınaqlar var. Daha doğrusu, Ermənistanın hazırkı iqtidarını pisləyən ənənəvi kəsim ölkənin Türkiyəyə humanitar yardımı müstəvisində də işə düşüb. Maraqlıdır ki, bu kəsimin təmsilçiləri əsasən ölkənin əvvəlki iqtidarını dəstəkləyənlərdir. Onlar 2008–2009-cu illərdə Ermənistan–Türkiyə münasibətlərinin normallaşması baxımından "futbol diplomatiyası" siyasi paradiqmasının öndə olduğunu bildirirdilərsə, hazırkı durumu "seysmik diplomatiya" olaraq dəyərləndirirlər. Bildirirlər ki, N.Paşinyan administrasiyası zəlzələ faktorundan istifadə edərək, Ankara ilə yaxınlaşmaq xətti yürüdür. Təzad isə ondadır ki, bu adamlar keçmiş prezident Serj Sarkisyanın dövründə aparılmış "futbol diplomatiyası"nı məqbul sayırdılar. Sual olunur: hazırkı "seysmik diplomatiya" nə üçün məqbul sayılmır. Çünki əvvəldə də bildirdiyimiz kimi, Türkiyə 1993-cü ildə Ermənistanla quru sərhədlərini Azərbaycanın torpaqlarının işğalı faktına görə bağlamışdı.

Hazırda işğal başa çatıb. Məhz buna görə erməni siyasilər Paşinyanın üstünə gedirlər. Deməli, belə çıxır ki, Türkiyə ilə yaxınlıq Azərbaycan torpaqlarının yalnız işğalda qalması şəraitində məqbuldur. Bu barədə Ermənistanın Respublika Partiyasının sədr müavini Armen Aşotyan özünün "Teleqram" kanalında deyir ki, 2008-2009-cu illərdə erməni əsgəri Horadizdə (Azərbaycanın Füzuli rayonunda qəsəbə - red.) idi. Hazırda isə Azərbaycan əsgərinin Qafanı görməsi faktı Ermənistanın diplomatik çəkisini müəyyənləşdirmək baxımından əsasdır. Partiya funksionerinin fikrincə, İrəvanın regional nüfuzu aşağı düşüb. Ən əsası isə Aşotyan çərənləyir ki, əvvəlki illərdə, guya, Türkiyə–Ermənistan və Türkiyə ilə Qarabağdakı separatçı rejimin əlaqələri ayrılıqda götürülürdüsə, hazırda ikinci rakus, ümumiyyətlə, gündəlikdə yoxdur. Ancaq erməni siyasi bir məqamda doğrulara gəlmək məcburiyyətində qalır. O deyir ki, Ankara hazırda İrəvanla münasibətlərin yaxşılaşdırılması baxımından Zəngəzur dəhlizi məsələsini önə çəkir.

***

Daha bir məqama diqqət yetirək. Əlbəttə, Türkiyə–Ermənistan münasibətlərindəki normallaşma Azərbaycan–Ermənistan əlaqələrindəki vəziyyətdən asılıdır. Burada nə Paşinyanın yardım üçün göndərdiyi bir-neçə tırın əhəmiyyəti var, nə də digər məsələlərin. Azərbaycandan Türkiyəyə gedən yardım maşınları saysız-hesabsızdır.

Ümumən, hazırda bütün dünya Türkiyəyə yardım edir. Həm də ona görə kömək göstərir ki, oxşar vəziyyət ilə hər bir ölkənin üzləşməsi mümkündür. Yardım, belə demək mümkünsə, beynəlmiləl borcdur və mövcud müstəvidə hansısa siyasi məsələlərin qabardılması ucuzluqdur. Ermənistan cəmiyyəti, sadəcə, özünün ucuz və bəsit olduğunu göstərir. Hətta, başqa məsələləri bir kənara qoyub yalnız Paşinyanı qınamaq belə ucuzluqdur.

***

Əvvəldə bildirdik ki, erməni cəmiyyətində bir ağıllı adam varsa, o da N.Paşinyandır. Hər halda belə bir görüntü ortadadır. Yəni, hamı xəstədir, azacıq sağlam olan baş nazirdir. Ancaq mövcud xüsusda da bəzi məqamları vurğulamağa ehtiyac var. Nəzərə alaq ki, Nikol hakimiyyətə gələndə bir başqa idi, sonra tamamilə fərqli oldu. O, hakimiyyət kürsüsündə möhkəmləndikdən sonra daha çox tipik erməni xəstəliyinin aqressiv elementlərini, işğalçılıq mahiyyətini işə salaraq davranmağa başladı və nəticə etibarilə 44 günlük müharibə baş verdi. Müharibənin Ermənistan üçün acınacaqlı və rüsvayçı durum formalaşdırdığı göz önündədir. Paşinyanın hazırda Azərbaycanla danışıqlar prosesini dalana dirəməsi, Cənubi Qafqaz regionunda yeni reallıqları formalaşdırmaq istəyi də diqqətdən yayınmır.

Erməni baş nazir Türkiyə–Azərbaycan münasibətlərinin hazırkı yüksək səviyyəsindən də xəbərdardır. Belə olan halda dünmürük ki, o, Ankaraya yardım göstərməklə, bu barədə özünün sosial şəbəkə hesabı üzərindən sentimental fikirlər yazmaqla, hansısa səmimiyyət jesti gerçəkləşdirir. O, Türkiyə–Ermənistan sərhədinin açılmasına ümid bəsləmir. Əslində, yardıma qarşılıq Ankaranın təşəkkür mesajları da erməni iqtidarı üçün elə bir əhəmiyyət daşımır.

Paşinyanın mesajı xaricə – beynəlxalq ictimaiyyətədir. O yaxşı anlayır ki, xarici aləm Ermənistandakı anti-türk təmayülündən xəbərdardır. Nikol, sadəcə, ölkəsinin nifrət ritorikasından kənarlığını, xeyirxah obrazını göstərmək istəyir. Bunun gələcək siyasi proseslərdə onun üçün dividendə çevriləcəyi qənaətindədir. Lakin, erməni cəmiyyətinin hədyanlarından və ayrı-ayrı erməni siyasilərinin nifrət püsgürməsindən göründü ki, Nikolun istəyi baş tutmadı.

Hər halda, Paşinyan Türkiyəyə yardım və başsağlığı dilləklərinin ölkəsində ajiotaj doğuracağını da düşünməmiş olmazdı. Düşünüb və tam mümkündür ki, bu ajiotaj mühiti ona sərfəlidir. O, Qərbdəkilərə ölkəsində necə başıpozuq kütlə ilə çalışdığını göstərir, regionda bəşəri dəyərlərin qoruyucusu imicini yaradır.

***

O ki qaldı, Türkiyəyə, ölkə özünün Cənubi Qafqaz siyasətindəki konturlarını nəyəsə və kiməsə görə dəyişən deyil. Burada Azərbaycan amili öz yerindədir. Ancaq onu da nəzərə alaq ki, Türkiyə regiona son 100 ildə heç vaxt bu qədər bağlı olmayıb və mövcud durumu formalaşdıran həm siyasi, həm də mənəvi amil bütün parametrlər üzrə Ermənistandan dəfələrlə böyükdür.

Ankara üçün üç milyonluq Ermənistan heç iqtisadi baxımdan da böyük bazar deyil. Ancaq Zəngəzur dəhlizinin işə düşməsi Türkiyəni siyasi və iqtisadi coğrafiyada mühüm plasdarma çevirəcəkdir. Yəni sözümüz budur ki, Ermənistan–Türkiyə sərhədlərinin açılması, ümumiyyətlə, ölkələr arasında münasibətlərin qaydaya salınması İrəvan üçün daha sərfəlidir. Görünür, erməni cəmiyyəti bunu düşünməyəcək qədər iflic durumdadır.

Ə.CAHANGİROĞLU,
"Xalq qəzeti"

Texnologiya şirkətlərinə dəstək

Avropa İnvestisiya Bankı (AİB) qitənin bir çox qabaqcıl texnologiya şirkətlərinə dəstək üçün, ümumilikdə, 3 milyard 750 milyon avroluq fond yaradıb.

Bu barədə mediaya verilən açıqlamada fondun vəsaitlərinin Avropadakı perspektivli innovasiya şirkətlərinə maliyyə dəstəyi vermək üçün istifadə ediləcəyi bildirilib. İrəli sürülən təşəbbüs, ilk növbədə, 50 milyon avrodan çox kapital cəlb etmək istəyən şirkətlər üçün nəzərdə tutulub.

Qeyd edək ki, AİB tərəfindən idarə olunacaq fonda Almaniya, Belçika, Fransa və İspaniyanın hərəsi 1 milyard avro, İtaliya 150 milyon, AİB-in özü isə isə 500 milyon avro köçürüb.

Aytən NƏCƏFOVA,
"Xalq qəzeti"

Güneydən məktub

Güneyli soydaşımız, şair Araz Əhmədoğlu bu yaxınlarda Xoyda baş vermiş zəlzələyə İranın hakim dairələrinin biganəliyi barədə qəzetimizdə dərc olunan yazıları oxuyandan sonra redaksiyamıza dostları vasitəsilə göndərdiyi "Milli birliyi canlandıran Xoy dərdi" məktubda bildirir:

"Milli birliyi canlandıran Xoy dərdi"

"Hökumətdən, ölkənin imkanlı dairələrindən gözlənilən köməyi görməyən Xoy əhlini Türkiyədə və Avropada təhsil alan 5 azərbaycanlı tələbənin uşaqlara göndərdiyi 5 milyon tümənlik hədiyyə çox təsirləndirdi. Bu igidlər Arazın quzeyində Borçalı və Naxçıvan bölgələrindən olan gənclərdir. O əzizlərdən hədiyyə alan məsum uşaqların salam və xeyir dualarını çatdırmaq borcumuzdur".

Bu yerdə bildirək ki, Güney Azərbaycanın Xoy şəhərində

anadan olmuş 55 yaşlı Abbasəli Əhmədoğlu xalqımızın ayrılıq rəmzi olan "Araz" adını özünə ədəbi imza seçib. Soydaşımız özü haqqında belə bilgi verir: "Məktəbə getməzdən öncə atamdan yazıb-oxumağı öyrənmişdim və sinfimizdə birinci idim. 1986-cı ildə orta məktəbi bitirdim və Şiraz Universitetininin radiotexnika bölümünə daxil oldum. Tələbəlik illərində qürbətin, qəribliyin acısını, dərdini dərindən duydum. Mənim türk ləhcəsi ilə fars dilində danışmağımı lağa qoyub gülməsinlər deyə, gecə-gündüz farsca danışmağa çalışdım. Türk ləhcəmi azçox itirsəm də, adımı və soyadımı saxlaya bildim.

Elə məqam oldu ki, adımı dəyişməyə qərar verdim. Elə bu arada bir erməni tələbə Rəşid Behbudovu mənə tanıtdı və kasetini verdi. Bütün mahnıları öyrənib yaddaşıma həkk elədim. 1990-cı il mənim ömrümdə dönüş nöqtəsi oldu. Çünki həmin ildə mən "Varlıq" jurnalı, Hacıbaba Hüseynov, Bakı radiosu və Azərbaycanın muğam musiqisi ilə tanış oldum. 1996-cı ildə Təbriz Universitetinin ingilis dili və ədəbiyyatı bölümünə daxil oldum. Bu hadisə dünyagörüşümdə böyük bir dəyişikliyə səbəb oldu".

Araz Əhmədoğlu məktubunun davamında yazır:

1. Qışın 10 dərəcə şaxtasında çadırda sən özün yaşaya bilərsənmi?

2. O çadırlarda qalmağın sonu budur: Xoyun güneyindəki Vəliəsr rayonunda çadır alovlanıb yanıb.

3. İnsanlar çadırda dəm qazından zəhərlənirlər. 80 yaşlı anayla 55 yaşlı oğlu da çadırda zəhərlənib Allahın rəhmətinə qovuşdu.

4. İnsanlar çadırlarda qalmaqdansa çöldə tonqal başına toplaşırlar. Farslar da lağa qoyub deyirlər: "Türklər bayram edirlər".

5. 3 mindən artıq ev, 14 məktəb yararsız duruma düşüb. Sentyabrın 20-dən bəri saysız-hesabsız zəlzələ olub. Zəlzələlər çoxaldıqca, dağılan evlərin sayı da çoxalır.

6. Evlərini itirmiş uşaqlar çəkdikləri rəsmdə ev həsrətini sərgiləyirlər. Onlara bu havada ən çox lazım olan evdir.

7. Xoy zələləsində millətin dadına çatan yenə də Türk ulusu oldu. Azərbaycanın şəhərlərindən, qaşqaylardan, türkmənlərdən və bəzi başqa şəhərlərdən dəstək gəlir. Yardım göndərən əziz millətimizə dərin təşəkkürlərimizi, məmnun olduğumuzu bildiririk.

8. Yardımları gerçək ehtiyacı olanlara çatdıran vətənsevər igidlər, Mühəndis Paşazadəyə, rəssam Murad Əmmarıya, xətt ustadı Abbas Köçərliyə, Sədra Ağasıya və adlarını bilmədiyim başqa dostlara Xoy əhalisi adından təşəkkür edirik.

9. Bu mətni hazırlayarkən 3 zəlzələ titrəyişi oldu.

Araz Əhmədoğlunun bu məktubunda Güneydə mövqe və imkan sahibi olan zümrənin təmsilçilərinin – məmurların mal-mülk sahiblərinin, dükan-bazar əhlinin adına rast gəlmədik. 5 tələbənin göndərdiyi 5 milyon tümənlik yardımı isə pay-bölüş edənlər rəssam, xəttat və digər ziyalılardır.

Mirzə Cəlil, Mirzə Ələkbər Sabir demiş, bəs hara baxır Güneyin "millət dərdi çəkməkdən əriyib çöpə dönən" şişman tacirləri, karxana sahibləri? Sabir belələrinə haqlı olaraq demişdi:

Hər nə çəksən, cək, bəradər,
çəkmə düz mizanını,
Çəkmə sən millət qəmin, çəkmə,
çək öz qəlyanını.

Allah sənə rəhmət eləsin, çiynində dərd dağları daşımış Mirzə Cəlil. O zaman necə demişdin?: "Bu gün Kərbəla meydanı Azərbaycandakı vətənpərvərlik meydanıdır. Hər kimin ürəyində bir cüzi din, namus, Vətən hissi varsa, oranın qeydinə qalmalıdır! Axıtmalı qanlarımız, ehsan etməli pullarımız varsa – gözümüzün qabağında ürəklər parçalayan Azərbaycan matəmgahı durur".

Tahir AYDINOĞLU,
"Xalq qəzeti"

"Xalq qəzeti"ni Təbrizdə də oxuyurmuşlar

Bu günlərdə Güneydən xəbər aldıq ki, Təbrizdə hicablı qadınların çoxluq təşkil etdiyi, təxminən, 300 nəfərlik dəstə küçəyə çıxıb İranın düşmənlərini yamanlayıb. Bu "qeyrət və hünər sahibləri" onları küçəyə sürükləyən molla rejimi nökərlərinin fitvası ilə "Xalq qəzeti"nin də ünvanına hədə-qorxu səsləndiriblər. O "Xalq qəzeti"nin ki, ötən payızdan üzü bəri İranda davam edən haqq davasında güneyli soydaşlarımızın dərdlərini-acılarını daimi mövzuya çevirib.

O ki qaldı Təbrizdəki "hicab aşiqləri"nin mitinqinə, şəhərlə əlaqəsi olan dostlarımız öyrənib dedilər ki, "icazəli mitinq"in iştirakçıları adamlar evlərində olduqları vaxt küçələrə çıxarılıblar. Səs-küyə bayıra çıxan şəhər əhlinin qorxusundan kiçik dəstə pərən-pərən düşüb.

Köhnə inqilabçıların hökumət əleyhinə bəyanatı yayılıb

İranda təxminən üç aydan bəri davam edən xalq etirazları bir qədər zəifləsə də, tam dayanmayıb. İnsanlar hakim rejimə qarşı etiraz aksiyalarını müxtəlif formalarda davam etdirirlər. Fevralın 12-də ölkənin bir neçə şəhərində təqaüdçülər və Telekommunikasiya Şirkətinin işçiləri etiraz aksiyası keçiriblər. Məlumatı Gunaz.TV verib.

Məlumata görə, hökumət idarələri qarşısında keçirilən aksiyalarda rejim əleyhinə şüarlar səsləndirilib. Etirazlar əsasən Əhvaz, Kirman, Sircan, Şuş və başqa bir neçə şəhərdə baş tutub. Təqaüdçülər aylardır təqaüdlərinin ödənilmədiyini, hökumət idarələri tərəfindən aldadıldıqlarını bildiriblər.

Qeyd edək ki, 2021-ci ilin əvvəllərindən başlayaraq İranın əksər bölgələrində təqaüdçülər və telekommunikasiya şirkəti işçiləri davamlı aksiyalar keçirirlər.

1979-cu il inqilabının tanınmış simaları və şah dövründə həbs edilmiş 122 nəfərsə bəyanat yayaraq, Tehran rejimini inqilab dəyərlərinə xəyanətdə ittiham edib. Müsəlman İnqilabçılar Qrupunun üzvləri bunu 1979-cu il inqilabının 44-cü ildönümü ilə bağlı yaydıqları bəyanatda bildiriblər.

Onların yaydıqları bəyanatda qeyd edilir: "Bu rejim inqilabçıların bütün arzularını puç etdi və ondan bizə sadəcə şirin xəyallar qaldı. Hakimiyyət ölkəni sürətlə uçuruma doğru aparmaqdadır. Din adı altında şah dövründə olduğundan daha qəddar diktatorluq sistemi gücləndirilməkdədir".

Bəyanatı imzalayanlar arasında Fəzlullah Salavati, Əlirza Sadiqi, Lütfullah Meysəmi və başqa nüfuzlu şəxslərin adları var.

ABŞ hökuməti də İrandakı etiraz aksiyalarına dəstəyini daim elan edib. Bu günlərdə Dövlət Departamentinin sözçüsü Ned Prays İran müxalifəti nümayəndələrinin beynəlxalq görüşə dəvət olunması ilə bağlı mövqeyinu bildirib. "Heç kim, o cümlədən ABŞ hökuməti İran xalqının adından danışa bilməz. Bunu yalnız İran xalqı edə bilər və bizim işimiz onların səsini eşitmək, onlara dəstək olmaqdır. Hər gün etdiyimiz də budur. Biz İran xalqının istəklərini ən yaxşı şəkildə dəstəkləmək üçün geniş spektrli söhbətləri eşitmək istəyirik", – deyə Prays Münhen Təhlükəsizlik Konfransında iranlı müxaliflərin iştirakı ilə bağlı suala cavab olaraq bildirib.

Qeyd edək ki, fevralın 17-19-da Almaniyanın Münhen şəhərində keçiriləcək beynəlxalq konfransa Tehran rejiminə müxalif olan nümayəndələr də dəvət edilib.

"Xalq qəzeti"

Güney: milli kədərin və ümidin poetik təcəssümü

Azərbaycanın Rusiya ilə İran arasında bölüşdürülməsinə gətirib çıxarmış və tariximizin qanlı səhifələrinin hökmünü vermiş Gülüstan və Türkmənçay müqavilələrinin yaratdığı milli faciəni Arazın hər iki tayında son 2 əsrdə hakim dairələr unutdurmağa çalışmışdır. Lakin ikiyə bölünmüş xalqımız bu tarixi zülmü və haqsızlığı heç vaxt unutmadı. Yurdumuzun varlığı, Azərbaycanın birliyi təkcə mübarizələrdə yox, ədəbiyyatda, musiqidə, mətbuatda da yaşadıldı.

Ötən əsrin 20-ci illərində Quzeydə bolşeviklərin və Güneydə Rza şahın hakimiyyətə gəlişindən sonra Arazın iki sahilində yerləşən xalqın əlaqəsi tam kəsildi. Elə buna görə Cənub ədəbiyyatı Şimalda gedən proseslərdən qidalanmadan, İranda isə təzyiqlərə məruz qalaraq ədəbi adaya çevrilirdi. Şimali Azərbaycanla əlaqələrin kəsilməsi, Rza şahın təzyiqləri və ana dilinin yasaq olunması ədəbiyyatın satiraya sığınmasına yol açdı.

İranda pəhləvilərin hakimiyyəti illərində qeyri-fars dilli xalqlara, xüsusilə ölkədə əhalinin çox hissəsini təşkil edən azərbaycanlıların dil və mədəniyyətinə qarşı assimilyasiya siyasəti yeridilirdi. İranda yaşayan azərbaycanlılar uzun müddət ən adi insan hüquqlarından, ana dilində təhsil almaq və kitab nəşr etmək, rəsmi yerlərdə ana dilində danışmaqdan məhrum edildilər.

Belə ağır durumda yalnız Güney Azərbaycanda nəşr olunan "Xavər-i no", "Cövdət", və "Sitare-i Azərbaycan" kimi nəşrlər fürsət tapdıqca ana dilində şeir və məqalələr çap etmişdir. Bu dövrün ədəbiyyatı bir sıra ümdə xüsusiyyətləri ilə səciyyələnir. Sabir və Möcüzdən sonra davam edən satira ədəbiyyatı bəhs etdiyimiz sonrakı dönəmlərdə də güclü olub. Düşüncələrin açıqca söylənmədiyi və yazılmadığı basqı və repressiyaya məruz qalan bir toplumda fikirlərin ifadə edilməsi üçün ancaq satira yolu qalırdı. Şəhriyar poeziyasının əsasında məsələni tədqiq edən akademik Bəkir Nəbiyev M.Ə.Sabir, S.Ə.Şirvani və M.Şəhriyar poeziyasından gətirdiyi nümunələrin müqayisəsini ümumiləşdirərək yazırdı: "Kim deyə bilər ki, M.Şəhriyar M.P.Vaqifin və S.Ə.Şirvaninin lirikasından, yaxud Sabirin satirasından təsirlənməmiş, yeri gələndə onlardan əsil böyük sənətkarlara məxsus təzə bir yaradıcılıq yolu ilə bəhrələnməmişdir?"

1960-cı illərdən etibarən Güney Azərbaycanda şimala başlayan yaxınlaşma ədəbiyyatda da özünü göstərirdi. Xüsusilə, Səhənd, Həmid Nitqi, Barış, Sahir, Savalan, Sönməz, Türkoğlu, Haşım Tərlan kimi şairlər şimaldakı qardaşlarına səs verərək qarşılıqlı əlaqə yaradılmasına səy göstərirdilər. Bu ənənəni davam etdirənlər arasında Ələkbər Haddad, İbrahim Zakir, Mirzə Hüseyn Kərimi, Müzəffər Dirəfşi, Əli Ətayi, Məcid Sabbağ İraninin yazdığı satirik şeirlər xüsusilə diqqət cəlb edirdi.

Hüseyn Kəriminin "Rəngarəng", Məcid Sabbağ İraninin "Çiğan Viğan" kitabları və Əli Ətayinin qəzet və jurnallarda nəşr olunan şeirləri cəmiyyətdəki sosial-iqtisadi vəziyyəti, rejimin xalqa basqı və təzyiqlərini kəskin satira atəşinə tuturdu. Daha çox "Molla Nəsrəddin"çilərin və M.Ə.Sabirin əlindən su içən Mirzə Əli Möcüz demokratik və inqilabçı bir şair kimi özünü tanıtdırırdı. Satiralarında cəhalətə, xurafata qarşı mücadilə aparır, maarifin modernləşməsini və qadın haqlarını müdafiə edirdi.

Mirzə Hüseyn Kəriminin şeirlərini bəzən Sabirin şeirlərindən ayırmaq olmur. Kərimi cəmiyyətdə gedən hadisələrə etinasız qalmayıb, siyasi durum və ictimai vəziyyət hər zaman onu düşündürürdü. İçində yaşadığı elin-obanın gileylərini, dərd-sərlərini qələmə alıb, şah rejiminin yarıtmaz üsul-idarəsini, məmurların sadə xalqa yuxarıdan aşağı baxmasını hədəfə alırdı. Təsadüfi deyil ki, H.Kəriminin şeirləri şah dönəmində 12 il yasaq olunmuşdu.

1989-cu ildə Zöhrə Vəfayinin redaktorluğu ilə "Çuvalduz" adlı bir satirik dərgi çap olunub.Toplunun 1993-cü ilədək 22 sayı çıxıb. Yaradıcı heyətə Zöhrə Vəfayi, Hüseyn Feyzullahi Vahid, Kazım Xoşxəbər, Əli Atiyə, Əli Abbasdost, Teymurt Zamanniya, Nasir Payekzar, Məsud Həsənzadə, Haniye Əşrəfpur, Nadir Efraz, Ali Riza Serbazveten, Rahim Bakkal kimi satirik üslubda yazan qələm sahibləri daxil idi. Dərgidə Nəsir, Toratan, Yolsuz, Qumru təxəllüsləri ilə çıxış edən Nasir Payekzarın həm fars, həm də türkcə yazdığı satirik əsərlər dərc edilirdi

Dərginin başqa bir əməkdaşı Əli Ətayi Nəccaroğlu təxəllüsü ilə satirik şeirlər yazırdı. Hadı Siyəhrudinin satiralarının hədəfi də, intonasiyası və etirazlarındakı küskünlük bir anlıq "ağlayan gülən" şairi xatırladır.

Keçən əsrin 70-ci illərində Həbib Sahir, Yəhya Şeyda, Hamid Nitqi, Səhənd, Şəhriyar, Haşım Tərlan kimi ustad şairlərin simasında yeni dinamizm qazanan Cənubi Azərbaycan şeiri, poetik fikrin hüdudlarını genişləndirdi. Bu dövrün poeziyasında əsas mövzu Cənubi Azərbaycandakı arzu və həsrətdən doğan kədərdir. Şairlər bu kədəri bütün insanlara bəyan etməyə çalışırdı.

Xalq yazıçısı, akademik Mirzə İbrahimov inqilabdan sonrakı ilk illərdə anadilli mətbuat orqanlarının fəaliyyətini yüksək qiymətləndirərək onlara qayğı ilə yanaşmağın vacibliyini vurğulayırdı: "Gəlin azadlığı təbliğ edən, demokratik fikirləri yayan, doğma xalqın vətənpərvərlik duyğularını, ana dilinə və öz mədəniyyətinə məhəb-bətini, müstəbid şahlara, xalqı əzib qaranlıqda və ehtiyac içində saxlayanlara nifrətini, qəzəbini ifadə edən jurnal və qəzetlərdəki yazıları sevək, alqışlayaq, həmişə gözümüzün qabağında saxlayaq".

Şairlər 1979-cu il aprel inqilabına qədər və ondan sonrakı dövrdə yaratdıqları ümid və kədər poeziyasını mətbuat səhifələrində dərc etdirməklə xalqda özünə qayıdış, özünüdərk ruhu aşılamağa, milli birlik yaratmağa çalışırdılar. Ümid və kədər poeziyasının əsas yaradıcıları Şəhriyar, Səhənd, Həbib Sahir, Sönməz, Savalan, Həmid Nitqi, Haşım Tərlan Alov, Valeh, Müzəffər Dirəfşi, Qaflantı, Saplaq, Şəhrək, Türkoğlu, Aydın, Daşqın və başqaları idilər. Ədəbiyyatın aparıcı qolu olan poeziya mətbuat vasitəsilə geniş xalq kütlələri arasında tez yayılır, xalqın milli azadlıq arzusuna tükənməyən ümid və inam yaradırdı.

Azərbaycan yazarları öz ana dili və ədəbiyyatı ilə bərabər fars dili və ədəbiyyatını da təbliğ etmiş, bir çox əsrlər boyu fars dilində dəyərli ədəbi əsərlər yaratmışlar. Nəticədə fars ədəbiyyatında "Azərbaycan səbgi" kimi bir ədəbi üslub da təşəkkül tapmışdır. Bu da məlumdur ki, İranda Azərbaycan şairləri uzun müddət başlıca olaraq farsca yazmaq məcburiyyətində qalmışlar. Bu dildə yazıb sənət zirvəsi fəth edən şairlər çox olmuşdur. Bununla belə öz doğma dilini unutmayanlar və ya uzun müddət yad dildə yaratdıqdan sonra yenidən öz kimliyinə qayıdıb milli-mədəni irsini zənginləşdirən şairlər də az deyildi. Azərbaycan xalqının ölməz şairi Məhəmməd Hüseyn Şəhriyar onlardan biri və ən möhtəşəmi idi. Böyük şair M.Şəhriyar doğma Azərbaycan türkcəsində "Heydər babaya salam" kimi çox qiymətli və əsrarəngiz bir əsər yaratdı.

Şəhriyarın "Heydər babaya salam"ı və doğma dildə yazdığı çoxsaylı şeirlər Güneydə anadilli ədəbiyyatın, milli düşüncənin dirçəlişinə səbəb olub. "Heydər babaya salam" əsərinə şairin öz təbirincə desək: həcmcə iki "Şahnamə"dən çox nəzirə və cavab yazıldı". Şəhriyar bu poeması, ümumiyyətlə, doğma dildə yazdığı əsərlərlə tək

Azərbaycanda deyil, bir çox Şərq ölkələrində bu ruhda, bu səpgidə yeni-yeni əsərlərin yazılmasına səbəb oldu və Azərbaycanda yeni məktəb yaratdı.

Şəhriyarın "Heydər babaya salam" poeması ilkinliyə, milli bədii yaddaşa qayıdışın parlaq nümunəsi kimi Şimali Azərbaycanda da milli ruhun inkişafına böyük təkan oldu. Ömrün müdriklik çağında ötən günlərə və doğma məkana qayıdış motivləri poeziyada geniş yayılmışdır. Poemanın mənəvi daşıyıcıları sözün ruhu ilə elə yoğurulmuşdu ki, hər bir azərbaycanlı burada özünü tapırdı.Quzeydə isə güney mövzusunda yazılan yüzlərcə şeir və poema bir daha təsdiq etdi ki, milli poetik yaddaşı coğrafi sərhədlər aradan götürmür, əksinə, poetik düşüncə eyniliyi bütün sınırları vurub keçir.

"Heydər babaya salam" cənubda onlarca universitetin görə bilmədiyi işi gördü, türk dilində yazmağa güclü təkan verdi. Beləliklə, "Heydər babaya salam" əsəri Azərbaycan türkcəsinin assimilyasiyaya müqavimətini güclü surətdə nümayiş etdirdi və Şəhriyar türk dilinin millilik və xəlqilik tutumunu "Heydər baba" zirvəsinə qaldırdı. Bu şahanə əsər İranda türkdilli ədəbiyyatın daha da inkişafına təkan verdi. Şəhriyarın ana dilində yazdığı əsərlər həm də milli dildə mətbuatın yaranmasına, mətbuatın səhifələrində anadilli poeziya nümunələrinin geniş yayılmasına səbəb oldu.

M.Şəhriyar, H.Sahir, Səhənd, Savalan, H.Düzgün, Qaflantı, M.Məhzun, H.Nitqi kimi təcrübəli sənətkarlar inqilabdan sonra da ədəbiyyata yeni gələn ədəbi nəslin yaradıcılıq istiqamətini müəyyən etməkdə həlledici rol oynadılar. Bir-birinin ardınca nəşr olunan qəzet və jurnallarda əsas yeri poeziya tuturdu. Çünki poetik formaların cari, aktual mövzulara dərhal ədəbi müdaxilə etməkdə başqa janrlara nisbətən daha böyük imkanları var idi.

Pərvanə MƏMMƏDLİ,
AMEA Ədəbiyyat İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru

Ekoaksiyanın gündəliyi

Talançılar əl-qol aça bilmirlər

Laçın–Xankəndi avtomobil yolunun ekoloji aksiyanın keçirildiyi ərazisindən hərəkətin sərbəstliyi mütəmadi olaraq təmin edilir. Yolun hər iki istiqamətində Rusiya sülhməramlılarına və Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) məxsus avtomobillər maneəsiz hərəkət edir. Heç də siyasi xarakter daşımayan aksiya humanitar məqsədlərə xidmət edir. Ermənistan mətbuatında yayılan və etirazçıların, guya, Laçın–Xankəndi yolunu bağladıqları və təminat avtomobillərini buraxmadıqları ilə bağlı xəbərlər qarşı tərəfin növbəti dezinformasiyasıdır.

Beynəlxalq Qırmızı Xaç Komitəsi də yolun açıq olduğunu bildirir. Komitənin Ermənistandakı proqram direktoru Zara Amatuni erməni mediasına deyib ki, ümumilikdə, azərbaycanlı ekofəalların aksiyası başlanandan bəri Ermənistandan daha çoxdur.

Aksiyanın səs-sədası dünyanın dörd bir tərəfindən eşidilməkdə davam edir. Tacikistanın "Fərəc" həftəlik nəşrində "Ekofəallar Laçın-Xankəndi yolunda aksiyanı davam etdirirlər" sərlövhəli məqalə

BQXK vasitəsilə 97 erməni gətirilib, 81-i aparılıb. Lakin BQXK fevralın 14-də Azərbaycanın Qarabağ iqtisadi zonasının rus sülhməramlıların müvəqqəti nəzarətində olan Xankəndi şəhərinə 20 ermənin gətirilməsi, 23 ermənini isə aparılması barədə məlumat vermişdi. Bunu nəzərə alaraq deyə bilərik ki, Zara Amatuni tam real statistikanı açıqlamayıb, gəlib-gedənlərin sayı Azərbaycanın gənc könüllü və ekoloqlarının ölkəmizin ərazilərindəki faydalı qazıntı yataqlarında qeyri-qanuni istismarı dayandırmaq, eləcə də "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsi tələbləri qeyd olunur.

Məqalədə deyilir ki, fəallar əllərində plakatlar tutaraq, rus və ingilis dillərində "Ehtiyatlarımızın talanmasına son!", "Təbiəti qoruyaq, istismarı pisləyək!", "Azərbaycan xalqı öz sərvətini qoruyacaq!", "Azərbaycan oyaqdır, öz ehtiyatlarının keşiyindədir!", "Ekosidə son!" kimi şüarlar səsləndirirlər. Vurğulanır ki, etirazçıların sözlərinə görə, onların tələbləri Azərbaycan ictimaiyyətinin haqlı narazılığını əks etdirir, vətəndaş cəmiyyətinin mövqeyinə isə hörmətlə yanaşılmalıdır.

Materialda aksiyanın keçirildiyi ərazinin humanitar məqsədlər üçün açıq olduğu və nəqliyyatın sərbəst hərəkətinə heç bir maneənin törədilməməsi barədə ətraflı danışılır: "Hər gün rusiyalı sülhməramlıların və beynəlxalq təşkilatların 60-a yaxın avtomobili Xankəndi–Laçın yolu ilə sərbəst olaraq keçir. Bu, bir daha onu göstərir ki, aksiya iştirakçıları humanitar təyinatlı avtomobillərin hərəkətinə mane olmurlar".

Ekofəalların keçirdiyi aksiya şübhəsiz ki, fayda verməkdədir. Belə ki, Laçın–Xankəndi yolu ilə Qarabağa silah-sursat, minalar və bu kimi hərbi təyinatlı məhsullar daşınmır. Mədənlərin istismarı dayandırılıb, sərvətlərimiz talanmır. Aksiya onu diktə etdi ki, hər hansı xarici şirkət Qarabağda iş görmək istəyirsə, ilk növbədə, Azərbaycan hökumətinin razılığı ilə olmalıdır. Aksiya ermənilərə başa saldı ki, onlara humanitar məqsəd üçün verilmiş Laçın yolundan hərbi məqsədlə istifadə edə bilməzlər. Etirazlar revanşistlərin, emissarların, "muzdlu mitinqçi"lərin Qarabağa gəlişinin qarşısını aldı. Gənclərin Şuşadakı mitinqi Xankəndidə və ətraf ərazilərdə yaşayan ermənilərə Ermənistana getmək üçün Azərbaycanın bayrağı altından keçməli olduqlarını anlatdı. Qarabağın erməni sakinləri gördülər ki, haqq da, ədalət də, güc də Azərbaycan tərəfindədir. Arutyunyan, vardanyanlar kimi "perspektiv" vəd edənlərin özlərindən belə xəbəri yoxdur, danışdıqları boş vədlərdir.

Rizvan FİKRƏTOĞLU,
"Xalq qəzeti"

Baş prokuror Kamran Əliyev iranlı həmkarı ilə telefonla danışıb

Fevralın 13-də qarşı tərəfin təşəbbüsü ilə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev ilə İran İslam Respublikasının Baş prokuroru Məhəmməd Cəfər Montazeri arasında telefon danışığı olub.

Baş prokuror Montazeri yanvarın 27-də ölkəmizin Tehrandakı səfirliyinin binasında törədilmiş cinayət hadisəsinə görə təəssüf hissi keçirdiyini bildirərək, Azərbaycan xalqına, zərərçəkmişlərin ailə üzvlərinə başsağlığını ifadə edib. İranın Baş prokuroru azərbaycanlı həmkarını cinayət işinin istintaqının gedişatı haqqında ətraflı məlumatlandırıb.

Kamran Əliyev Azərbaycan Respublikasının İrandakı səfirliyinə qarşı törədilmiş terror aktını pisləyərək Azərbaycanın aidiyyəti istintaq qurumunda cinayət işinin istintaqının davam etdiyini həmkarının diqqətinə çatdırıb. Baş prokuror İran tərəfindən cinayət işinin tam və hərtərəfli araşdırılmasının, bütün iştirakçıların müəyyən edilərək məsuliyyətə cəlb olunmasının, bu terror aktının törədilməsinə səbəb və şəraitin araşdırılmasının zəruriliyini vurğulayıb.

Sonda hər iki tərəf bu cinayət işinin nəzarətdə saxlanmasına və qarşılıqlı hüquqi yardım çərçivəsində əməkdaşlıq edilməsinə dair razılıq əldə ediblər.

Daşkənddə Azərbaycan və Özbəkistan Gənclərinin Forumu keçirilib

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi, Azərbaycanın "İslahatçı Gənclər" İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan Respublikası Gənclər Fondunun dəstəyi ilə Daşkənd şəhərində ilk dəfə olaraq "Azərbaycan–Özbəkistan Gənclərinin Dostluq və Əməkdaşlıq Forumu" keçirilib.

Tədbirdə Azərbaycandan gələn "İslahatçı Gənclər" İctimai Birliyi, Gənclər Fondu, media təşkilatlarının nümayəndələri, Özbəkistan Ali Məclisi Qanunvericilik Palatasında Gənclər Parlamenti, habelə Senatı yanında Gənclər Parlamentinin rəhbərləri və təhsil sahəsində ekspertlər iştirak edib.

Forumda Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Samir Abbasov tarixdə ilk dəfə baş tutan belə bir tədbirin Azərbaycan və Özbəkistan gəncləri arasında mədəni, ədəbi, təhsil əlaqələrinin möhkəmlənməsi, gənclər arasında yeni əlaqələrin qurulması baxımından böyük əhəmiyyətə malik olduğunu vurğulayaraq bu tarixi hadisə münasibətilə forum iştirakçılarını təbrik edib.

S.Abbasov Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş uğurlu gənclər siyasətinin bu gün də dövlətin əsas prioriteti olduğunu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gənclər siyasətini hər zaman diqqət mərkəzində saxladığını qeyd edib. O, forumun iki qardaş ölkə gəncləri arasında gələcəkdə sıx əlaqələr yaratmaq baxımından çox böyük perspektivlər açdığını qeyd edərək, rəhbərlik etdiyi təşkilatın gənclərlə iş, həyata keçirdiyi layihələr barədə məlumat verib.

Azərbaycanın "İslahatçı Gənclər" İctimai Birliyinin sədri Fərid Şahbazlı Azərbaycanla Özbəkistan arasında sıx əlaqələrin qurulması, gənclər arasında əməkdaşlıq, qloballaşan dünyada çox böyük əhəmiyyətə malik gənclər siyasəti haqqında danışıb, Azərbaycan üçün Özbəkistanın təkcə regionda deyil, bütün dünyada vacib bir tərəfdaş ölkə olduğunu qeyd edib.

Fərid Şahbazlı "İslahatçı Gənclər" İctimai Birliyinin Azərbaycanda gənclərin cəmiyyətimizin ictimai həyatında aktiv iştirakını təmin edən fəaliyyəti və bu istiqamətdə həyata keçirdikləri layihələr barədə də danışıb.

Özbəkistan Ali Məclisi Qanunvericilik Palatasında Gənclər Parlamentinin sədri Şahnoza Yoldaşova Azərbaycan tərəfinin təşəbbüsü və təşkilatçılığı ilə iki ölkə tarixində ilk dəfə olaraq keçirilən belə bir forumun gələcəkdə hər iki ölkənin gənclərinin birgə fəaliyyəti üçün böyük imkanlar yaradacağını qeyd edib.

Azərbaycan Respublikası Gənclər Fondunun nümayəndəsi İbrahim Mehdiyev forumun iki ölkə gəncləri arasında dostluq-əməkdaşlıq əlaqələrinin qurulması və möhkəmlənməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini söyləyərək belə tədbirlərin davamlı olaraq keçirilməsinin vacibliyini vurğulayıb və növbəti belə bir forumun yaxın gələcəkdə Azərbaycanda keçirilməsini təklif edib.

Özbəkistan Respublikası Senatı yanında Gənclər Məclisinin sədri Bexzod Toxtamurodov çıxış edərək Azərbaycanla Özbəkistan gəncləri arasında yeni əlaqələrin qurulması, müasir dövrdə çağırışlar, qloballaşma dövründə gənclərin Vətənə bağlılığı, habelə müasir texnologiyalardan yararlanması, hər iki ölkənin uğurlu gənclər siyasəti modelinin gələcəkdə qarşılıqlı olaraq tətbiqi məsələləri vurğulayıb.

Özbəkistanda fəaliyyət göstərən Azərbaycan təhsil şirkəti "Study First Academy Uzbekistan"ın rəhbəri Mikayıl Mirzəzadə iki ölkə arasında bütün sahələrdə yaranmış sıx əlaqələrin təhsil sektoruna da böyük təsir göstərəcəyini vurğulayıb.

Azərbaycan Respublikası Mətbuat Şurasının üzvü Hacıbəy Heydərli bütün sahələrdə olduğu kimi mətbuat sahəsində də hər iki ölkə gənclərinin birgə, ortaq fəaliyyətinin, qarşılıqlı təcrübə mübadiləsinin hər iki ölkədə medianın daha da inkişafına müsbət təsir edəcəyini, gənclərin, gənc media mənsublarının iştirakı ilə beynəlxalq tədbirlərin, qarşılıqlı səfərlərin keçirilməsinin əhəmiyyətindən danışıb.

Forum iştirakçılarına Azərbaycan–Özbəkistan gəncləri arasında dostluq, əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsindəki xidmətlərinə görə Azərbaycan tərəfinin fəxri diplomları və hədiyyələri təqdim olunub.

Qeyd edək ki, forum iştirakçıları tədbir çərçivəsində Azərbaycan Mədəniyyət Mərkəzinin foyesində təşkil edilmiş "Gələcəyimiz və zəfərə aparan gəncliyimiz" adlı foto və kitab sərgisi ilə tanış olublar.

Qulu KƏNGƏRLİ,
Daşkənd

"İrəvan Moskvaya xəyanət yolu tutur"

Dmitri Suslovun xəbərdarlığı

Ermənistanda İrəvan–Moskva münasibətlərinin gərginləşməsi fonunda Rusiyanın Türkiyə və Azərbaycanın tərəfini saxladığına dair fikirlər güclənməkdədir. Əlbəttə, bu, qərbyönümlü Nikol Paşinyan administrasiyasının apardığı anti-Rusiya siyasətinin nəticəsidir. Mövcud xüsusda Ermənistan–Rusiya münasibətlərindəki böhranın nə qədər dərinləşdiyi və nəyə gətirib çıxara biləcəyi müzakirə edilir. Laçın–Xankəndi yolu ilə bağlı durum da müzakirələrə, belə demək mümkünsə, əlavə siyasi rəng qatır. Ermənistanın Verelq İnformasiya Mərkəzinə müsahibə verən Rusiyanın Xarici və Müdafiə Siyasəti Şurasının tədqiqat proqramları üzrə direktor müavini, 2014–2018-ci illərdə nüfuzlu "Valday" Diskussiya Klubunun proqram direktoru işləmiş, siyasi ekspert, Rusiyanın Dövlət televiziyasında yayımlanan "Böyük oyun" verilişinin aparıcısı Dmitri Suslovun fikirləri bütün bunlara aydınlıq gətirilməsi baxımından maraq doğurmaqdadır. Əlbəttə, müsahibədə aydın görünən bir başlıca məqam var: Kremlin beyin mərkəzləri, nəyin bahasına olursa-olsun, İrəvanı Moskvanın orbitinə qaytarmaq düşüncəsindədirlər. Bunun üçün siyasi leksikona əsaslanmış təhdid elementləri də gündəmdədir.

ABŞ Türkiyəyə Rusiyaya görə təzyiq edir

Beləliklə, Suslov bildirir ki, Rusiya Laçın yolu ətrafında yaranmış problemin həlli istiqamətində addımlar atır: "Ötən ilin sonunda müəyyən irəliləyişlər müşahidə edildi. Məsələn, Qarabağa qazın verilməsi bərpa olundu. Beynəlxalq Qırmızı Xaç Komitəsinin maşınları hərəkət etməyə başladı. İkincisi, Rusiyanın Azərbaycan və Türkiyə ilə yaxınlaşmaq üçün konkret istəklərini və səylərini görmürəm. Rusiya üçün bu ölkələr ilə qarşıdurma deyil, tərəfdaşlıq münasibətlərini saxlamaq vacibdir. Türkiyə ilə münasibətlər isə Qərbin Rusiyaya qarşı apardığı iqtisadi müharibə şəraitində vacibdir. Türkiyə, doğrudan da, Rusiyanın xarici dünya ilə iqtisadi əlaqələrinin mühüm kanalıdır. Bunu inkar etmək mümkün deyil və yeri gəlmişkən, ABŞ Türkiyəyə bu istiqamətdə ciddi təzyiqlər göstərir. Amma Ankara ilə qarşıdurmasız münasibət saxlamağın vacibliyi o demək deyil ki, Rusiya Ermənistandan üz döndərir. Mənə elə gəlir ki, ölkə balanslaşdırılmış siyasət aparır, Ermənistan ilə müttəfiqliyi yüksək qiymətləndirir və bu müttəfiqlik münasibətlərini saxlamaq və möhkəmləndirmək istəyir".

D.Suslov, eyni zamanda bildirir ki, Ermənistan–Azərbaycan münaqişəsində vasitəçi rolunu oynamağa davam edən Rusiya Azərbaycan və Türkiyə ilə 2020-ci ilin 10 noyabr müqaviləsinin tam şəkildə yerinə yetirilməsi üçün qeyri-konfrantasiyalı münasibətlərə əsaslanan diplomatik səylər göstərir. "Razılaşın ki, əgər Rusiyanın Azərbaycan və Türkiyə ilə münasibətləri qarşıdurma xarakterli olarsa, o zaman rus diplomatiyası Laçın yolunun qapadılmasının qarşısını almağa kömək də edə bilməyəcək. Amma Rusiya qarşıdurmasız münasibətləri saxlamaqla yanaşı, vasitəçi rolunu oynayır", – deyə siyasi ekspert vurğulayıb.

İrəvan Qərbin anti-Rusiya alətinə çevrilir

Bilavasitə, Ermənistan–Rusiya münasibətlərindəki gərginlikdən, Rusiyanın İrəvandakı hərbi bazasının ölkədən çıxarılması perspektivindən söz açan D.Suslov tərəflər arasında böhranın yaşandığını etiraf edir. Onun sözlərinə görə, Moskvanın nöqteyi-nəzərindən mövcud gərgin vəziyyət Ermənistanın hazırkı rəhbərliyinin qeyri-müəyyənliyi, özünün Qərbin anti-Rusiya siyasətinin aləti kimi istifadəsinə imkan verməsi ilə bağlıdır. Siyasi ekspert bildirir ki, Qərb dövlətləri Rusiyanı Cənubi Qafqaz regionunda zəiflətmək istəyirlər. Bunu Ermənistanın maraqları hesabına gerçəkləşdirmək yolu tuturlar. Böhranın ciddi elementi və əlaməti isə Avropa İttifaqının timsalında Qərb mövcudiyyətinin Rusiyanın hərbi varlığına əlavə yox, alternativ kimi irəli sürülməsidir.

Suslov onu da vurğulayır ki, ikitərəfli münasibətlərdəki hazırkı böhranın ciddi göstəricisi Ermənistan rəhbərliyinin Gümrüdəki Rusiya hərbi bazasını ölkənin təhlükəsizliyinin qarantı hesab etməməsi, hətta, özünə təhdid məntiqini irəli sürməsidir. Politoloq bu xüsusda Qarabağda Rusiya sülhməramlılarının digər sülhməramlılar ilə əvəzlənməsinə dair Ermənistan cəmiyyətindəki diskussiyalara toxunur.

"Əgər Ermənistan bu yolla getsə, onda işlər onun üçün 2020-ci ildə baş verənlərdən qat-qat dəhşətli milli fəlakətlə başa çatacaq", – deyən Suslovun fikrincə, hadisələr Ermənistan ərazisinin itirilməsi perspektivini də doğura bilər və bu ssenari həyata keçsə, Qərb Ermənistana heç bir şəkildə kömək etməyəcək. Çünki məqsədi Ermənistanı müdafiə etmək deyil, postsovet məkanında Rusiya ilə mübarizə aparmaqdır.

Rusiya–Ermənistan münasibətlərindəki hazırkı böhranın aradan qaldırılmasının mümkünlüyünə gəlincə, politoloq bildirir ki, bu, erməni xalqının müdrikliyindən, strateji maraqları və hansısa taktiki emosional elementin harada olduğunu anlamaq bacarığından asılıdır. "Amma Ermənistanın hazırkı rəhbərliyi indiki yolla gedirsə və Qərbin xeyrinə strateji seçim həyata keçirsə, Qərbin Rusiyaya qarşı hibrid müharibəsi kontekstində, Rusiyadan üz döndərsə, bu, Moskva tərəfindən xəyanət kimi qəbul edilməyəcək. Bu, o demək deyil ki, Rusiya özü Ermənistanı xəyanətə görə cəzalandıracaq, amma inanın ki, həyat cəzalandıracaq və ağır cəza verəcək", – deyə Suslov vurğulayıb.

D.Suslov Ermənistan cəmiyyətində yayılmış və Rusiyanın bölgədə marağı olmadığına dair fikirlərə də münasibət bildirib. O, belə düşüncələri qətiyyən bölüşmədiyini deyib. "Bəli, təbii, indi Rusiya Qərblə ekzistensial mübarizə aparır və bu mübarizə Kremlin mövcud alətlər dairəsini məhdudlaşdırır", – deyən siyasi ekspertin sözlərinə görə, Qərbin Rusiyaya qarşı tətbiq etməyə çalışdığı faktiki iqtisadi blokada şəraitində Moskvanın Ankara ilə açıq qarşıdurmaya girməsi sərfəli deyil. Onun sözlərinə görə, Rusiya Ukraynada xarici dünya ilə Rusiyanın milli və təhlükəsizlik maraqlarına hörmətlə yanaşılması, onlara məhəl qoyulması, həmin maraqların tanınması və qəbul edilməsi uğrunda mübarizə aparır. Onun böyük dövlət kimi saxlanılması isə öz növbəsində postsovet məkanındakı mövcudluğun davamını da nəzərdə tutacaqdır.

Rusiya Ukraynada qələbə qazansa...

Suslovun sözlərindən gəlinən qənaət budur ki, əgər Rusiya Ukraynа müstəvisində uğur qazansa, digər müstəvilərdəki məsələlər asanlıqla həllini tapacaq. Cənubi Qafqaz ilə əlaqədar durum da, həmçinin. Onun bu fikirləri daha çox Ermənistana xəbərdarlıq kimi diqqət çəkməkdədir. Çünki Suslov Ukrayna münaqişəsinin davam etdiyi şəraitdə Moskvanın həm Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı, həm də Avrasiya İqtisadi Təşkilatı müstəvisində fəallığını qoruduğunu, "həyat qabiliyyətinin saxlanılması üçün əhəmiyyətli səylər göstərdiyini" diqqətə çatdırır. Ən əsası isə bəyan edir ki, Rusiya bütün çətinliklərə rəğmən, postsovet məkanından bir dənə də olsun bazasını çıxarmayıb, fəal rolunu davam etdirir. Deməli, indi anti-Rusiya siyasətinə üstünlük verən İrəvan Moskvaya xəyanət yolu tutur. Amma Suslov məsələyə bir qədər yumşaq formada yanaşır: "Bunu Ermənistanda Rusiyanın ölkəyə diqqətinin azalması kimi qəbul edirlər. Əslində, Rusiya məsələləri diplomatiyanın köməyi ilə həll etməyə cəhd göstərir. Diplomatiya isə münaqişənin qarşı tərəfi, yəni Azərbaycan və Türkiyə ilə qarşıdurmasız münasibətlər tələb edir", – deyən rusiyalı siyasi ekspert fikrini tamamlayıb.

Ə.RÜSTƏMOV,
"Xalq qəzeti"

COVID-19: 16 yoluxma, 21 nəfər sağalıb

Son sutkada Azərbaycanda yeni növ koronavirus infeksiyasına 16 yoluxma faktı qeydə alınıb, 21 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 828 min 251 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 818 min 7 nəfər müalicə olunaraq sağalıb, 10 min 99 nəfər vəfat edib. Aktiv xəstə sayı 145 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1871, bu günə qədər isə ümumilikdə 7 milyon 507 min 868 test icra olunub.

* * *

Fevralın 14-də Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə 287 doza vaksin vurulub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan bildirilib ki, gün ərzində birinci doza üzrə vurulan vaksinlərin sayı 95, ikinci doza vaksinlərin sayı 92, üç və daha çox doza vaksinlərin sayı 89, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 11-dir.

Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 945 min 750, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 403 min 219, ikinci mərhələ üzrə 4 milyon 878 min 64, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 399 min 41, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 265 min 426-dır.

"Xalq qəzeti"

Küçə adları: “ad” var, açması da olsun!

Sevindiricidir ki, keçmiş sovet dövründən fərqli olaraq, bu gün küçələrimizə azərbaycanlı alimlərin, şairlərin, həm də şəhidlərin adları verilir. Bəs, adı verilən şəxs barədə qısa da olsa, məlumatlandırma olsa, daha yaxşı deyilmi? Vətəndaşlarımız adı küçələrimizə verilən şəxsiyyətlərimizi, qəhrəmanlarımızı tanıyırlarmı?

Deməli, şəhid qəhrəmanlarımızın adına küçələr verilir. Lakin lövhələrdə addan savayı heç nə yoxdur. Məsələn, Polad Həşimov küçəsi. Tutaq ki, Polad Həşimovu indi uşaqdan böyüyə qədər hər kəs tanıyır. Bəs 10 il, 20 il sonra hər kəs tanıyacaqmı ? Onun adından əvvəl general və yaxud şəhid general, Milli Qəhrəman yazılsa, daha uyğun olmazmı? O cümlədən, Vətən Müharibəsi Qəhrəmanı şəhid Mehrab Niftəliyev.

Onun adına Quba şəhərində küçə var. Lakin eyni vəziyyətdir. Yalnız ad və soyad yazılıb. Bu gün Mehrab Niftəliyevi çoxumuz tanıyırıq. Çünki Vətən müharibəsindən cəmi 3 il keçib. Amma kim zəmanət verə bilər ki, 10 il sonra qəhrəmanımızı müəyyən kəsimdən başqa hər kəs tanıyacaq?

Axı bu insanlar millətin qəhrəmanlarıdır. Canlarını və qanlarını bizdən ötrü qurban veriblər. Millət də, cəmiyyət də bu azman igidləri tanımağa borcludur. Eyni vəziyyət digər şəhidlərimizə də aiddir. Hesab edirik ki, addan əvvəl şəhid sözünün, titulun yazılması mütləq vacib və əhəmiyyətlidir. Yeni nəsil bilməlidir ki, adına küçə verilən şəxs kimdir, nəçidir.

Amma məsələn, Milli Qəhrəman Koroğlu Rəhimov küçəsi şəhərimizin önəmli hissələrindən birində yerləşir. Küçənin kənarında demək olar ki, hər kəsin görə biləcəyi yerdə qəhrəmanın büstü qoyulub, haqqında məlumat verilib.

Birinci Qarabağ müharibəsinin şəhid qəhrəmanlarından olan Koroğlu Rəhimovu o küçədən yolu düşən hər kəs tanıyır. İki gün öncə İsmayıllıya səfərimiz əsnasında Cülyan

kəndində olduq. Kəndin əsas küçəsi Vətən müharibəsi şəhidi Teymur Osmanlının adını daşıyır. Lövhədə eynilə belə yazılıb: Şəhid Teymur Osmanlı küçəsi. Nümunəvi deyilmi? Olmazmı ki, bu ənənə bütün küçələrə şamil edilsin? Elə alimlərimizə də. Alimlərimiz demişkən, keçmiş İnqilab, indiki Həsən Əliyev küçəsində də görmək istədiyimiz mənzərənin şahidi olduq. Şəhərimizin prospekti xatırladan bu önəmli küçəsində görkəmli alimimiz haqqında qısa da olsa, məlumata rast gəldik. Lövhədə belə yazılıb: Akademik Həsən Əliyev küçəsi. Bəli, həm lakonik, həm də məzmunlu görünür. Ən azından, görkəmli coğrafiyaşünas alimimizin kimliyi, fəaliyyəti barədə küçədən hərəkət edənlərə məlumat aşılayır.

Bir haşiyə çıxaq. 3-cü mikrorayonda Hüseynbala Əliyev küçəsi var. Bəzi binaların üzərində H. Əliyev yazılıb. Yadımdadır ki, çox adam qarışdırırdı. Bir çox insanlar elə bilirdilər ki, bu ümummilli lider Heydər Əliyevin adına olan küçədir. Bilənlər də bilməyənlərə izah edirdi ki, yox, bu İkinci Dünya müharibəsi qəhrəmanı, təyyarəçi Hüseynbala Əliyevdir.

Bir sıra məsələlərdə örnəklər götürdüyümüz qardaş Türkiyədə bu sahə ilə bağlı problem yoxdur. Küçə adlarının qarşısında qəhrəmanın adı, soyadı ilə yanaşı, hansı mənsəb sahibi olması da aydın şəkildə yazılır. Hətta orada bu məsələ ideoloji təbliğat işinin bir hissəsi kimi qəbul

edilir. Fikrimizcə, bizdə də bu düzəliş vətənpərvərlik və digər ideoloji məsələlərdə faydalı olar.

Qeyd edək ki, ötən il Bakı Şəhər İcra Hakimiyyəti başçısının müvafiq sərəncamına əsasən paytaxtdakı küçə və prospektlərin inventarlaşdırılması, onlara adların verilməsi və dəyişdirilməsi ilə bağlı komissiya yaradılıb. Komissiyanın tərkibinə şəhər və paytaxt rayonları icra hakimiyyətlərinin məsul nümayəndələri ilə yanaşı, tarixçi və dilçi alimlər də daxil edilib. Bu komissiyanın fəaliyyəti əsasən ondan ibarətdir ki, Bakı şəhərində küçə və prospektlərin vahid məlumat bazası yaradılmalı, eyni adlı və adsız küçələr müəyyən edilməli, onların müvafiq standartlar və digər normativ hüquqi aktların tələblərinə uyğun qaydada adlandırılması, adlarının dəyişdirilməsi və bununla bağlı təkliflərin hazırlanması təmin edilməlidir.

Qaldırdığımız məsələ ilə bağlı Bakı Şəhər İcra Hakimiyyəti (BŞİH) ilə əlaqə saxladıq.

Mətbuat xidmətindən verilən məlumata görə, Azərbaycan Respublikasında nəqliyyat infrastrukturu (küçə, prospekt) obyektlərinə (NİO) adların, ünvanların verilməsi, onların adlarını göstərən lövhələrin quraşdırılması keçmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təyin olunmuş müvafiq standartlara uyğun qaydada aparılır.

Belə ki, həmin qaydaların 2.4-cü bəndində göstərilən müddəaya uyğun olaraq, NİO-nun adı ən çox 3 sözdən ibarət ola bilər. Bu qaydaları nəzərə alaraq, hər hansı şəxsin adı küçəyə veriləndə, onların lövhələri yerləşdirilərkən, bu qaydalar tətbiq edilir.

Əvvəlki dövrlərdə adı küçəyə verilmiş şəxsin adının qarşısında “Akademik”, “şəhid”, “professor” və s. kimi dəqiqləşdirilmə ifadələrindən istifadə edildiyi misal olaraq göstərilə bilər. Ancaq beynəlxalq təcrübə əsasında tərtib olunmuş bu standartlar təkmilləşərək, Azərbaycan mənşəli adların 2 və daha artıq sözlərdən ibarət olduğu nəzərə alınmış və dəyişikliklər aidiyyəti üzrə tətbiq edilmişdir.

Belə anladıq ki, BŞİH-də yaradılmış komissiyanın əlində cəmləşmiş səlahiyyətlər imkan verəcək ki, vətəndaşların ürəyindən keçən bu haqlı təkliflərimizi yaxın gələcəkdə tətbiq etsinlər.

Anar TURAN, “Xalq qəzeti”

Sevgi insanlara zorla qəbul etdirilə bilən bir duyğu deyil. İnsan onu qəlbində bir toxum kimi yetişdirir və daim böyüməsini istəyir. Sevgi yaşamaqdır, qarşındakı insanı ən gözəl hisslərlə yaşatmaqdır. Sevgi elə bir ali hissdir ki, sevdiyinin sevincini, ağrı-acısını öz qəlbində də hiss edə bilirsən, özünün yox, onun xoşbəxtliyini düşünürsən.

Sevənlərin sevgi günü

Bu hiss təkcə iki şəxsin bir-birinə bəslədiyi duyğular deyil. Dünyada ən xoşbəxt insanlar sevib-sevilməyi bacaranlardır.

Sevginin günü yoxdur deyirlər, amma bir özəl gün kimi, sevgililərin günü də əbədiləşdirilib.

Bütün dünyada “Valentine Day” və ya “Sevgililər Günü” kimi tanınan bu bayram əsl sevgini yaşayan insanlar tərəfindən sevinclə qarşılanır.

İnsan sevərkən sevdiyinə hər şeyin ən gözəlini bəxş etmək istəyir. Əslində insanları bahalı hədiyyələrlə deyil, sevgiylə verilmiş ən xırda bir şeylə də xoşbəxt etmək, üzünü güldürmək mümkündür.

Sevgililər günü şəhərdə gənc oğlan və qızlarla yanaşı, yaşlı cütlüklərin də az olmadığını gördüm. Onlar birlikdə skamyada əyləşib, həm bir-birilərini, həm də dənizi seyr edirdilər.

Yaşlı kişi öz xanımına sanki pıçıldayırdı:

“Dənizi verdim ki, sənə hədiyyə,
Gəldiyim sahilə gələsən bir də.
Məni görməyəndə o mənəm deyə,
Mənimlə danışıb, güləsən bir də”.

Onların simalarında xoşbəxtlik, sevinc dolu təbəssüm vardı.

Əsl sevgini yaşayanlar üçün günün xüsusi önəmi yoxdur, ən əsası sevdiyi insanı tez-tez görməkdir. Əsas odur ki, sevib-sevilməyi bacaraq!

Leyla İLKİNQIZI,
tələbə-jurnalist

Türk fotoqrafın Bosniya albomu

Universitetin tətil günlərindən yararlanmağa davam edirdim. Fotoqrafiyaya olan marağım məni yenidən YARAT Müasir İncəsənət Mərkəzinə apardı. Burada türkiyəli müstəqil fotoqraf Engin Güneysunun fotokitab təqdimatı olacaqdı.

Engin Güneysunu ilk dəfə sosial şəbəkə vasitəsilə tanımışdım. Onun haqqında təvazökar və fotoqrafiya aşiqi olan biri kimi yazılar oxumuşdum. Təqdimatda bizə yeni bitirdiyi fotokitab “Radio Sarajevo” haqqında danışacaqdı.

İlk olaraq Engin bəy təqdimat mərasimini açıq elan etdi. Fotoqraf qısa multimedia materialına keçməmişdən qabaq öz doğma ölkəsi – qardaş Türkiyədə baş vermiş zəlzələni dərin hüznlə xatırlatdı. Multimedia materialı “Duje Reabilitasiya Mərkəzi” barədə idi. Bura Yuqoslaviya dağıldıqdan sonra insanların müharibə ilə bağlı yaşadığı problemlərə görə qurulan müstəqil mərkəz idi. Engin bəy istifadə etdiyi materialları 2010–2013-cü illərdə Bosniyada çəkdiyini bildirdi.

Daha sonra isə kitabın təqdimatına keçildi. Onun hazırlanmasının 8 ilə başa gəldiyini öyrənəndə çox təəccübləndim, sonradan Engin bəyin digər işlərinin də illər aldığını öyrəndim. Kitab 5 fəsildən ibarətdir. Fəsillər keçmiş Yuqoslaviyadan tutmuş indiki Bosniyaya qədər olan dövrü əhatə edir. Onlar Sarayevo – 1984-cü il Qış Olimpiadası, Bosniya müharibəsi, Srebrenitsa qətliamı, Duje Reabilitasiya Mərkəzi və müasir Bosniyadır.

Mənə YARAT-da olduğum zaman ən çox təsir edən Engin Güneysunun öz kitabı barədə “Mən bu kitabı hazırlayanda həyatları heçə sayılmış, əlinə toxunanda məni uşağı zənn edən insanlarla vaxt keçirtdim” cümləsi oldu.

Ümumilikdə “Radio Sarajevo” eyniadlı radiodan

sitatlar, digər televiziya və fotoqraflardan arxiv materialları və şeirlərdən ibarətdir. Təqdimatın sonunda isə fotoqraf iştirakçıların layihə barədə suallarını cavablandırdı.

Artıq söhbət açdığım maraqlı təqdimat başa çatsa da, fotoqrafiyaya həvəsi olanlar “Radio Sarajevo” fotokitabını satışdan alıb oxuya bilərlər.

Dinarə ZEYNALOVA,
BDU-nun jurnalistika fakültəsinin tələbəsi

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

tabeliyindəki idarələrə tələb olunan mebel aksesuarlarının satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 20 fevral 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1176.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

mobil tətbiq və E-arxiv elektron platformalarının “SAP ERP” sistemi ilə inteqrasiyası xidmətlərinin satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 24 fevral 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu–(012) 404-37-00, daxili–1176.

Ünvan–Bakı, Mikayıl Useynov küçəsi 2.

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

“SAP Ariba” proqram təminatının tətbiqi üçün lisenziyalar və tətbiqlə bağlı zəruri işlərin (dəstək, müşayiət, təlimlər keçilməsi və s.) satın alınması məqsədilə

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 24 fevral 2023-cü il saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu – (012) 404-37-00, daxili – 1132.

Ünvan – Bakı, Mikayıl Useynov küçəsi 2.

“Azərbaycan Meliorasiya və Su Təsərrüfatı” ASC-nin Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti

“R-15 kanalının yenidən qurulması” üçün (I mərhələ) tikinti işlərinin satın alınması məqsədilə

AÇIQ TENDER ELAN EDİR

Satınalan təşkilatın adı – Tikilməkdə Olan Meliorasiya və İrriqasiya Obyektlərinin Birləşmiş Müdiriyyəti.

Əlaqələndirici şəxs – Qulam Şamil oğlu Aslanov (A.A.S).

Satınalan təşkilatın ünvanı – Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69 a.

Əlaqələndirici şəxsin E-maili: tomi-obm@mst.gov.az.

Əlaqə nömrəsi- (012) 431 08 64.

Satınalma predmetinin adı – “R-15 kanalının yenidən qurulması” üçün (I mərhələ) tikinti işlərinin görülməsi.

Ünvanı–Ağcabədi rayonu, işlərin qısa təsviri–Ağcabədi rayonunun 3783 ha, o cümlədən 1776 ha mövcud torpaq sahələrinin su təminatının yaxşılaşdırılması və 2007 ha yeni torpaq sahələrinə suvarma suyunun verilməsi üçün Yuxarı Qarabağ kanalından suyu götürməklə suburaxma qabiliyyəti 4,5 m³/san olan suqəbuledici qurğunun tikintisi, dibdən eni 1,5 m, tikinti hündürlüyü 1,8÷0,6 m, uzunluğu 7345 pm olan trapes şəkilli “R-15” kanalının monolit beton üzlükdə qurğularla birgə yenidən qurulması və həmin kanalın funksiyasının tamamlanmasına xidmət edən uzunluğu 958 pm olan “R- 15a” və uzunluğu 737 pm olan “R-15a-1” monolit beton üzlüklü kanalların qurğularla birgə yenidən qurulması.

İşlərin yerinə yetirilmə müddəti 9 aydır.

Tender təkliflərinin qiymətləndirməsi meyarları və tender təklifinin ödəniş şərti 10 baldır.

İddiaçı bağlanacaq satınalma müqaviləsinin yerinə yetirilməsi üçün avans ödənişi tələb etmədiyi halda bu meyar üzrə müəyyən olunmuş maksimal 10 bal alacaqdır.

İddiaçı tender təklifində 30 faizdən artıq avans ödənişi tələb edərsə, həmin iddiaçının tender təklifi kənarlaşdırılacaqdır. 30 faiz və daha az avans ödənişi tələb olunan tender təklifinin bu meyar üzrə alacağı bal aşağıdakı düstur əsasında hesablanacaq, (30–X)/30x10 X-tender təklifində iddiaçı tərəfindən tələb olunan avans ödənişinin müqavilə qiymətinə nisbətdə faizi.

Qiymət təklifi 90 baldır.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmaqla bərabər son on təqvim ili ərzində analoji işlər (ümumi uzunluğu 10,0 km, sərfi 4,5 m³/san və suvarma sahəsi 4,5 min hektardan) az olmamaq şərtilə ən azı bir beton üzlüklü magistral kanalın qurğularla birgə tikintisini yerinə yetirmiş olmalı və işlərin bitirilməsinə dair təsdiqedici sənədləri təqdim edilməlidir.

İştirak haqqı 2000 (iki min) manatdır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

1. Tender təklifi azı 45 bank günü qüvvədə olmalıdır (tender təkliflərinin açıldığı gündən ən azı 30 bank günü qüvvədə olmalıdır). Tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

2. Tender təklifi qiymətinin 1 faizi məbləğində tender təklifinin təminatı (bank zəmanəti, tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox qüvvədə olmalıdır (bank tərəfindən təqdim edilməlidir).

3. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış (vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

4. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (son maliyyə dövrünə olan məlumatı əks etdirməsi və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

5. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bank tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

6. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (kommersiya və hüquqi şəxslərin dövlət qeydiyyatı reyestrindən çıxarış iddiaçı tərəfindən təqdim edilməli, nizamnamənin, dövlət reyestrindən çıxarışın və şəhadətnamənin notarial qaydada təsdiq olunmuş surətinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir);

7. Rekvizitlər (iddiaçının və ya bankın imzası, möhürü ilə təsdiq edilməsi və PDF formatında yerləşdirilməsi zəruridir).

8. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi(Asan xidmət tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

9. Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması (vergi xidməti tərəfindən təqdim edilməli, son rübü əhatə etməli və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

10. Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması(vergi xidməti tərəfindən təqdim edilməli, qeydiyyat tarixi cari rüb ərzində olmalı və sənədin əslinin skan edilərək PDF formatında yerləşdirilməsi zəruridir).

11. Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlılığının olması (iddiaçı tərəfindən təqdim edilməli).

12. İddiaçının kiçik və orta sahibkarlıq subyektlərinin meyarlarına uyğun olması (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən təqdim edilməli).

13. İddiaçının müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması (Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilməli).

İddiaçılar tenderdə iştirak üçün 3 və 13-cü sıralarda göstərilən sənədləri 28 mart 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 7 (yeddi) bank günü qalmış) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçılar tender təklifi və bank təminatını isə 5 aprel 2023-cü il saat 17.00-a qədər (tender təkliflərinin açılışına 1 (bir) bank günü qalmış)) qapalı zərfdə əsli və surəti olmaqla Bakı şəhəri, Yasamal rayonu, Moskva prospekti 69a nömrəli ünvana təqdim etməlidirlər.

İddiaçıların təklifləri 6 aprel 2023-cü il saat 15.00-da açılacaqdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Qanuna uyğun keçiriləcəkdir.

Tender komissiyası

“Kapital Bank” ASC səhmdarlarının nəzərinə!

31 mart 2023-cü il saat 11.00-da Bakı şəhəri, Badamdar qəsəbəsi, Mikayıl Müşfiq küçəsi 2E nömrəli ünvanda yerləşən bankın ofisində (3-cü mərtəbə, iclas zalı) bankın səhmdarlarının növbəti ümumi yığıncağı keçiriləcəkdir.

Səhmdarların növbəti ümumi yığıncağının gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

I. “Kapital Bank” ASC-nin 2022-ci ilin yekunlarına aid maliyyə hesabatlarının təsdiq olunması məsələsi haqqında.

Məruzəçi – Pərvin Məmmədov.

II. “Kapital Bank” ASC tərəfindən 2022-ci maliyyə ilinin yekunlarına əsasən səhmdarlara dividend ödənilməsi məsələsi haqqında.

Məruzəçi – Pərvin Məmmədov.

III. “Kapital Bank” ASC-nin nizamnaməsinin yeni redaksiyada təsdiq edilməsi məsələsi haqqında.

Məruzəçi – Ələkbər İsmayılzadə .

IV. Digər məsələlər.

Məruzəçi – Yaşar Məmmədov .

Səhmdarların ümumi yığıncağının gündəliyinin materialları ilə 2023-cü il martın 31-dək aşağıdakı link vasitəsilə tanış olmaq mümkündür.

https://kapitalbank.az/sehmdarlarin-yigincagi

Beynəlxalq həyat

Brüsseldə onuncu Ukrayna müzakirəsi

Dünən Brüsseldə Ukraynaya hərbi dəstək üzrə təmas qrupunun "Ramştayn" formatında onuncu görüşü keçirilib. Bu barədə Ukraynanın "Strana.ua" saytı xəbər verib.

Məlumatda bildirilir: "Artıq Ukraynanın müdafiə naziri Aleksey Reznikov Brüsselə gedib və burada ABŞ-dan olan həmkarı Lloyd Ostinlə görüşüb".

Pentaqonun rəhbəri ukraynalı həmkarı Aleksey Reznikovla görüşü barədə özünün "Twitter" hesabında yazıb: "Yaxşı dostum və ukraynalı həmkarım Aleksey Reznikovla görüşmək həmişə xoşdur. 50-dən çox ölkə Ukraynanın suverenliyi və özünümüdafiəsi uğrunda bu mübarizəyə sizinlə birlikdə qoşulub".

Reznikov özünün sosial şəbəkə hesabında keçirəcəyi görüşlərin gündəliyilə bağlı məlumat verərək qeyd edib ki, əsas məsələ Ukrayna səmasının qorunması, bu prosesə aviasiyanın cəlb edilməsidir. Eyni zamanda, "tank koalisiyasının inkişafı", davamlı mərmi ehtiyatının yaradılması, ukraynalı hərbçilərin təlimi, logistika, silahların təmiri kimi məsələlər də diqqət mərkəzindədir.

Həmin gün NATO-nun Baş katibi Yens Stoltenberq də bəyan edib ki, fevralın 14-də alyansın müdafiə nazirlərinin görüşündə Kiyevə döyüş təyyarələrinin göndərilməsi məsələsinə də baxılacaq, amma əsas prioritet təyyarələr deyil, vəd olunmuş hərbi avadanlıqlar və zirehli texnikalar olacaq. O, əlavə edib ki, Ukraynaya qırıcıların verilməsi alyansın münaqişə tərəfi olması demək deyil.

Qeyd edək ki, son zamanlar bir sıra Qərb ölkələri Ukrayna Silahlı Qüvvələrinə qırıcıların verilməsi imkanlarını fəal müzakirə edirlər. Fevralın 8-də Londona səfəri zamanı Ukrayna Prezidenti Volodimir Zelenski də Kiyevə döyüş təyyarələrinin göndərilməsini xahiş etmişdi.

Ukraynanın şərqində isə döyüşlər davam edir. Ukrayna hərbçiləri Baxmut üzərində "Vaqner" özəl hərbi şirkətinə məxsus Su-24 təyyarəsini vurduqlarını bildiriblər. Onların sözlərinə görə, bu, "Vaqner"in başçısı Yevgeni Priqojinin Ukrayna Prezidentini hava duelinə çağırdığı təbliğat videosunun çəkilişi zamanı istifadə edilən təyyarə olub.

Məlumatı Priqojinin mətbuat xidməti də təsdiqləyib: "Bəli, həqiqətən də, həmin təyyarə düşmənin hava hücumundan müdafiə sistemlərinin hücumuna məruz qalıb. Pilot möcüzə sayəsində yanan təyyarəni yerə endirə bilib. Hazırda təyyarə təmirdədir".

Paşa ƏMİRCANOV,
"Xalq qəzeti"

OXUCULARIN NƏZƏRİNƏ!

"Xalq qəzeti"

2023-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. **"Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.**
2. **"Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.**
3. **"Azərmətbuatyayımı" ASC (012)-440-16-26.**
4. **"SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.**
5. **"ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.**
6. **"PRESSİNFORM" MMC (012)-598-49-52, (050) -456-08-35.**

1 illik – 124.80 (yüz iyirmi dörd manat səksən qəpik) manat.

6 aylıq – 62.40 (altmış iki manat qırx qəpik) manat.

3 aylıq – 31.20 (otuz bir manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!

Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız (012)-498-85-25 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.

Hörmətli oxucular!
ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

"Xalq qəzeti"nin reklam və elan xidməti: 493-82-21



Süni intellekt dinləməyi də bacarır

Çağdaş dönəmdə süni intellektlə dəstəklənən proqramlar o qədər inkişaf edib ki, onlar hətta insanlara bir-birlərilə görüşlərinin necə keçdiyi barədə rəy verə bilir.

Müsahibənin necə keçdiyini düşünəndə, yəqin ki, heyrətə gələ və tam nəticə çıxara bilməyəcəksiniz. Bu vəziyyəti həll etmək üçün elmi araşdırmalar və süni zəka tətbiq edən tədqiqatçılar fiziki sinxronlaşmaya diqqət yetirərək maraqlı bir yeniliyə imza atıblar.

"IEEE Transactions on Affective Computing" jurnalında dərc edilən araşdırmaya görə, süni intellekt insanların fiziologiyasına əsaslanaraq söhbətin aspektlərini müəyyən edə bilir. 75 faiz dəqiqliyi ehtiva edən bu proqnozlar sonrakı dövrlər üçün böyük əhəmiyyət kəsb edir.

Cincinnati Universitetindəki mühəndislərin texnologiyası əsasında siz hətta qarşıdakı dövrdə bir ərizə ilə ilk görüşünüzün necə keçdiyini öyrənə bilərsiniz.

Tədqiqatçılar süni intellektə yalnız iştirakçıların fiziologiyasına əsaslanan nitqin aspektlərini necə tanımaq barədə təlim verərək, dörd fərqli nitq ssenarisində uğur qazanıblar. Süni intellekt dörd fərqli nitq ssenarisini 75 faizə qədər dəqiqliklə ayırd edə bilib.

Kompüter sizə təyinatınız və ya özünüz haqqında doğru rəy verə bilər. Kompüter hətta əhvalınızın olmadığını da anlaya bilər. Hazırlanmış sistemin dəyişdirilmiş versiyası iki nəfərin söhbət etdiyi zaman bir-biri üçün nə qədər maraqlı və nə dərəcədə uyğun olduğunu və digər şəxsin söhbətə nə dərəcədə qarışdığını ölçməyə qadirdir. Biz yalnız onu ölçəndə fizioloji sinxronlaşmanı müşahidə edirik, lakin bu, çox güman ki, daha yaxşı koordinasiya səviyyəsi yaradır.

Səadət RZAYEVA, "Xalq qəzeti"

İdman xəbərləri

Yeni rekord

Misli Premyer Liqasının və Ağdamın "Qarabağ" klubunun gənc bombardiri Musa Qurbanlı cari mövsümdə 16-cı qolunu vurub. Bu qol Misli Premyer Liqasının 22-ci turuna – "Qarabağ"–"Sabah" oyununa təsadüf edib.

Ötən sayımızda da qeyd etdiyimiz kimi, o, qarşılaşmanın 15-ci dəqiqəsində rəqib qapısına yol tapıb və bacımlı qola imza atıb.

O, bu qol sayəsində ölkə çempionatları tarixinin rekorduna imza atıb. Belə ki, Musa bir mövsümdə ən çox qol vuran 21 yaşadək futbolçu adına yiyələnib.

Musa Qurbanlıyadək bu rekord 15 qola bərabər idi. 1998–1999-cu illər mövsümündə "Dinamo"nun hücumçusu Fərrux İsmayılov 15 qol vurub. 2005–2006-cı illər mövsümündə isə "Şahdağ"ın nigeriyalı legioneri Əhməd Ticani eyni nəticəni təkrarlayıb. Bu rekordu əvvəlki turda təkrarlayan Musa "Sabah"la görüşdə mütləq rekord vurub.

Qeyd edək ki, bu qol həm də gənc forvardın Ağdam təmsilçisinin heyətində yubiley qolu olub. O, "Qarabağ" klubunun forması ilə Premyer Liqada 25-ci dəfə fərqlənib.

"Quba Open" başa çatıb

Qubada ilk dəfə keçirilən "Quba Open" beynəlxalq şahmat turnirinə yekun vurulub.

Azərbaycan Şahmat Federasiyasından aldığımız məlumata görə, turnirin əsas yarışında 9 oyundan 8 xal toplayan Fərid Mustafayev birinci yeri tutub. Kənan Qarayevlə Murad İbrahimli müvafiq olaraq 2-3-cü yerləri bölüşdürüb.

12 yaşlıların mübarizəsində Əlisəfa Zeynallı qalib gəlib. Anar Rəhmanov ikinci, Rauf Əliyev üçüncü olub.

Ümumilikdə, 110 şahmatçının yarışdığı turnir Quba Şahdağ Otelinin sponsorluğu və "Ağ Top" klubunun təşkilatçılığıyla keçirilib.

Yeni transfer

"Səbail" klubu qış transfer pəncərəsində dördüncü transferini rəsmiləşdirib.

Məlumata görə, komanda "Zirə"nin yarımmüdafiəçisi İlkin Muradovu heyətinə cəlb edib. "Zirə" klubu sosial şəbəkə vasitəsilə 26 yaşlı yarımmüdafiəçini mövsümün sonuna qədər autsayderlər zonasında qərarlaşan kluba icarəyə verdiyini açıqlayıb.

Xatırladaq ki, "Səbail" buna qədər qış fasiləsində David Qomis, Matiya Lyuyiç və Mirəli Əhmədovu transfer edib.

Gərgin mübarizə

Azərbaycan Basketbol Liqasında "Sərhədçi" İdman Mərkəzində "Sabah BK" və "Neftçi İK" basketbolçuları arasında 17-ci turun son oyunu gərgin mübarizə ilə yadda qalıb.

Belə ki, birinci hissədə bərabər mübarizə getsə də, ikinci hissədə "Sabah BK" basketbolçuları üstün oyun nümayiş etdirərək 79-61 hesablı qələbə qazanıblar. Ən məhsuldar basketbolçular: "Sabah

BK" (Mayk Edvards - 15 xal, 6 ribaund), "Neftçi İK" (Yuri Kondrakov - 18 xal, 8 ribaund).

Qeyd edək ki, 18-ci turun oyunları ("NTD BK" – "AAAF Xırdalan BK", "Sabah BK" – "Gəncə BK", "Neftçi İK" – "Olimpik Şəki BK", "Zirvə Astara BK" – "Sərhədçi PİK") 15, 18 və 19 fevral tarixlərində keçiriləcəkdir.

Elçin AĞAMİRZƏ,
"Xalq qəzeti"

Sosial şəbəkələrdən seçmələr

Türkiyə zəlzələyə qalib gələcək!

Dünən "Facebook" səhifəsində kifayət qədər fəal olan Aynur Familqızı adlı bir ziyalı xanım müasir Türkiyə Cümhuriyyətinin qurucusu, böyük Atatürklə bağlı ibrətamiz bir hekayəti paylaşıb. Orada yazılıb:

"Bir dəfə Mustafa Kamal Atatürk övladlarının hamısını Vətən uğruna şəhid vermiş bir qoca ilə görüşmək üçün onın hüzuruna gəlir. Onların arasında çox ibrətamiz bir dialoq baş tutur.

Atatürk şəhid atasından soruşur:

– Dövlət sənə yardıma gəlib, nə istərdin dövlətindən?

Qoca sualın cavabında belə deyir:

– Heç bir şey istəmirəm, Paşam! Biz yeddi böyük dövlətlə hərb etmiş, qoca məmləkəti yenidən qurmuşuq. Bu, bizə yetər!

Atatürk qocanın cavabından çox məmnun qalır:

– Heç üzülmə, qoca! Bu halın çarəsinə də baxacağıq!"

Atatürkün sözlərindən belə anlaşılır ki, ağır, üzücü müharibədən qurtulan, milli istiqlal savaşında zəfər çalan Türkiyə yenidən ayaq üstə duracaq, inkişaf və tərəqqi edəcək, bu ölkənin vətəndaşları hürr və rifah içində yaşayacaqlar.

Həqiqətən də belə oldu. Türk xalqı o dönəmdəki ağır çətinliklər, məhrumiyyətlər qarşısında sınmadı, torpağını qanı, canı bahasına qoruduğu kimi, ölkəni iqtisadi və hərbi cəhətdən də gücləndirdi.

O vaxtdan artıq bir əsr keçib. Bu il Türkiyə Cümhuriyyəti 100 yaşını qeyd edəcək. Onu da bildirək ki, qardaş ölkə son onillər ərzində xüsusilə böyük uğurlar qazanıb. Qürurverici haldır ki, görkəmli dövlət xadimi

Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyilə Türkiyə dünyanın aparıcı ölkələrindən birinə çevrilib.

Bu il yanvarın 6-da Türkiyədə baş verən ağır zəlzələ hər birimizi dərindən sarsıtdı. Lakin bu dəhşətli fəlakətin ağır fəsadları mütləq aradan qaldırılacaq. Azərbaycan xalqı hər zaman olduğu kimi, bu dəfə də qardaş Türkiyənin yanındadır.

Əziz oxucu, Atatürklə bağlı yuxarıdakı paylaşıma bir çox sosial şəbəkə izləyiciləri, eləcə də Ələddin Qarayev adlı bir nəfər belə bir rəy bildirib:

"Ruhu şad olsun böyük Mustafa Kamalın!

Zəlzələ zonası tezliklə Türkiyənin qardaş və dostlarının köməyi ilə cənnətə dönəcəkdir. Təəssüflə qeyd edim ki, həyatını itirən insanlar, yarımçıq qalan ömürlər geriyə dönməyəcək. Adamı sarsıdan budur!".

P.S. Rəy bu sözlərlə bitir: Qoy düşmənlər sevinməsin! Türkiyənin gücü, qüdrəti yerindədir!

Təqdim etdi:
M.HACIXANLI,
"Xalq qəzeti"

Hava proqnozu

✓ ***Fevralın 15-də***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Arabir güclənən cənub-qərb küləyi əsəcək, axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 0-2°, gündüz 6-8° isti olacaq. Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət 60-70 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi dağlıq ərazilərdə arabir qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Gecə 6-11° şaxta, gündüz 1-6° isti olacaq. Gecə yollar buz bağlayacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 7-12° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam dağlıq ərazilərdə arabir qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Gecə 7-12°, dağlıq ərazilərdə 14-17° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 2-7° şaxta, gündüz 5-9° isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şərq rayonlarında arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 5-10° şaxta, gündüz 3-8° isti, dağlarda gecə 14-19°, gündüz 3-8° şaxta olacaq. Gecə və səhər bəzi dağlıq ərazilərdə yollar buz bağlayacaq.

✓ **Mingəçevir, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə az çiskinli olacağı ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-11° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin axşam dağlıq ərazilərdə az qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi əsəcək. Gecə 3° şaxtadan 2°-dək isti, gündüz 7-11° isti, dağlarda gecə 4-9° şaxta, gündüz 4-7° isti olacaq. Gecə və səhər dağlıq ərazilərdə yollar buz bağlayacaq.

ALLAH RƏHMƏT ELƏSİN

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dillər Universitetinin rektoru, akademik Kamal Abdulla Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Dövlət İmtahan Mərkəzinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət Pedaqoji Universitetinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) maliyyə və audit kafedrasının müdiri , iqtisad elmləri doktoru, professor Əvəz Ələkbərov Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Bakı Avrasiya Universitetinin rektoru, professor Nazim Hüseynli Azərbaycan Respublikası Elm və Təhsil nazirinin müavini Firudin Qurbanova qardaşı, Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri

FƏXRƏDDİN QURBANOVUN

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4681
SİFARİŞ 410
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00